www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 20 noyabr 2015-ci il Cümə № 258 (6286) Qiymәti 40 qәpik

**Xəbər**

## Ərzaq məhsullarının qiyməti yenə bahalaşdı

yazısı səh.11-də

**Gündəm**

### Prezidentlər görüşə razılıq verdilər



Azərbaycanın dövlət başçısından qəti mövqe: "Ərazi bütövlüyümüzü bərpa etmək üçün hər şeyi edəcəyik"; siyasi təhlilçilər planlaşdırılan görüşü şərh edir

yazısı səh.10-da

### ABŞ Azərbaycanla münasibətləri düzəldir

yazısı səh.9-da

### "Üzən məzənnə" xalqı üzə bilər

yazısı səh.13-də

### "Azəristiliyin" qaz borcu dondurulmasa, Bakı dona bilər

yazısı səh.5-də

### İŞİD terroru Putini izolyasiyadan çıxarır

yazısı səh.12-də

### Sahibkar Gürcüstan ərazisinə keçib yenidən aclığa başladı

yazısı səh.5-də

### "MTN ləğv olunmalıdır" təklifinə sabiqlərdən reaksiya

yazısı səh.12-də

### Şirvanda kriminal "razborka": qətl, sui-qəsd, həbs...

yazısı səh.3-də

### Gürcüstanın SOCAR müəmması-Azərbaycanın layihəsi sıxışdırılır

yazısı səh.13-də

### Jurnalistikamızda ən çox rast gəlinən adlar-baş hərfi "E"...

yazısı səh.15-də

### Azərbaycanda konsert və tamaşa zalları hansı səviyyədə qorunur?

yazısı səh.6-da

### "Land Cruiser" dəhşətli qəza törətdi: 2 ölü

yazısı səh.15-də

**Eldar Mahmudovun həbs dosyesi xüsusi komissiya tərəfindən hazırlanır**

# GENERAL ELÇİN ƏLİYEVLƏ RƏSUL QULİYEVİN TELEFON DANIŞIĞI - KOD "28 OKTYABR"...

MTN işində Rəsul Quliyevə zəng fraqmenti - yeni gəlişmələr var; sabiq spikerlə general Elçin Əliyev arasındakı telefon danışığını Rusiya xüsusi xidmət orqanları fiksə edib; Bəylər Əyyubovun rəhbərlik etdiyi xüsusi komissiya gecə-gündüz işləyir; yeni hay-küylü həbslər başlayır...




yazısı səh.4-də

## "Daha 9 deputat mandatsız qalacaq" iddiası: KM nə deyəcək?

İstənilən 125 dairədə nəticələr o halda ləğv edilə bilər ki, narazı qalmış namizədin (və ya namizədlərin) üç məhkəmə instansiyasına müraciəti olsun; Konstitusiya Məhkəməsi hansısa dairədəki nəticəni özbaşına ləğv edə bilməz

yazısı səh.7-də



### Araz Əlizadənin ittihamlarına sərt cavablar gəldi

yazısı səh.7-də



Andrey Kazançev

*Rusiyalı ekspertdən sensasion açıqlama:*

### "Azərbaycan terrorçuların mühasirəsinə düşüb"

yazısı səh.6-da



*Arif Məmmədov:*

### "Hakimiyyəti dəyişdirmək üçün ölkəyə dönəcəyik"

yazısı səh.3-də

Möhsün Pakəyin




## "Beynəlxalq Bank işi"nə görə tutulan iş adamı xəstəxanaya düşdü

**"Azərbaycan Beynəlxalq Bankı" ASC-dən kredit götürərək qaytarmamaqda günahlandırılan "City Developer" MMC-nin direktoru Ratmir Bəkirov xəstəxanaya yerləşdirilib. "Report"un əldə etdiyi məlumata görə, o, Penitensiar Xidmətin Müalicə Müəssisəsinə aparılıb. R.Bəkirov əməliyyat ediləcək.**

O, əməliyyat edildikdən və səhhəti normallaşandan sonra məhkəməyə aparılacaq.

Qeyd edək ki, R.Bəkirov barəsində seçilmiş həbs-qətimkan tədbirinin müddətinin artırılması üçün Nərimanov Rayon Məhkəməsinə aparılmalı idi.

R.Bəkirov fəaliyyətini dayandırmış "Simurq" klubunun prezidenti Anar Bəkirovun atasıdır. Onun "Azərbaycan Beynəlxalq Bankı" ASC-yə təxminən 50 milyon dollar borcunun olduğu bildirilir.

## "Əsəd getməyincə..."

**"Bəşər Əsəd hakimiyyətdən getməyincə, İŞİD-i tam məhv etmək mümkün olmayacaq". APA-nın "Röyters"ə istinadən verdiyi məlumata görə, belə bir bəyanatla ABŞ prezidenti Barak Obama çıxış edib.**

"Suriyada siyasi nizamlanma olmayınca, terrora qalib gəlmək mümkün olmayacaq. Əsəd hakimiyyətdə olduğu müddətdə isə siyasi nizamlanma mümkün deyil", - deyə o vurğulayıb.

Qeyd edək ki, Suriya prezidenti Bəşər Əsəd İtaliya mətbuatına müsahibəsində terrorçulara qalib gəldikdən iki il sonra istefaya gedə biləcəyini bildirib. "Terrorçuların əksər rayonlara nəzarət etdiyi müddətdə siyasi nöqteyi-nəzərdən nəticələr əldə etmək mümkün deyil", - deyə o vurğulayıb.

## Gələn ildən bəzi ixtisaslara bal məhdudiyyəti tətbiq olunacaq

**Növbəti tədris ili üçün ali məktəblərə tələbə qəbulu zamanı texniki və texnoloji, təbiət ixtisas qrupuna aid olan ixtisaslara bal məhdudiyyətinin qoyulacağı gözlənilir. Bunu Təhsil Nazirliyinin Aparat rəhbərinin müavini Yaqub Piriyev deyib.**

Aparat rəhbərinin müavini qeyd edib ki, ötən il ilk dəfə olaraq, bütün ixtisaslar üzrə müsabiqəyə buraxılma üçün 200 bal məhdudiyyəti qoyulmuşdu. I ixtisas qrupunun 6 müxtəlif ixtisasına isə 250-300 bal məhdudiyyəti tətbiq edilmişdi: "Texniki və texnoloji ixtisaslar qrupuna, təbiət ixtisas qrupuna aid olan bəzi ixtisaslar ölkə üçün prioritet olduğundan onlara bal məhdudiyyətinin qoyulacağı gözlənilir. Amma bu ixtisaslar hələ müəyyənləşdirilməyib. Həmin ixtisaslar müəyyənləşdiriləcək və onların bal məhdudiyyəti dəyişəcək".

Y.Piriyev deyib ki, bal məhdudiyyətinin nə qədər olacağı qəbulun nəticələri müzakirə edildikdən sonra müəyyənləşdiriləcək.

"Elm" tədris mərkəzi
MAGIC LANGUAGES
➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)
Ünvan: 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
Ünvan: 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05

"Qaya Mətbuat Yayımı" MMC!
- İtənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:
- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı sldıqdan sonar abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;
Ən başlıcası ayda 26 dəfə nəşr olunan
"Yeni Mesavat" - 0.40 AZN
və bundan əlavə 2500 adda yerli
və xarici nəşrlər.
- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil,
Telefonla zəng etməyiniz kifayətdir:
Bakı şəh. 564-63-45; 598-35-22
- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur:

# MTN generalının xanımından maraqlı açıqlamalar

### "Bunun üçün ancaq prezident qərar verə bilər"

**Milli Təhlükəsizlik nazirinin birinci müavini, general-leytenant Hilal Əsədovun işdən çıxarılması ilə bağlı yayılan məlumatlara xanımı, Bakıdakı poliklinikalardan birinin baş həkimi işləyən Nüşabə Əsədova aydınlıq gətirib.**


Nüşabə Əsədova

N.Əsədova criminal.az-a açıqlamasında bildirdi ki, Hilal Əsədov hazırda işdədir, MTN-də öz kabinetində iş başındadır: "Onun işdən çıxarılması ilə bağlı məlumatları bizi sevməyən düşmənlər yalandan yayır. Ancaq onların arzuları ürəklərində qalır. Hilal Əsədov bu dəqiqə işdədir, MTN-də kabinetində oturub. Onun işdən çıxarılması yalandır. Prezidentin sərəncamı nə vaxt olub ki? Bunu yəqin kimsə məqsədli şəkildə yayır. Hilal müəllimin vəzifəsi elədir ki, onu çıxarmaq üçün ancaq prezidentin sərəncamı olmalıdır. Bunun üçün ancaq prezident qərar verə bilər. Kimsə ağzına gələni yazdırır, axı bu düz deyil".

Baş həkim deyir ki, bir neçə gün əvvəl yaşadıqları evin şəklini də çəkiblər, deyirlər guya evdə axtarış olub: "Kiminsə kimsəni cəzalandırması düz deyil axı..."

**N.Əsədova həyat yoldaşının Bakıda hotelləri və obyektləri olması məsələsinə də aydınlıq gətirib:** "Hotelimiz, obyektimiz var ki əlimizdən də alınsın? Həyat yoldaşımın bir obyekti belə yoxdur. O, təmiz işləyən adam olub. Hilal müəllim dövləti, milləti üçün təmiz işləyən bir şəxsiyyətdir. Hardadır o obyektlər? Göstərsinlər, mən də yerini tanıyım. Murdar adamlar yayır belə məlumatları. Siz gəlib evimə, bağıma baxsanız, görərsiniz ki, heç nəyimiz yoxdur. Bir obyekt belə yoxdu, hələ onun sayını çoxaldırlar. Belə bir misal var: yaddan çıxıb, gözdən düşmə, amandır. Yəqin bizi yaddan çıxmağa qoymurlar. Ona görə də Hilal müəllim haqda məlumatlar yayır, canfəşanlıq edirlər".

**Sonda nazir müavininin xanımı vəzifənin ömürlük olmadığını vurğuladı:** "Cıxaranda da çıxararlar. Vəzifə hamı üçün ömürlük deyil ki... Cənab prezident sərəncam verib çıxardar, canı sağ olsun. Vəzifə ancaq bizim üçün deyil ki. Çıxaranda da gedib xidməti təqaüdünü alar. Yoldaşım 11 il MTN-də can qoyub. Antiterror idarəsində zülm çəkib bu insan. Niyə ağızlarına gələni yazırlar".

## Yas sahibinə dəfn mərasimi üçün pul veriləcək

**Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin İqtisadiyyat və Sənaye Nazirliyi ilə birgə hazırladığı "Məzar yerləri və məzarlıqlar haqqında" qərar layihəsinə dəfn mərasimlərini həyata keçirmək üçün insanlara maliyyə vəsaitinin verilməsi də daxil edilib.**

Bunu "Trend"ə Dini Qurumlarla iş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı deyib.

O qeyd edib ki, layihədə gələcəkdə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə birgə insanlara dəfn mərasimlərini həyata keçirmək üçün vəsaitin verilməsi məsələsi də öz əksini tapıb: "Burada söhbət yardım göstərməkdən gedir. Bu vəsait ehsan vermək üçün deyil, dəfni icra etmək üçün nəzərdə tutulur".

Komitə sədri əlavə edib ki, layihədə məzarlıqlarla bağlı bir çox məsələlər - məzar yerlərinin ayrılması, onların ölçüləri, büstü, onların ölçüləri, qəbirlərarası məsafələr, qəbiristanlıqla yaşayış məntəqələri arasında məsafələr, dəfn mərasimləri, qəbiristanlıqda dəfn mərasimlərinin icrası və s. öz əksini tapıb.

Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!
Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!
Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.
Telefon: (012) 434 93 01, 434 01 33




## Təyyarə reysləri üçün Yeni il endirimləri

**"Azərbaycan Hava Yolları" Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il ərəfəsində beynəlxalq uçuşlara endirim elan edib. "Qafqazinfo" xəbər verir ki, kampaniya çərçivəsində aşağıdakı istiqamətlər üzrə endirimli biletlər satılacaq:**

* *Bakı - London - Bakı - 329 avrodan başlayaraq;*
* *London - Bakı - London - 269 funt sterlinqdən başlayaraq;*
* *Bakı - Milan - Bakı - 329 avrodan başlayaraq;*
* *Bakı - Paris - Bakı - 349 avrodan başlayaraq;*
* *Bakı - Nyu-York - Bakı - 499 avrodan başlayaraq;*
* *Nyu-Yok - Bakı - Nyu-York - 549 ABŞ dollarından başlayaraq;*
* *Bakı - Praqa - Bakı - 329 avrodan başlayaraq;*
* *Praqa - Bakı - Praqa - 359 ABŞ dollarından başlayaraq;*
* *Bakı - Təl Əviv - Bakı - 299 avrodan başlayaraq;*
* *Təl Əviv - Bakı - Təl Əviv - 329 ABŞ dollarından başlayaraq;*
* *Bakı - Lvov - Bakı - 289 avrodan başlayaraq;*
* *Lvov - Bakı - Lvov - 319 ABŞ dollarından başlayaraq;*
* *Bakı - Kazan - Bakı - 209 avrodan başlayaraq;*
* *Bakı - Sankt-Peterburq - Bakı - 279 avrodan başlayaraq.*

Yeni il aksiyası çərçivəsində biletlərin satışı 2015-ci il dekabrın 10-dan başlayacaq və 2016-cı il yanvarın 10-dək davam edəcək. Uçuş tarixi -yanvarın 15-dən 2016-cı il fevralın 29-dəkdir.

## Gürcüstanın müdafiə naziri Azərbaycana gələcək

**Gürcüstanın müdafiə naziri Tinatin Xidaşeli dekabrın əvvəlində Azərbaycana səfər edəcək. "Report" Gürcüstan KİV-inə istinadən xəbər verir ki, bu haqda ölkə Müdafiə Nazirliyinin mətbuat xidməti məlumat yayıb.**

O, noyabrın 19-da Şimali Amerika və Avropa ölkələrinə iki həftəlik səfərə yola düşüb.

Nazirin səfəri Kanadadan başlayacaq, oradan Nyu-Yorka gedərək, BMT-nin sülhməramlı missiyasının rəhbərliyi ilə görüşəcək.

Tinatin Xidaşeli ABŞ-dan Avropaya səfər edəcək. Nazir iki həftəlik səfərinin sonunda Bakıya gələcək.

## Çingiz Əsədullayev "AGBank"dakı payını artırıb

**"AGBank" ASC-nin səhmdarlarının sayında və pay bölgüsündə ciddi dəyişiklik baş verib.**

Bankın Müşahidə Şurasının sədri və əsas səhmdarlarından biri olan Çingiz Əsədullayev nizamnamə kapitalında payını 23,096%-dən 23,270%-dək artırıb.

Bundan başqa, minoritar səhmdarların sayı 65-dən 61-ə enib, onların bankın kapitalındakı ümumi payı isə 25,637%-dən 31,463%-dək artıb. Anlaşılan budur ki, 4 minoritar səhmdar payını satıb.

Bankdan xəbəri APA-ya təsdiqləyiblər. Bildirilib ki, minoritar səhmdarlar öz paylarını C.Əsədullayevə satıblar.

Digər majoritar səhmdarların kapitalda payı dəyişilməz olaraq qalıb. Belə ki, Beynəlxalq Maliyyə Korporasiyası kapitalda 17,5%, "Kazimir Partners" şirkəti 10%, Yusifov Fərzulla (Müşahidə Şurasının üzvü) 17,767%-lik paya malikdirlər.

## Xədicə İsmayılın məhkəməsi təxirə salındı

**Noyabrın 19-da Bakı Apelyasiya Məhkəməsində jurnalist Xədicə İsmayılın apelyasiya şikayəti üzrə məhkəmə prosesi təxirə salınıb.**

Virtualaz.org saytının müxbiri xəbər verir ki, hakim İlqar Murğuzovun sədrlik etdiyi məhkəmə prosesinin bugünkü iclası texniki səbəbdən baş tutmayıb.

Belə ki, X.İsmayılın vəkilləri bir neçə gün öncədən məhkəməyə yazılı şəkildə müraciət edərək Gürcüstana seminara getdiklərini, bu üzdən prosesdə iştirak edə bilməyəcəklərini bildiriblər.

Proses noyabrın 25-dək təxirə salındı.

Qeyd edək ki, X.İsmayıl jurnalist Tural Mustafayevin şikayəti əsasında saxlanılıb. T.Mustafayevin intihara cəhd etməsi ilə bağlı Səbayel Rayon Prokurorluğunda fakt əsasında Cinayət Məcəlləsinin 125-ci (özünü öldürmə həddinə çatdırma) maddəsi ilə cinayət işi başlanıb və bu ittiham üzrə 5 dekabr, 2014-cü ildə X.İsmayıl barəsində 2 ay müddətinə həbs-qətimkan tədbiri seçilib.

Sonradan X.İsmayıla qarşı Azərbaycan Baş Prokurorluğu tərəfindən Cinayət Məcəlləsinin 179.3.2 (mənimsəmə və israf etmə - külli miqdarda törədildikdə), 192.2.2 (qanunsuz sahibkarlıq), 213.1 (vergi ödəməkdən yayınma) və 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) maddələri ilə yeni ittihamlar elan olunub.

Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə X.İsmayıla qarşı 125-ci maddə üzrə verilmiş ittihama xitam verilib, digər maddələr üzrə təqsirli hesab edilərək 7 il 6 ay müddətinə azadlıqdan məhrum edilib. Hökmdən narazı qalan X.İsmayıl apelyasiya şikayəti verib. Şikayətdə onun barəsindəki cinayət işinə xitam verilməsi və azadlığa buraxılması tələb olunur.

YENİ MÜSAVAT
N 258 (6286) 20 noyabr 2015



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

# "Hakimiyyəti dəyişdirmək üçün ölkəyə dönəcəyik"

## Arif Məmmədov vəzifədən qovulmasının əsas səbəbini açıqladı



Arif Məmmədov

**Azərbaycanın Niderlanddakı səfirliyinin sabiq attaşesi, ölkəyə qayıtmaqdan imtina edən Nahid Cəfərovun sonuncu açıqlaması diplomatik qalmaqal məsələsini yenidən gündəmə gətirib. N.Cəfərov AzadlıqRadiosuna müsahibəsində İslam Əməkdaşlıq Təşkilatının Avropa İttifaqındakı keçmiş səfiri Arif Məmmədovun vəzifəsindən uzaqlaşdırılması ilə bağlı fərqli fikirlər bildirib.**

N.Cəfərov A.Məmmədovun feysbuk statusuna görə işdən çıxarılmadığını deyib.

Xatırladaq ki, Arif Məmmədov bu ilin may ayının 19-da Bakının Binəqədi qəsəbəsində 15 nəfərin ölümü ilə bağlı baş verən yanğınla bağlı öz feysbuk səhifəsində status yazaraq yanğına səbəb olanları və dövlət məmurlarını tənqid etmişdi. Bundan sonra o, vəzifəsindən geri çağırılmış, bəzi dövlət və hökumət rəsmiləri tərəfindən tənqid edilmişdi.

**Hər kəs Arif Məmmədovun məhz bu fikirlərinə görə vəzifədən kənarlaşdırıldığını düşünürdü. Lakin N.Cəfərov A.Məmmədovun işdən çıxarılmasını belə izah edib:** "Arif Məmmədovu vəzifədən ona görə çıxardılar ki, o, 2012-ci ildə XİN-in kollegiya iclasında azərbaycanlı diplomatları işlədikləri ölkələrdə rüşvət verməkdə ittiham etmişdi. O zamandan Arif Məmmədovu cəzalandırmaq istəyirdilər".

**Arif Məmmədov musavat.com-a açıqlamasında N.Cəfərovun dediyi fikirləri təsdiqləyib:** "Doğrudur ki, məni sözümü deməyimə, bir də Qərbdə yaxşı şəxsi münasibətlərimə görə çoxdan "vurmaq" istəyiblər. Nahid Cəfərovun verdiyi məlumatlar düzdür. Hesab edirəm ki, biz hakimiyyət dəyişəndən sonra yox, daha tez ölkəyə dönəcəyik. Elə hakimiyyəti dəyişdirmək üçün".

**Sabiq diplomat feysbukda yazılan statusun sadəcə bəhanə olduğunu qeyd edib:** "Yazdığım status bəhanə idi. Bu statusu prezidentin masasına qoyub dedilər: "Gördünüz, biz deyirdik ki, Arif Məmmədov hakimiyyətimizin düşmənidir"".

**A.Məmmədov vəzifədə olduğu müddətdə heç bir ölkədə rüşvət vermədiyini və bu işi görənləri hər zaman tənqid etdiyini bildirdi:** "Mən hər zaman hakimiyyətin ağılsız, ölkəmizi biabır edə biləcək addımlarını tənqid etmişəm. Məni bu hallarla razı olmadığıma görə diplomatik fəaliyyətdən uzaqlaşdırdılar".

❑ **İlkin MURADOV**

# Həbs edilən məmurların villaları sökülsün, yoxsa?

**Fazil Mustafa:** "Mən bu villaların kimsəsiz uşaqlar üçün ayrılmasını istərdim"

**Elşad Paşasoy:** "Keçici bir mərhələ üçün həmin villalardan uşaq bağçası kimi istifadə etmək olar"

**Hökumət daxilində aparılan son "təmizləmə" əməliyyatından sonra həbs edilən, işdən çıxarılan məmurların mənimsədiyi milyonlarla manat vəsaitlə yanaşı, onların dəbdəbəli villaları da müzakirə mövzusudur.**

Mətbuatda ən çox adı hallanan MTN-in Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik Baş İdarəsinin sabiq rəisi, general-mayor Akif Çovdarova, BRTİB-in keçmiş rəhbəri Beytulla Hüseynova, Rabitə Nazirliyinin Aparat rəhbəri olmuş Vidadi Zeynalova və digərlərinə məxsus villaların taleyi də hər kəsi maraqlandırır. Bu villaların məhkəminin qərarı ilə dövlət tərəfindən müsadirə edilməsi gözlənilsə də, hansı təyinat üçün istifadə ediləcəyi sual altındadır. Ancaq ictimaiyyəti narahat edən məsələlərdən biri də məmurların villalarının sökülməsi təcrübəsidir. Xatırladaq ki, bu artıq bir neçə dəfə baş verib. İctimaiyyət nümayəndələri isə hazırkı şəraitdə mənimsənilən dövlət vəsaiti hesabına tikilən villaların sökülməsini deyil, müxtəlif sosial təyinatlar üzrə istifadəsini təklif edirlər. Bu məsələ ilə bağlı sosial şəbəkələrdə də müzakirələr gedir.

"Yeni Müsavat" mövzunun aktuallığını nəzərə alaraq ictimaiyyət nümayəndələrinin mövqeyini öyrənməyə çalışıb.

**Deputat Zahid Oruc müsadirə edən mülkiyyətin ilk növbədə MTN generallarının cinayətkar əməllərinin qurbanı olan şəxslərin haqlarının bərpası istiqamətində xərclənməsini təklif edib:** "MTN-dən söhbət gedirsə, nazir başda olmaqla, onun bandit "çete"si və ona qulluq edən digər şəxslər bir neçə mənbədən qazanırdılar. Sahibkarların mediaya daxil olan müraciətlərinə baxsaq, görərik ki, qabarıq görünən birinci mənbə onlardır. Sistemli olaraq, konkret bir mexanizm üzrə, dövriyyəsi bir milyon dollar olanlara bir cür, ondan aşağı olanlara başqa cür təzyiq göstərməklə, şantajla əmlaklarını ələ keçirib iş adamlarını müflis ediblər. Bu vəsaitlərin tam dəqiq hesablanması da mümkün deyil.

İkinci mənbə dövlət elitasına, məmur kütləsinə aid olan şəxsləri, hətta daha yüksək vəzifədə olanları, nazirləri də bu qurumun mexanizmində bir elementə çevirmək, onları şantajla daimi ifşa etmək qorxusu altında saxlamaqla əldə olunmuş sərvətlərdir. Bunlar bir neçə yüz milyon dollarla ölçülə bilər.

Üçüncü, dövlətin büdcə resursları talan edilib. Həm Beynəlxalq Bankın, həm də "Texnikabank"ın ələ keçirilməsi, bu sferadakı digər qurumların üzərində ciddi bir nəzarət mexanizmləri yaradılıb. Bütün kanallar bu struktura çirkli pullar apanblar.

Dördüncüsü, bu struktura ayrılan dövlət vəsaitinin də üzərinə əllər qoyulub. Məlum olur ki, qurum yerlərdəki nümayəndələrinə ciddi "haqq" qoyub və onlar da bölgələrdə sümürgənliyi həyata keçirməklə bu vəsaitləri qazanıblar".

**Millət vəkili təklif etdi ki, Eldar Mahmudovun əməllərinə qurban olmuş şəxslərin hüquqlarını bərpa etmək üçün bir komissiya yaradılsın və onların bu cinayət əməllərinin qiymətləndirilməsi zamanı zərərçəkənlərə vurulmuş ziyanlar da ödənilsin:** "Dövlət resurslarını, büdcə vəsaitlərini də geri qaytarmaq lazımdır. Əgər külli miqdarda dövlət vəsaiti mənimsənilibsə, bunun geri qaytarılması bir tələbdir.



Villalar bu milyonların kiçik bir həlqəsidir. Bu peşəkar cinayətkar sistemi quranlar öz sərvətlərini görünən mülkiyyət formasında saxlamaqda maraqlı olmayıblar. Bir neçə villa bu qeyd etdiyimiz dövriyyənin çox kiçik bir hissəsidir. Burada ləl-cəvahirat, qiymətli daşlar, xaricdə saxlanılan pullar, xarici ölkələrdə alınmış mülkiyyət obyektləri də çirkli pulların saxlanılması üçün bir üsuldur.

Bunların müsadirə edilməsi, hərraca çıxarılması məsələnin bir tərəfidir. Ancaq elə bir şərait yaratmaq olmaz ki, 30-40 ildən sonra onların varisləri vəsatət qaldırsınlar ki, bu onların atalarından zorla alınıb. Biz də villaların sökülməsinin əleyhinəyik. Elə bir qərar verilməlidir ki, bu heç bir halda şübhə altına alınmasın və vətəndaşın, zərərçəkənin xeyrinə geridönüşü təmin olunsun".

**Millət vəkili Fazil Mustafa isə qeyd etdi ki, bu məsələdə söz sahibi müvafiq dövlət qurumlarıdır:** "Həbs olunan hər məmurun evi sökülmək məcburiyyətində deyil. Bu həmin şəxsin mülkiyyətidir, orada onun ailəsi yaşayır. Ancaq müsadirə edilib hansısa təyinat üzrə istifadə ediləcəksə, bunun üçün dövlətin müvafiq qurumları var, sosial fondları var, onlar qərar verə bilərlər. Mənim rəyimə gəlincə, mən həmin villaların uşaq evləri kimi istifadə edilməsinin tərəfdarıyam".

**"Yeni Müsavat" qəzetinin müxbiri Elşad Paşasoy isə həmin villaların məktəbəqədər təhsilin inkişafı istiqamətində təyin edilməsini təklif etdi:** "Burada dövlətin verəcəyi qərar o mülklərin sökülməsindən ibarət olmamalıdır. Çünki Azərbaycanda çoxlu sayda gənc ailələr var ki, evsizdirlər. Həmçinin uzun illər kirayədə qalan, mənzil sahibi ola bilməyən vətəndaşlar da var. Bundan əlavə, 18 yaşı tamam olduqdan sonra internat evlərindən çıxan, taleyin ümidinə buraxılan gənclər var. Bu mülklər müvəqqəti də olsa, həmin insanlara yaşayış üçün verilə bilər. Ancaq daha yaxşı olardı ki, bu villalar uşaq bağçası kimi istifadə edilsin. Çünki Bakıda 3 milyondan çox əhali var və cəmi 315 uşaq bağçası fəaliyyət göstərir. Bu rəqəmlər problemin nə dərəcədə dərin olduğunu göstərir. Keçici bir mərhələ üçün həmin villaların yerləşdiyi ərazidə uşaqlar üçün bağça kimi təsis oluna bilər. Mən əminəm ki, həmin villalarda bunun üçün hər cür şərait var. Xalqın sərvəti ilə tikilmiş bu villalardan maksimum dövlət və millət mənafeyi üçün istifadə etmək lazımdır".

❑ **Nərgiz LİFTİYEVA**

# Şirvanda qanlı "razborka"

## Qətlə görə tutulan Əli Ağaminin qardaşını öldürmək istəyiblər - yeni həbs olunan var




**Xəbər verdiyimiz kimi, noyabrın 5-də Şirvan şəhəri, H.Əliyev prospektində yerləşən kafedə kriminal aləmin üzvlərinin ölümlə nəticələnən mübahisəsi baş verib. Mübahisə zamanı "Makarov" tipli silahdan açılan atəş nəticəsində Şirvan sakinləri, əvvəllər məhkum olunmuş, 1990-cı il təvəllüdlü Zaur Vəfadar oğlu Sarıbalayev və kriminal aləmdə "krıtıy Elvin" kimi tanınan 1983-cü il təvəllüdlü Nəziyev Elvin Zamanəli oğlu qətlə yetirilib.**

Baş verən qətl hadisəsi ilə əlaqədar Şirvan sakinləri, 1985-ci il təvəllüdlü Tural Baloğlan oğlu Salmanov və bilavasitə qətli törədən 1989-cu il təvəllüdlü Əli Rasim oğlu Ağami saxlanılıb.

Redaksiyamıza daxil olan məlumatda deyilir ki, qan tökülsə də, "razborka" səngiməyib. Noyabrın 19-da qətlə görə həbsə alınan Ə.Ağaminin qardaşı Zaur Ağaminin həyatına qəsd olub. Onu təqib ediblər, Z.Ağami idarə etdiyi maşınla 9 saylı marşrut üzrə hərəkət edən avtobusa çırpılıb. Qaynağımız deyib ki, Şirvanda yeni qanlı mübahisənin olacağı, silahların yenidən işə salınacağı ehtimal edilir.

Mənbənin sözlərinə görə, bir neçə gün əvvəl Şirvanda "Abdulla" ləqəbi ilə tanınan Əli Ağaminin qardaşı Zaur Ağamini "Maqqa" ləqəbli Mahir Tahir oğlu evinə çağırıb. Bundan məlumatlı olan Z.Ağaminin anası hüquq- mühafizə orqanlarına, DİN-in 102 xidmətinə məlumat verib. Bundan sonra əməliyyatçılar onun evinə gedib. Məlum olub ki, Mahir evində Z.Ağamiyə bıçaqla hədə-qorxu gəlib. Buna görə saxlanılan Mahir Şirvan Şəhər Məhkəməsinə aparılıb və 15 sutka müddətinə azadlıqdan məhrum edilib. Bundan sonra Z.Ağami tutulan şəxsin atası tərəfindən təhdid olunub. Bu gün isə Z.Ağami qəflətən yoxa çıxıb və sonradan Şirvan şəhərinin "vosmoy" deyilən ərazisində peyda olaraq qəza törədib. Onun kriminal "razborka"ya çağırıldığı haqda da məlumat var. Bildirilir ki, Z.Ağami qəzadan əvvəl təqib olunub. Belə ehtimal var ki, o, dəvət olunduğu "razborka" məkanından qaçıb maşınına əyləşməklə canını qurtarmağa çalışıb və nəticədə qəza törədib.

❑ **E.HÜSEYNOV**

YENİ MÜSAVAT
N 258 (6286) 20 noyabr 2015



# İsveçdəyəm, qaqa, yazı yazıram

**Samir SARI**

**Mən İsveçi lap çoxdan tanıyıram. Uşaq vaxtımdan. Əlbəttə ki, mən də çoxları kimi, İsveçi xəritədən tanımışam. Yoxsa ki, ta ali məktəbə girənə qədər kəndimizdən çıxmışlığım olmayıb, br-iki dəfə rayon mərkəzinə getmişəm, o da birində diş çəkdirməyə, birində də nəyə görəsə.**

Xəritədəki şəklinə görə biz İsveçin (eləcə də Norveçin) itə oxşayan yarımadada yerləşdiyini bilirdik və yadımızda da elə saxlamışdıq. Camaat hələ də İsveçrə ilə İsveçi qarışdırır. Məsələn, mən bura (yazı İsveçdə yazılır) gələndə Elbəyi Həsənliyə, Kamil Tağısoya salam göndərənlər oldu. Ancaq Elbəyi və Kamil İsveçrədə yaşayırlar. İsveçlə İsveçrənin arasında Almaniya, Hollandiya, Danimarka kimi ölkələr var.

Ümumiyyətlə, bizim camaat artıq Avropanı bütünləşdirib, hesab edir ki, üzü Qərbə doğru ölkədən çıxdınsa, demək, Avropadasan, Avropa isə vahid dövlətdir, vahid millətdir. Hətta burdakıların hamısını ucdantutma "əxlaqsız, pozğun" sayanlar da var.

İsveçə çoxdan gəlmək istəyirdim, amma bundan ötrü bir neçə amil üst-üstə düşməliydi. Vaxt olanda pul olmurdu, pul olanda - vaxt, ikisi də olanda səbəb. Bu üçü düz gələndə həvəs olmurdu. Amma bu dəfə, müəllifin yubiley yaşı tamam olanda qəzetimizin rəhbəri Rauf Arifoğlu səfər üçün lazım olan komponentlərin əksər hissəsini təşkil elədi. Həvəs, viza və çamadan özümdə vardı.

Düşdüm yoluna ağına, hava yollarıyla gəldim xəritədə itə oxşayan ölkəyə.

Əgər mənim yerimdə bir azərbaycanlı yox, bir ərəb olsaydı, yazardı ki, "İtə oxşayan yarımadadakı dövlətin sərhədçi məmurları məni it kimi qarşıladılar". Amma düzü, mənə qarşı elə olmadı. Eləcə hardan gəldiyimi və niyə gəldiyimi soruşdular. Onları da qınamalı deyil, Suriyada İŞİD-in xəncərindən, gülləsindən qaçan da boxçasını götürüb İsveçə qaçır, bir çox ölkələrdə ata-anasıyla dalaşanlar da.

Ona görə də bu qonaqpərvər ölkə artıq sərhədi keçənləri yoxlayır, danışdırır. Mənim pasportuma baxan xanımın qonşuluğundakı kabinədə çalışan qadın bir ərəb görünüşlü şəxsi ölkəyə buraxana qədər bizim cərgəmizdən azı səkkiz adam ölkəyə daxil oldu. Onu isə hələ danışdırırdılar, deyəsən, hiss edirdilər ki, adam İsveçə qonaq gəlmir, qaçqın olub dövlət büdcəsinə yük olmağa gəlir.

İsveçli xanım məndən ingiliscə soruşdu ki, İsveçdə xeyirdirmi, mən də "may inqliş iz broken" deyib sözə başladım, izahat verdim, qonaq gəldiyimi, jurnalist olduğumu, miqrantlardan yazı yazacağımı bildirdim. Xanım bir mənə, bir pasportuma, bir də qonşuluqda sorğu-sual edilən ərəbə baxdı, mənim ərəb olmadığımı yəqinləşdirib pasporta möhür vurdu.

Pasportumu masadan götürəndə ağlıma gələn ilk fikir bu oldu ki, hər halda miqrasiya məsələsində ölkəmizin adı qara siyahıda deyil - Suriya, İraq, Pakistan, Əfqanıstan, Liviya və s. kimi.

İkinci fikrim də belə oldu, öz-özümə dedim ki, rəhmətliyin nəvəsi, 21-ci əsrin 15-ci ilində sənin ingiliscən niyə "broken" olmalıdır, özün də oxumuş adamsan, ingiliscəni niyə təkmilləşdirmirsən, birdən məmur xanım səni ölkəsinə buraxmayaydı, nə edəcəkdin.

Özümə görə bəhanəm, əlbəttə ki, var: iş çoxdur, vaxt azdır, əvvəlki həvəs yoxdur və s. Amma bunlar hamısı bəhanədir, özüm də bilirəm. İldə bir neçə dəfə çamadanını götürüb ölkədən çıxan, səyahətə həvəsli hər kəs ingiliscə və rusca yaxşı danışmalıdır. Onlar bu dillərdə elmi referat yazmasalar da olar, amma məsələn, jurnalistdirlərsə, aeroportda sərhədçi məmura "ay vont tu rayt əbout refyucis" deyə bilməlidirlər.

İndi məsələ belədir, pasport-nəzarət bölümünün işçisinə söz vermişəm, gərək İsveçdəki qaçqınların durumu, istəkləri, iştəkləri barədə yazı yazım. Çünki bu saat bu ölkənin, eləcə də dünyanın bundan yekə problemi yoxdur.

**P.S.** *Yazının başlığını İsveçdə nə etdiyimlə maraqlanan dostlara ünvanlamışam. İndilikdə belədir...*

---

## Eldar Mahmudovun həbs dosyesi xüsusi komissiya tərəfindən hazırlanır



# General Elçin Əliyevlə Rəsul Quliyevin telefon danışığı - kod "28 oktyabr"...

### MTN işində Rəsul Quliyevə zəng fraqmenti - yeni gəlişmələr var; sabiq spikerlə general Elçin Əliyev arasındakı telefon danışığını Rusiya xüsusi xidmət orqanları fiksə edib; Bəylər Əyyubovun rəhbərlik etdiyi xüsusi komissiya gecə-gündüz işləyir; yeni hay-küylü həbslər başlayır...

**Milli Təhlükəsizlik Nazirliyinin ifşa olunan bir qrup rəhbəri haqda hər gün fərqli və sensasion məlumatlar, ifşa xarakterli təfsilatlar ortaya çıxmaqdadır. Hazırda Azərbaycan insanının gündəmində başqa bir məsələ yoxdur. Gözlər elektron kütləvi informasiya vasitələrindədir: keçmiş nazir və onun komandası daha nələr edibmiş...**

Ortadakı səhnə isə gerçəkdən vahiməlidir. Dövlətin və prezidentin etimadından sui-istifadə edərək Azərbaycanın iş sektorunu, orta və iri biznesini çökdürən bir qrup ölkənin milli təhlükəsizliyinə ən böyük təhdid imiş. Azərbaycanın milli təhlükəsizliyini qorumalı olan komanda ancaq düşmənin edə biləcəyi bir əmələ imza atıb. Nazirlərdən bir neçəsini də şantajla tərəfinə çəkərək, bütövlükdə iş sektorunu çökdürmüş, iş adamlarına, sahibkarlara divan tutmuş, ölkənin iki ən böyük banklarını "xortumlamış", dövlətin iqtisadi qüdrətini sarsıdacaq addımlara yol vermişlər. Bu dəstənin cinayətləri yalnız iqtisadi sferada olmayıb; təkcə varlanmaq məqsədi güdməyib. MTN-in başında duran və özlərinə başqa sferalarda da tərəfdar toplayan dəstə iqtidarda əsas söz sahibinə çevrilmək, siyasi hakimiyyətə kontrolu təmin etmək üçün bir sıra qanunsuz, vətənə xəyanət sayıla biləcək addımlar da atmışlar. Böyük ehtimalla, xarici qüvvələrdən birinin də yaxından iştirakı ilə dövlət rəhbərlərinin iç və dış (kənar) danışıqları dinlənilmiş, dövlət rəhbərləri gizli şəkildə izlənmiş və bütün bunlar dosyeləşdirilmişdir.

Beynəlxalq Bank işi ilə bağlı cinayətlər ortaya çıxanda hər kəs əmin idi ki, bunca masştablı mənimsəmələr, özbaşınalıqlar yalnız bankın rəhbəri Cahangir Hacıyev səviyyəsində ola bilməzdi. Onun mütləq bir hamisi var; bütün nəzərlər də C. Hacıyevin qudası Eldar Mahmudovun üzərində fokuslaşmaqda idi. Lakin o zaman Eldar Mahmudov qüdrətinin pikində idi; kimsə onun haqqında danışa və yaza bilmirdi. Hətta prezidenti hər fürsətdə tənqid və çox zaman da təhqir edən Əli Kərimlinin mediadakı və sosial şəbəkələrdəki qırğıları da uzun illər idi ki, Eldar Mahmudov haqqında heç nə yazmır; Kərimli özü isə bu adam haqqında heç nə danışmırdı. Mətbuat sənayesinin içində olan hər kəs bilir ki, Kərimli və onun adamları bunu yalnız bir halda edirlər: ünvanına susduqları məmur (şəxs, vətəndaş) onlara illik xərac ödəyir, əlaqə yaradır və üstəlik, özü barədə susmaq məcburiyyəti yaratmaqla, həm də başqaları haqda da kompromatlar ötürürlər. Bu baxımdan, siyasi kluarlarda Əli Kərimli ilə Eldar Mahmudovun gizli anlaşma içərisində olduğu hər zaman danışılan mövzu idi. İddialara görə, Əli Kərimlinin müavinlərindən biri də məhz bu əlaqələr sayəsində yüz faizli həbs təhlükəsindən qurtula bilmişdi...

Lakin zaman gəldi, prezident Eldar Mahmudovu işdən çıxartdı və səhnəni örtən pərdə aradan qaldırıldı. İndi hər kəs özünü bu səhnəyə atıb, Eldar Mahmudov barəsində bildiklərini qışqırır. Bu həşirin içində ən çox eşidilən "səs" də Kərimovcu medianın səsidir; onun sosial şəbəkələrdəki dəstəsi də MTN-in keçmiş şefi ilə anlaşmanı artıq qüvvədən düşmüş sayan liderlərinə baxaraq, düzlənir...

Beləliklə, məlum olur ki, Eldar Mahmudov və onun qorxulu dəstəsi böyük cinayətlərə imza atıb. Lakin MTN-in keçmiş şefini və onun ifşa olunan dəstəsinin əhəmiyyətli fiqurlarını həbs etmirlər. "Niyə", deyə azərbaycanlılar bir-birilərinə sual verir. Bizimkilər adətən verdikləri suallara sonra dönüb özləri də cavab verirlər; lakin bizi abıvatelin qurduğu bəsit ssenarilər az maraqlandırır. Məlumatlarsa bir gerçəyi ortaya qoyur. Mahmudovu və digərlərini ona görə tutmurlar ki, hazırda onların mənimsədikləri vəsaitlərin və əllərində olan mal varlığının əhəmiyyətli bir hissəsi geri qaytarılır, "milliləşdirilir". Bundan sonra böyük ehtimalla, həm Eldar Mahmudov, həm də onun cinayətkar dəstəsinin əksər üzvləri həbs olunacaqlar.

Hazırda yaxın gələcəkdəki bu həbsləri əsaslandırmaq üçün lazım olan bütün işlər görülür. MTN-in ifşa olunan rəhbərlərinin əməllərini araşdırmaq üçün xüsusi bir komissiya qurulub; Xüsusi Dövlət Mühafizə Xidməti rəisinin birinci müavini, prezidentin təhlükəsizlik xidmətinin rəisi

Bəylər Əyyubovun rəhbərlik etdiyi bu komissiya Mahmudov çetəsinin cinayətlərinin və mənimsəmə prosesinin miqyaslarını müəyyən etməklə məşğuldur. İddialara görə, artıq layiqli dosye hazırlanıb, ifşa olunan MTN rəhbərləri və onlara xidmət göstərən digər sahələr üzrə vəzifəli məmurlar yaxın zamanda Kürdəxanıdakı həbsxanaya aparılacaqlar.

Komissiyanın araşdırdığı və hazırladığı mövzulardan, dosyelərdən bəziləri kiçik parçalarla da olsa, mətbuata sızır. Onların bir çoxunu yazıya çevirərək, dərc etmişik. Bir hissəsini indiyə qədər 'düzdüyümüz cümlələrdə əritdik; daha bir qismi də var; bundan sonrakı cümlələr də onlara həsr olunacaq.

**Həmin məlumatlardan birində iddia olunur ki, MTN-in müavinlərindən biri - konkret ad da çəkilir - Elçin Əliyev *(prezidentin sərəncamı ilə artıq işdən qovulub)* Dubayda olarkən Azərbaycan parlamentinin sabiq spikeri, siyasi mühacir Rəsul Quliyevlə telefonla danışıb:** "Bu danışığı "Mahmudov dosyesi"ni Azərbaycan rəhbərliyinə verərək, onun ifşasına səbəb olmuş Rusiya xüsusi xidmət orqanları fiksə edib, yazdırıblar. MTN generalı ilə Rəsul Quliyevin arasındakı danışıqlar şifrəli olub, lakin orada 28 oktyabr tarixi bir neçə dəfə təkrar edilib; məhz həmin tarixdə nəsə olacağı barədə iki-üç dəfə işarəli təkrarlar səsləndirilib. Bu məlumat və bütövlükdə Eldar Mahmudov dəstəsinin ölkəmizə xəyanətini sübut edən dosyeni Azərbaycana verəndə oktyabrın əvvəlləri olub. Daha sonra, oktyabrın ortasında əlavə və təsdiqləyici dosyelər daxil olub. Oktyabrın 17-dən ölkə prezidenti neytrallaşdırma prosesinə start verib: Eldar Mahmudov işdən çıxarılıb, nəzarətə götürülüb; onun bütün imkanları sıfırlanıb və ölkədə qeyri -rəsmi şəkildə fövqəladə vəziyyət yaranıb. Proses davam edir. Lakin məhz bu nüans barədə ictimaiyyətə məlumat sızdırılmır..."

Hörmətli Rəsul Quliyevin adı 10 il öncə, məhz 17 oktyabra təsadüf edən proseslərdə də hallanıb. O zaman hakimiyyətin içindən bir dəstə Qərbin demokratiya desantları ilə əlaqəyə girərək, prezidenti devirmək və iş başına Rəsul Quliyevi gətirmək kimi bir avantüraya baş vurmuşdular. O zaman bir neçə nazir həbs olundu; prezident İlham Əliyev çevriliş cəhdinin qarşısını aldı və Rəsul Quliyevin Bakıya enməli olan təyyarəsi Ukraynaya qondu.

Proseslərə ciddi dəstək verən *(bu barədə kimsə danışmağa cəsarət etmir)* C.Əliyev isə siyasi səhnədən birdəfəlik uzaqlaşdırıldı.

Lakin indi vəziyyət bir başqadır. Keçmiş spiker Rəsul Quliyev bütün siyasi proseslərdən kənarlaşıb; onun Azərbaycana dönməyə ümidləri belə qalmayıb; məlumatlı qaynaqlar iddia edirlər ki, cənab Quliyev Bakıdakı əmlaklarını da satdırır və artıq Azərbaycandan gözünü də, mal varlığını da yığır. Belə olan halda, onun Azərbaycan iqtidarının içindəki bir qrupla əlaqədə olaraq, seçkiqabağı yenidən hansısa cəhdlərdə bulunması məntiqsiz görünür. Buna görə də bu fraqmenti daha dərindən araşdırmaq qərarına gəldik.

**Rəsul Quliyevin yaxın adamlarından biri bizim suallarımızı dinləyərək, aşağıdakı məzmunlu mülahizəsini söylədi:** "Ola bilər ki, Rəsul müəllim həmin MTN generalı ilə satdığa qoyduğu bağı haqda danışıb. Çünki mənə məlumdur ki, onun Bilgəhdəki "6 bağlar"ına generallardan biri müştəri çıxıbmış. Bu bağlar Bilgəhin ən gözəl yerindədir, olduqca dəyərlidir. Mümkündür ki, müştəri məhz general Elçin Quliyevdir; onlar bu barədə danışıblar, alqı-satqı tarixi kimi də 28 oktyabra anlaşıblar; yəqin ki, bu zaman qabiliyyətləri çatan şəkildə, işarələrlə də danışıblar; danışığın fiksəsi zamanı isə tərəflərin kimliyi məzmunun fərqli interpretasiyasına səbəb olub. İnanmıram ki, Rəsul Quliyevin indi Azərbaycanda hansısa vəzifəli məmurlara təsir etmək imkanları qalsın".

**Bu mülahizələri dərc etməklə yanaşı, onun tam tərs məntiq və məzmununun ola biləcəyi ehtimallarını qeyd edirik.**

❑ **"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 258 (6286) 20 noyabr 2015



# "Azəristiliyin" qaz borcu dondurulmasa, Bakı dona bilər

## Vahid Əhmədov: "Bu təşkilatdan şikayətlər həddindən artıq çoxdur"

**Noyabrın 15-dən Azərbaycan rəsmi olaraq qış mövsümünə keçib. Lakin hələ də Bakıda nə mənzillərə, nə də dövlətin nəzdində olan qurumlara, məktəblərə, uşaq bağçası və xəstəxanalara istilik verilməyib. Vətəndaşların narahatlığına son qoyulmasını tələb edən Milli Məclisin İqtisadi siyasət komitəsinin üzvü, deputat Vahid Əhmədov "Yeni Müsavat"a açıqlamasında "Azəristiliktəchizat" ASC-yə qarşı ciddi tədbirlərin görülməsini vacib hesab etdiyini bildirdi: "Hər il bu qurumdan şikayətlər olur. Noyabrın 15-də faktiki olaraq qış mövsümünə keçidlə əlaqədar hökumətin qərarı var. Hər yerə istilik verilməlidir.**

Görünür, bu şirkətlər harınlayıblar və özlərini elə aparırlar. Dövlət də, hökumət də onlara qarşı bir tədbir görməlidir. Artıq qış gəlir, rayonlarda da hava kəskin soyuyub. Ancaq əsasən Bakı şəhərini nəzərə alsaq, bununla bağlı mənə də məlumatlar gəlir ki, mənzillərə istilik verilmir. Bu qurum əvvəlcədən hazırlıq görməli idi ki, qış gələndə belə problem yaranmasın, evlər istiliklə təmin olunsun. Bundan ötrü onlara dövlət büdcəsindən vəsait də ayrılır, özlərinin müəyyən imkanları da var. Mən hesab edirəm ki, laqeyd yanaşdıqlarına görə bu gün bu problemlər mövcuddur.

Əgər "Azəriqaz"a borcu varsa, borcunu ödəməlidir. Necə olur ki, "Azərişıq" da, "Azəriqaz" da abonentlərdən pulunu yığa bilir, "Azəristiliktəchizat" yığa bilmir. Bu təşkilatla əlaqədar şikayətlər həddindən artıq çoxdur. Yəqin ki, Azərbaycan hökuməti bu qurumla bağlı müəyyən qərarlar verməlidir. Borcları varsa , bunu ödəməlidirlər, insanlar soyuqda qalmamalıdır".

**"Azəriqaz" İB-in mətbuat xidmətinin rəhbəri İbrahim Kərbalayev isə bildirdi ki, "Azəriqaz" əhalini tələbatına uyğun olaraq təbii qazla təmin edir:** "Hansı qazanxanalar texniki-təhlükəsizlik tələblərinə və normalarına cavab verirsə, biz həmin qazanxanaları qazla təmin edirik. Digər məsələlərlə bağlı "Azəriqaz" məsuliyyət daşımır".

**İttihamları cavablandıran "Azəristiliktəchizat" ASC-nin abonent və müştəri xidmətlərinin rəisi Rafiq Əliyev qurumun qışa tam hazır olduğunu və yeganə problemin təbii qazın verilişi ilə bağlı olduğunu söylədi**: "Artıq danışıqlar gedir, qazanxanaların bir hissəsi qazla təmin olunub, digər hissəsi ilə bağlı da danışıqlar gedir. Yəqin ki, günün sonuna qədər bu da həllini tapar. "Azəriqaz"a nə qədər borcun olması ilə bağlı indi əlimin altında dəqiq rəqəmlər yoxdur, ancaq müəyyən bir borc var, bu düzdür, biz bunu qəbul edirik. Bunun səbəbi abonentlərdən pulların yığılması ilə bağlı deyil, pullar qaydasında yığılır. Məsələ burasındadır ki, bizim tariflərimiz maya dəyərindən aşağıdır. "Azəristiliktəchizat" zərərlə işləyən təsərrüfat birliyidir. Abonentlərdən pul 100 faiz yığılsa belə, bu bizim xərclərimizi ödəməyə kifayət etmir. Düzdür, dövlət büdcəsindən müəyyən qədər vəsait ayrılır. Ancaq söhbət təkcə bu günün borclarından getmir, köhnə borclar da yığılıb qalıb. Ona görə borcun məbləğini tam şəkildə ödəmək iqtidarında deyilik... Bizim "956" saylı qaynar xəttimiz var və günün 24 saatı operativ rejimdə işləyirik. Mənzillərdə hər hansı problem olarsa, abonentlərimiz əlaqə saxlaya bilərlər".

❑ Nərgiz LİFTİYEVA

# Sahibkar Gürcüstan ərazisinə keçib yenidən aclığa başladı

## Dönməz Məmmədov ondan alınıb nazir Heydər Əsədovun qohumlarına verilən marşrutu geri tələb edir

**Bakı-Saray-Sumqayıt xətti üzrə işləyən 501 nömrəli marşrutun sahibi Dönməz Abutalıb oğlu Məmmədov hazırda Gürcüstan Respublikasının ərazisində aclıq aksiyası keçirir. "Yeni Müsavat"ın redaksiyasına şikayət edən sahibkar bildirir ki, sahibi olduğu "Amal-D" MMC şirkətinə məxsus avtobuslara işləməyə imkan verilmir: "Mayın əvvəlində Nəqliyyat Nazirliyi Dövlət Avtomobil Nəqliyyatı (DANX) Xidmətinin Sumqayıt Regional Şöbəsinin rəisi Anar Səfərli məni yanına çağırıb.**



Dedi ki, sən ayda 13 min manat "şapka"dan əlavə Sumqayıt MTN-ə ayda 3 min manat verəcəksən. Dedim ki, vəziyyət yaxşı deyil, avtobusların alınmasına görə götürdüyüm kreditləri ödəyə bilmirəm. Dedi ki, MTN-də barəndə məlumat var, sən sürücüləri başına yığmısan, dövlət əleyhinə təbliğatla məşğulsan. Qarabağda döyüşmüşəm, məndən vətənə ziyan getməz deyib əsassız fikir söylədiklərini diqqətinə çatdırdım. Dedi ki, pulu verməsən, MTN mənə problem yaradacaq. Məcbur olub maşınlarını cərimə meydanına yığacağam. Növbəti gün şirkətimə məxsus 501 saylı marşrut üzrə hərəkət edən 16 "Deu" avtobusu fərqlənmə nişanı ola-ola "fərqlənmə nişanı yoxdur" bəhanəsi ilə cərimə meydançasına aparıldı. Avtobusları bu il mayın 5-də apardılar, 22-də DANX sabiq rəisi Hüseynin yanında Anar Səfərli ilə görüşdük. Hüseyn bizi dinlədi, ona irad tutdu ki, sən niyə MTN-ə görə vasitəçilik edirsən. Qanuni sənədi olan avtobusu niyə içəri yığmısan? Tələb etdi ki, təcili olaraq avtobusları cərimə meydançasından burax. Anar Səfərli də dedi ki, gəl protokol yazaq, maşınları buraxaq. Kreditlər məni sıxdığından razılaşdım. 3 gün sonra, mayın 25-də Nəqliyyat Departamentindən mənə məlumat verdilər ki, sənin maşınlarını sabah yığacaqlar cərimə meydanına. Gürcüstanda aclıq edəndən və məsələ ictimailəşəndən sonra məni Azərbaycana çağırdılar. Mayın 28-də Bakı Şəhər Nəqliyyat Departamentində oldum. O vaxt departamentin rəisi Eldar Mahmudovun yaxın qohumu Elimxan Hacıyev məni qəbul etdi. Dedi ki, başını aşağı sal, işini işlə, istəsək marşrutu əlindən alarıq. 509 nömrəli marşrutu heç bir əsas göstərmədən məndən alıb kənd təsərrüfatı nazirinin əmisi nəvəsi, həm də bacısı qızının əri olan Əliağa Saday oğluna verdilər. O, marşrutu qardaşı Kamillə birgə işlədirdi. 501 saylı marşrutun sənədlərini də verdilər özümə. Dedilər ki, get Anar Səfərlinin yanına. Nə desə onu elə. Anar dedi ki, sən 25 min manat verəcəksən və 501 saylı marşrutu işlədəcəksən. 509 saylı marşrutu da Avropa oyunlarından sonra özünə qaytararıq. Vaxt istədim, dedi ki, yuxarıdan tapşırıblar, pulu ver, get işlə. Gedib əmlakımı qiymətindən qat-qat aşağı satıb pulunu Anara verdim. Təəssüflər olsun ki, 509 saylı marşrutu qaytarmadılar. Növbəti dəfə Gürcüstana gedib aclıq edəndən sonra marşturu qaytardılar, 1 ay sonra yenidən alıb verdilər Heydər Əsədovun qohumlarına".

**Sahibkar deyir ki, bu dəfə də eyni tələblə Gürcüstanda aclıq aksiyası keçirir:** "Başıma açılan oyunlar ədalətlə araşdırılsın, hər bir şəxs cəzasını alsın. Məndən hər ay Sumqayıt MTN-çilərinə verəcəkləri adı ilə pul tələb edirdilər. Hazırda Tbilisidəyəm, prezidentdən kömək istəyirəm. Bu günə qədər ölkə rəhbərliyinə 34 teleqram vurmuşam. Arif Əsgərovun yanında olmuşam. Amma problem həll edilməyib. Məndən noyabr ayı üçün dövlət vergisini alıblar. Anar 4 min manatını da alıb. İndi yerdə qalanı tələb edir. Fərqlənmə nişanı vermir. Marşrutun xəritəsini vermir. Deyir ki, vurduğun teleqramlar bizim üçün əhəmiyyətsizdir. Ona görə də prezidentdən kömək istəyirəm".

❑ E.HÜSEYNOV

# Bu məntiq absurda gətirməli idi...



Hüseynbala SƏLİMOV

**Bilirdim ki, bu üslub, bu ifadə tərzi, ən başlıcası isə bu düşüncə tərzi qəribəliklərlə dolu sonluqla bitəcək, bu adamları hansısa absurd nəticələrə gətirib çıxaracaq...**

Oxucu intizarda qalmasın deyə bildirim ki, söhbət başıbəlalı rusiyalı yazarlardan gedir. Bəli, bu yaxınlarda bu ölkənin saytlarına baxırdım. Gözüm bir yazıya sataşdı. Müəllif yəhudi soyqırımı ilə ruslar arasında paralellər aparır və axırda belə bir nəticəyə gəlib çıxırdı ki, rusların da soyqırımı haqqında danışmağın vaxtıdır...

Məni düzgün başa düşün. Nə monqol-tatar istilasını inkar etmək fikrindəyəm, nə də ki, II dünya müharibəsini unutmaq niyyətim var. Hətta onu da qəbul etməyə hazıram ki, sovet rejiminin özü Rusiyaya qarşı gizli və məkrli bir sövdələşmənin nəticəsi idi...

Amma gəl ki, burada dərhal dayanmaq məcburiyyətindəyəm. Əgər sovet rejimi gizli və məkrli sövdələşmənin nəticəsi idisə, bu rejim ruslara tamam yad idisə nədən indi onların demək olar ki, hamısı sovet dövrünün nostaljisini keçirir? Niyə Rusiyanın liderləri sovet keçmişini bərpa etmək üçün fürsət axtarır? Ən başlıcası isə belə cəhdlər Rusiya cəmiyyəti tərəfindən çox böyük dəstəklə qarşılanır?..

Monqol-tatar istilası haqqında bir şey deməyəcəm. Ona görə ki, tarixin bir dövrü də imperiyalar dövrü olmuşdu. Elə rusların özləri sonradan həmin türk torpaqlarını işğal edib əhalisini incitmədilərmi?

Amma bunlar rusiyalı təhlilçiləri maraqlandırmır. Ona görə ki, onlar özlərinin psevdo-məntiqlərinin əsirinə çevriliblər. Deyirlər ki, guya ruslar bölünmüş xalqdır, ona görə ki, keçmiş SSRİ-nin bir çox hissələrində hələ də bu etnosun nümayəndlərinə rast gəlmək mümkündür...

Olsun. Amma Rusiyanın özündə bu günə qədər azərbaycanlılara, gürcülərə, taciklərə, özbəklərə və b. rast gəlmək mümkün deyilmi? Bəlkə onların da hamısını bölünmüş millət hesab edək?..

Mən başqa millətləri bilmirəm, rusların da bölünüb-bölünməməsilə də elə bir işim yoxdur. Onu bilirəm ki, mənim millətim məhz Rusiyanın sayəsində ikinci yüz illikdir ki, bölünmüş millət taleyini yaşayır. Görən, Rusiyada heç bunun fərqində olan varmı?..

Bəli, bu gün ruslar bir tərəfdən günah kompleksini özlərindən uzaqlaşdırmağa cəhd edir, o biri tərəfdən sovetlər vaxtında repressiya olunduqlarını və hamıdan çox itkiyə məruz qaldıqlarını iddia edirlər. Olsun. Amma o dövrlərin məsuliyyəti də var. Əgər ruslar onda təqiblərə və təzyiqlərə məruz qalmış millət olublarsa bəs nədən sovet dövrü üçün bu qədər nostalji keçirirlər? Bəlkə də mən bu fikri iki dəfə təkrar etməli deyildim... Amma başqa cür mümkün də deyil, əks təqdirdə özümüz də absurd məntiqin dolanbaclarında itib-bata bilərik...

Ən gülməlisisə bilirsiniz nədir? Bu müəlliflər Ukraynada indi baş verən prosesləri məhz rusların soyqırımının davamı hesab edirlər. Təsəvvür edirsinizmi? Bir vaxtlar etnik irredentizm haqqında yazmışdım. Mənası budur ki, bu tendensiyaya varanlar bir etnosun bütün qanadlarını bir dövlətdə birləşdirməyə cəhd edirlər...

Bunun qəliz tərəfi odur ki, heç bir etnos yalnız bir dövlətin ərazisində məskunlaşmayıb, adətən onlar bir neçə dövlətə səpələnmiş halda yaşayırlar və müxtəlif dövlətlərdə təmsil olunurlar. Etnik irredentizm tərəfdarları dövlət sərhədlərinə məhəl qoymyr, dövlətlərin suverenliyinə biganə və etinasız yanaşaraq öz etnoslarının bütün üzvlərini bir dövlətdə birləşdirməyə çalışırlar.

İndi ruslar da bir neçə dövlətin ərazisində yaşayırlar. Rus yazarları da heç nəyin fərqinə varmadan onları bölünmüş millət hesab edir və bu insanları bir dövlətdə birləşdirməyə çağırırlar...

Əslində bütün bunlar niyə edilir? Niyə rusiyalı yazarlar absurd dolu arqumentlər səsləndirməkdən çəkinmirlər? Mənə elə gəlir, onların hamısının bir missiyası var. Onlar Rusiyanın keçmiş SSRİ hüdudlarında müstəsna "hüquqlar"ına və maraqlarına haqq qazandırmağa çalışırlar. Təbii ki, əslində onların belə hüququ yoxdur - bu gün elə bir əsas tapmaq mümkün deyil ki, ona istinad edərək Rusiyanın keçmiş SSRİ hüdudlarına müdaxiləsini məntiqli hesab etmək mümkün olsun. Yoxdur belə "haqq"! Ruslar özləri də bunu bilirlər, amma özlərinin geosiyasi ambisiyalarına haqq qazandırmaq fikrindən də vaz keçə bilmirlər...

Bəs sonuncu nə ilə bağlıdır? Niyə Rusiya öz sərhədlərinə sığa bilmir? Məsələ bundadır ki, imperiya yalnız daim genişlənməklə özünü hifz edə bilər...

YENİ MÜSAVAT
N 258 (6286) 20 noyabr 2015

# "Azərbaycan terrorçuların mühasirəsinə düşüb"

**Rusiyalı ekspertdən sensason açıqlama:** "Şimaldan terrorçuların güclü təsir altına salındığı Şimali Qafqaz, qərbdən Gürcüstan, şərqdən Mərkəzi Asiya, cənubdan isə hər şeyin pis olduğu Yaxın və Orta Şərq..."

**Azərbaycanın adı "Qlobal terrorçuluq indeksi - 2015"in (The Global Terrorism Index) illik hesabatına salınıb. Bu hesabatda dünya ölkələrindəki terror təhlükəsi qiymətləndirilib. Qiymətləndirmənin nəticəsində hazırlanmış siyahıda Azərbaycan 160 ölkə içərisində 93-cü yerdədir.**

Bundan başqa, minval.az saytına müsahibəsində rusiyalı analitik Andrey Kazançev də Azərbaycanın terror baxımından heç də güvənli ərazidə yerləşmədiyinə diqqət çəkərək bildirib: "Cənubi Qafqazın öz böhran nöqtələri var. Azərbaycan özünəməxsus şəkildə terrorçuların mühasirəsinə düşüb. Şimaldan terrorçuların güclü təsir altına salındığı Şimali Qafqaz, qərbdən Gürcüstan, şərqdən Mərkəzi Asiya və Əfqanıstanı birləşdirən Xəzər dənizi, cənubdan isə hər şeyin pis olduğu Yaxın və Orta Şərq. Ona görə də Azərbaycanın xüsusi xidmət orqanlarının dincəlməyinə şərait yaranmır".

**Məsələ ilə bağlı "Yeni Müsavat"a Milli Məclisin Təhlükəsizlik və müdafiə komitəsinin üzvü Zahid Oruc danışıb. O bildirib ki, regionumuzun terror riskləri ilə əhatə olunması danılmazdır:** "Bu təhlükələri biz on illər ərzində yaşamışıq. Bu hal ilk növbədə müharibə amilindən qaynaqlanır. Çünki nəzarət imkanlarının itirilməsi nəticəsində müxtəlif cinayətkarlıq, çirkli pulların dövriyyəsi, narkotik qaçaqmalçılığı və sairə baş verir. Terror Ermənistanın dövlət siyasətinə çevrilib. Zamanında Şimali Qafqaz arealında Gürcüstanda Pankisi dərəsinə qədər böyük bir ərazidə terrorçu yuvaları vardı. Qərb Rusiya ilə savaşını həm də ərəb dünyasından gətirdiyi xattablar hesabına gerçəkləşdirirdi. Bu da bölgədə riski artırırdı və prosesin



Andrey Kazançev

ağrısını Azərbaycan da həm iqtisadi, həm də fiziki terrora məruz qalması ilə yaşayıb. İqtisadi ona görə deyirəm ki, Bakıdan gedən qatarların qarşısı kəsilib soyulurdu. O cümlədən Bakı-Novorossiysk kəmərinə hücumlar və neft mənbələrindən əldə edilən vəsaitlərin də sonradan terrora qoyulması hallarını müşahidə etmişik. Təhlükənin ən mühüm yeri isə Əfqanıstan və ya İran üzərindən gələn narkotika idi ki, bu da tonlarla çəkidə idi. Buradan əldə edilən külli miqdarda vəsait də terrora xərclənirdi. Dini-ekstremizm, müxtəlif ərəb ölkələrində vuruşaraq gələn qrupların Azərbaycanı hədəf seçməsi də təhlükələr sırasında idi. Şübhəsiz ki, biz İslam ölkəsiyik və burada məzhəblərarası savaş təşkil etmək də ölkəmizdəki sabitliyə qarşı terror riski kimi qiymətləndirilə bilər".

**Z.Oruc bildirib ki, məsələ ilə bağlı müsbət məqamlar da az deyil:** "İlk növbədə Ermənistan qarşısında, Azərbaycan böyük bir səngər qurub. Təhlükəsizliyimizin əmsalı bu cinahdan xeyli yüksəlib. Azərbaycan ön cəbhəyə ən müasir texnikasını və bacarıqlı hərbçilərini toplayıb. Şimali Qafqazdakı qeyd etdiyimiz meydan isə demək olar ki, daralıb. Artıq Rusiyanın bütün siyasi elitası da o regionda keçmiş hadisələrin təkrarlanmasını istəmir. Gürcüstan ətrafında da sakitlikdir. Həmçinin İran və Azərbaycan arasındakı münasibətlər də xeyli yaxşılaşıb. Yeganə başlıca mənbə, burada dini-ekstremist qüvvələrdir. Fransa kimi NATO üzvü olan güclü təhlükəsizlik sisteminə dayanan bir ölkə terrorun qarşısını qabaqlayıcı bir formada ala bilmirsə, bu, o deməkdir ki, bizim regionda da hər an hansısa bir məkana zərbə vurula bilər".

**Z.Oruc MTN nazirinin olmadığı hazırkı dövrdə, ölkəmizin təhlükələrdən necə qorunması barəsində də danışıb:** "Müvafiq dövlət strukturları hazırkı dövrdə Azərbaycana qarşı yönəlik təhlükələri önləyə bilir. Məhz buna görə də ölkədə sabitlik və əmin-amanlıq var. Milli Təhlükəsizlik Nazirliyi də binasını milli etibar və güvən yerinə çevirməlidir. Həmçinin yeni kəşfiyyat və əks-kəşfiyyat işlərinə əhatə edən qurumlar da, yeni islahatlara da ehtiyac var. Düşünürəm ki, siyasi mənsubiyyətindən, ideoloji yönündən, rus və ya qərbpərəst olmasından asılı olmayaraq hər kəs ölkənin sabitliyinin qorunmasında maraqlı olmalıdır. Çünki nəzərə almaq lazımdır ki, kiminsə sərvəti az və ya çox ola bilər. Ancaq sabitlik hər bir kəsin sərvətidir".

❑ **Əli RAİS**

# Azərbaycanda konsert və tamaşa zalları hansı səviyyədə qorunur?

## Paris olayından sonra Bakıdakı kütləvi tədbir yerləri daha ciddi mühafizə olunur



**Bir neçə gün öncə Parisdə baş verən qanlı terror hadisəsi dünyanı silkələdi. Noyabrın 13-də törədilən 3 terror olayından biri Fransanın paytaxtı, Parisdəki "Bataklan" teatrında ABŞ rok-qrupunun konserti zamanı baş verdi. Hadisə zamanı konsertdə olan yüzlərlə insanın girov götürüldüyü, onlardan 100 nəfərin öldürüldüyü bildirilir.**

Tarixdə konsert, teatr məkanlarında bundan öncə də qanlı terror hadisələri törədildiyi barədə faktlar var. 2002-ci ilin oktyabrında Moskvanın "Dubrovka" teatr mərkəzində baş verən terror aktı hələ də insanların yaddaşından silinməyib. 23 yaşlı çeçen Movsar Barayevin başçılıq etdiyi, aralarında qızların da olduğu 40 nəfərdən ibarət silahlı dəstə "Dubrovka" teatrını 800-dən artıq tamaşaçı ilə birlikdə ələ keçirərək, məkana bütün perimetri boyunca partlayıcı maddələr yerləşdirmişdi. Həmin vaxt girov düşənlər teatra "Nord-Ost" musiqi proqramına baxmağa gələn tamaşaçılar idi.

Məlumat üçün bildirək ki, girovlar arasında 4 nəfər Azərbaycan vətəndaşı, o cümlədən "Azərbaycan Hava Yolları" Aviaşirkətinin (AZAL) prezidenti Cahangir Əsgərovun həyat yoldaşı Zərifə Həmzəyeva və qohumları da var idi.

O zaman çeçenlərlə danışıqlara gedən C.Əsgərov AZAL-ın Moskvadakı nümayəndəsi Eldar Hacıyevlə birlikdə öz həyat yoldaşını və digər ailə üzvlərini girovluqdan qurtara bilmişdi. Terrorçular azərbaycanlı girovları oktyabrın 24-də axşam saatlarında azadlığa buraxmışdılar.

Rus qoşunlarının Çeçenistan ərazisindən çıxarılmasını tələb edən çeçen silahlı dəstəsi, əks halda, teatrı tamaşaçılarla birlikdə partladacaqları ilə hədələmişdilər.

Danışıqlar nəticəsiz qaldığından oktyabrın 26-sı səhər 5 radələrində Rusiya xüsusi təyinatlılarının zəhərli qazdan istifadə edərək həyata keçirdiyi xüsusi əməliyyat Movsar Barayev başda olmaqla, bütün 40 terrorçunun məhvinə və girov götürülən daha 130 tamaşaçının ölümünə yol açmışdı. Onların arasında milliyyətcə azərbaycanlı, həkim Oleq Ələmdar oğlu Məhərrəmovun da olduğu bildirilirdi.

Bundan öncə isə İran dövlətində bu cür terakt törədilmişdi. Belə ki, 19 avqust 1978-ci ildə İranın Abadan şəhərindəki Reks kinoteatrında film nümayişi zamanı terrorçular qapıları çöldən möhkəm bağlayaraq əvvəlcədən binaya yerləşdirilən kerosin çəlləklərinə od vururlar. Hadisə zamanı heç kimin çölə çıxmaq şansı olmur. Nəticədə əksəri qadın və uşaq olan 477 tamaşaçı yanaraq və ya boğularaq həyatını itirir. Yanğınsöndürənlər hadisə yerinə gələndə artıq gec olub. Terrorun Şah rejiminə qarşı olanlar tərəfindən törədildiyi bildirilir.

Parisdəki terror olayından sonra dünyanın heç bir ölkəsinin terrordan sığortalanmadığı bir daha təsdiqi tapır. Azərbaycanda da mədəniyyət və incəsənət məkanlarında təxribatların mümkünlüyü məsələsi gündəmə gəlib.

Ölkədəki konsert və teatr məkanları hansı səviyyədə mühafizə olunur?

**Azərbaycan Dövlət Musiqili Dram Teatrı ciddi mühafizə olunur. Bu barədə teatrın mətbuat xidmətinin rəhbəri Samir Sədaqətoğlu bildirib:**

"Paris olayından əvvəl və sonra da teatr gecə-gündüz yüksək səviyyədə mühafizə olunur. Teatr həm daxili, həm də xarici hissədən kameralar və növbəli mühafizə xidməti tərəfindən qorunur. Teatrın xidməti və tamaşaçılar üçün olan qapısı daima nəzarət altındadır. Bura gələn qonaqlar ciddi surətdə araşdırılır, kimin yanına və nə məqsədlə gəldiyi barədə soruşulur".

**Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının mətbuat xidmətinin rəhbəri Hüsniyyə Mursaquliyeva "Yeni Müsavat"a açıqlamasında bildirib ki, bugünlərdə Parisdə baş verən dəhşətli terror aktı ilə əlaqədar teatrda müşavirə keçirilib:** "Teatrın mühafizə və texniki işçilərinin, habelə tamaşaçı ilə işləyən inzibati heyətin iştirakı ilə həyata keçirilən müşavirədə teatrın direktoru, əməkdar artist Mübariz Həmidov tərəfindən teatrın müvafiq sahə rəhbərlərinə və onların tabeliyində olan əməkdaşlara bir sıra tapşırıqlar verilib. Teatra daxil olan hər bir əməkdaş və tamaşaçı teatrın mühafizəçiləri tərəfindən müdafiə və diqqətlə mühafizə olunur".

**Dövlət Akademik Opera və Balet Teatrından isə bildirilib ki, tamaşa zamanı zala çanta ilə daxil olmaq qadağan edilib. Bu barədə teatrın əməkdaşı Şükufə Ağamirzəyeva danışıb:** "Burada mühafizə sisteminə çox ciddi yanaşılır. Bütün başqa teatrlarda olduğu kimi, bu teatrda da əsasən iki giriş qapısı olur - tamaşaçılar və xidməti işçilər üçün qapı. Tamaşaçılar üçün olan qapı yalnız tamaşalar zamanı açılır, tamaşa olmayan zaman isə həmin qapı bağlı olur. Xidməti qapıdan isə işçilər yalnız vəsiqə təqdim etdikdən sonra içəri daxil ola bilir. Teatrın əməkdaşları teatrı tərk etdikdən sonra qapı mühafizə işçiləri tərəfindən bağlanılır və heç kimi içəri buraxılmır".

Rəşid Behbudov adına Mahnı Teatrının direktor müavini İlqar Musayev bu barədə əməkdaşımıza açıqlama verərək bildirdi ki, teatrın mühafizə xidmətinin işçiləri yoxdur: "Teatrın hər tərəfində görüntü kameraları var. Lakin xüsusi olaraq mühafizə xidmətinin işçiləri yoxdur. Hər şeyə kameralar vasitəsilə nəzarət edə bilirik. Xüsusi dövlət tədbirləri zamanı polis idarəsi ilə əlaqə saxlayıb keçiriləcək tədbir barəsində məlumat veririk. Məhz o zaman onlar öz nümayəndələrini teatrımıza göndərirlər. Qapıda bilet yoxlayanlar var ki, onlar da gələnlərə nəzarət edirlər".

**Heydər Əliyev Sarayının mətbuat xidmətinin rəhbəri Anar Fərəczadə bildirdi ki, Parisdəki terror hadisəsindən sonra mərkəzin rəhbərliyi iclas keçirərək xüsusi əmr imzalayıb:** "Onsuz da mərkəzimiz hər zaman xüsusi olaraq mühafizə olunurdu. Rəhbərlik bugünlərdə mühafizə işinin daha da gücləndirilməsi ilə bağlı iclas keçirib, əmr imzalayıb. Bundan sonra bu məsələyə daha da ciddi nəzarət olunur.

Bundan əlavə, hər tədbir zamanı ayrıca olaraq mühafizə orqanlarının işçiləri dəvət olunur. Onlar sarayın lazımi nöqtəsində yerləşdirilir, beləliklə, həm işçilərin, həm də gələn qonaqların təhlükəsizliyi təmin olunur".

Sarayın əməkdaşı mühafizə zamanı detektor aparatlarından da istifadə edildiyini dedi.

**Akademik Milli Dram Teatrından verilən məlumata görə, teatrın mühafizə və təhlükəsizlik sistemi prioritet və vacib sahələrdən biri kimi diqqət mərkəzindədir:** "Teatr həm xaricdən, həm də daxildən müasir və keyfiyyətli kameralarla təchiz olunub. Tamaşa zalında, foyedə kameralar quraşdırılıb və nəzarət həyata keçirilir. Teatrda mühafizə sisteminə cavabdeh olan beş nəfərdən ibarət heyət çalışır, mühafizə xidmətinin otağında monitor vasitəsilə binanın dörd tərəfi, daxili izlənilir".

❑ **Xalidə GƏRAY**

YENİ MÜSAVAT
N 258 (6286) 20 noyabr 2015




# "Daha 9 deputat mandatsız qalacaq" iddiası: KM nə deyəcək?

İstənilən 125 dairədə nəticələr o halda ləğv edilə bilər ki, narazı qalmış namizədin (və ya namizədlərin) üç məhkəmə instansiyasına müraciəti olsun; Konstitusiya Məhkəməsi hansısa dairədəki nəticəni özbaşına ləğv edə bilməz...

**Keçmiş milli təhlükəsizlik naziri Eldar Mahmudovun yaxın dostu olan "Azəriqazbank"ın rəhbəri Çingiz Əsədullayevin qələbəsinin tanınmaması daha bir neçə nəfərin də mandatının alınacağı barədə iddialara səbəb olub. Xatırladaq ki, bir neçə gün əvvəl Mərkəzi Seçki Komissiyası Çingiz Əsədullayevin deputat seçildiyi 90 saylı Ağdaş seçki dairəsinin nəticələrini şikayətləri əsas gətirərək ləğv edib. Bu qərardan iki gün sonra isə MSK 124 deputatın siyahısını təsdiq etmək üçün Konstitusiya Məhkəməsinə göndərib.**

İstiqlal.az saytı isə xəbər verir ki, Konstitusiya Məhkəməsi daha 9 dairədə seçkilərin nəticələrini ləğv edə bilər. İddia olunur ki, Ziyad Səmədzadənin deputat seçildiyi 23 saylı Nəsimi-Səbayel, Azər Badamovun deputat seçildiyi 51 saylı Qusar, Malik Həsənovun deputat seçildiyi 67 saylı Cəlilabad şəhər, Fəzail İbrahimlinin deputat seçildiyi 69 saylı Cəlilabad-Masallı-Biləsuvar, Jalə Əliyevanın deputat seçildiyi 92 saylı Zərdab-Ucar, Naqif Həmzəyevin deputat seçildiyi 38 saylı Nizami ikinci(Gəncə), Hacı Salayevin deputat seçildiyi 44 saylı Sumqayıt-Xızı, Mirkazım Kazımovun deputat seçildiyi 68 saylı Cəlilabad kənd və İmamverdi İsmayılovun deputat seçildiyi 125 saylı Zəngilan-Qubadlı seçki dairələrində nəticələrin ləğv olunacağı gözlənilir.

Sayt bildirir ki, Ziyad Səmədzadə, Azər Badamov, Naqif Həmzəyev, Fəzail İbrahimli, Hacı Salayev və İmamverdi İsmayılov Eldar Mahmudova yaxınlığı və ya qohumlarının keçmiş MTN şefinin şəbəkəsinin üzvü olduğuna görə hədəfə gəlib. Jalə Əliyeva vurulmuş nazirlərdən birinə yaxın olduğuna görə, Malik Həsənov Əmlak Məsələləri Dövlət Komitəsinin sədri Kərəm Həsənovun qardaşı olduğuna, Mirkazım Kazımov isə adıçəkilən komitə sədrinə yaxın şəxs olduğuna görə "vurulur". Qeyd edək ki, son günlər Kərəm Həsənovun da adı "MTN işi"ndə tez-tez hallanır.

"Yeni Müsavat"ın bu məsələ ilə bağlı araşdırması nəticəsində məlum oldu ki, parlament seçkilərinin nəticələrinin təsdiqi "Konstitusiya Məhkəməsi haqqında" Qanunun yeddinci fəslinin 54-cü maddəsində əks edilib. Göstərilir ki, Konstitusiya Məhkəməsi Milli Məclis seçkilərinin nəticələrinin düzgünlüyünü yoxlayır və təsdiq edir. Seçkilərin nəticələrinin düzgünlüyünü yoxlamaq üçün Konstitusiya Məhkəməsi Plenumunun iclası Konstitusiya Məhkəməsinə materiallar daxil olduğu gündən ən geci 10 gün keçənədək başlanmalıdır. Yoxlama prosesi tələb etsə, Konstitusiya Məhkəməsi öz qərarı ilə bu müddəti artıra bilər.

Qanunda göstərilir ki, Konstitusiya Məhkəməsi apelyasiya instansiyası məhkəmələrindən və Ali Məhkəmədən seçki hüquqlarının müdafiəsinə dair işlər üzrə baxılmış ərizələr haqqında məlumat tələb edir. Bu, çox mühüm bir amildir və seçkilərin nəticələrinin ləğv edilməsi barədə iddialara tam aydınlıq gətirir. Bu o deməkdir ki, istənilən 125 dairədə nəticələr o halda ləğv edilə bilər ki, seçkinin nəticələrindən narazı qalmış namizədin (və ya namizədlərin) üç məhkəmə instansiyasına müraciəti olsun. Yəni bu prosedur sənədlər olmadan Konstitusiya Məhkəməsi hansısa dairədəki nəticəni özbaşına ləğv edə bilməz. Məhz bu səbəbdən də Konstitusiya Məhkəməsi apelyasiya instansiyası məhkəmələrindən və Ali Məhkəmədən seçki hüquqlarının müdafiəsinə dair işlər üzrə baxılmış ərizələr haqqında məlumat tələb edir.



Qanuna görə, Milli Məclisə seçkilərin nəticələrinin düzgünlüyünü yoxlamaq üçün keçirilən Konstitusiya Məhkəməsi Plenumunun iclasında Mərkəzi Seçki Komissiyasının sədri və üzvləri, habelə Konstitusiya Məhkəməsi tərəfindən dəvət edilmiş digər şəxslər iştirak edirlər. Konstitusiya Məhkəməsinin Plenumu yoxlama nəticəsində Milli Məclisə seçkilərin nəticələrinin bütövlükdə təsdiq edilməsi, qismən təsdiq edilməsi və ya təsdiq edilməməsi barədə hakimlərin 5 səs çoxluğu ilə qərar qəbul edə bilər.

Konstitusiyanın 88-ci maddəsinin I hissəsinə görə 83 deputatın səlahiyyətləri təsdiq edilməzsə, Konstitusiya Məhkəməsi hətta Milli Məclisinin ilk iclasının keçirilməsi vaxtını da təyin edir. Bu məsələ haqqında Konstitusiya Məhkəməsinin Plenumunun qərarı hakimlərin azı 5 səs çoxluğu ilə qəbul edilir.

Xatırladaq ki, 2010-cu ildə Konstitusiya Məhkəməsinin qərarı ilə MSK-nın ləğv etdiyi 46 seçki məntəqəsi üzrə səsvermənin nəticələri etibarsız hesab edilib. Ümumilikdə bütün dairələr üzrə seçkinin nəticələri təsdiqlənib.

Konstitusiyanın 130-cu maddəsinin 1-ci hissəsinə müvafiq olaraq Konstitusiya Məhkəməsi 9 hakimdən ibarətdir. Həmin maddəyə görə, hakimlər prezidentin təqdimatı əsasında Milli Məclis tərəfindən təyin olunur. Konstitusiya Məhkəməsi öz səlahiyyətlərinin icrasına 7 hakim təyin olunduqda başlaya bilər. Hakimlər 15 il müddətinə təyin olunurlar. Səlahiyyət müddəti başa çatdıqdan sonra Konstitusiya Məhkəməsinin hakimi təkrar eyni vəzifəyə təyin edilə bilməz. Məhkəmənin sədri və sədr müavini də prezident tərəfindən təyin edilir.

Yeri gəlmişkən, prezidenti İlham Əliyev parlament seçkilərinin nəticələrinin Azərbaycan xalqının iradəsini tam ifadə etdiyini deyib. **"Yüzlərlə xarici müşahidəçi seçkilərə çox müsbət qiymət verib. MDB-nin, Avropa Şurası Parlament Assambleyasının müşahidəçi missiyaları seçkilərin demokratik, ədalətli, şəffaf keçirilməsi ilə bağlı öz rəsmi rəylərini açıqladılar. Digər beynəlxalq qurumların nümayəndələri də seçkiləri yüksək qiymətləndirdilər"** deyə, prezident vurğulayıb.

Beləliklə, ortaya çıxan mənzərə Konstitusiya Məhkəməsinin bir neçə dairədə seçkilərin nəticələrini ləğv etməyəcəyini göstərir.

❑ **"Yeni Müsavat"**



**Ənvər Ağazadə:** "Ayıbına kor olub sussun"



**Elman Fəttah:** "Araz Əlizadə Hafiz Hacıyev kimi "kloun"dur"

# Araz Əlizadənin ittihamlarına sərt cavablar gəldi

**Noyabrın 1-də keçirilən parlament seçkilərindən sonra ölkə mətbuatının əsas gündəmində olan şəxslərdən biri Azərbaycan Sosial Demokrat Partiyasının sədri Araz Əlizadə oldu. O, seçkilərdə deputat seçilməsi ilə gündəmə gəlmədi. Daha çox saxta səslər yolu ilə qalib gəlməsi iddiaları ilə gündəmi zəbt etdi...**



Bu iddialar isə onun əsas rəqibi olan Ümid Partiyasının sədri İqbal Ağazadə və tərəfdarları tərəfindən daha çox səsləndi. Seçkilərdən 20 gün ötməsinə baxmayaraq, hər iki tərəf arasında narazılıq səngimək bilmir.

ASDP sədrinin ölkə.az saytına verdiyi son müsahibəsi sözün həqiqi mənasında közün üzərinə benzin töküb. O, müsahibədə İ.Ağazadə ilə yanaşı, Müsavat Partiyasının da ünvanına ağır ittihamlar, təhqiredici fikirlər səsləndirib. O bildirib ki, İqbal Ağazadənin əlində sübutlar varsa, aidiyyəti qurumlara müraciət etsin. A.Əlizadə seçkilərdən sonra Ümid sədrinin onu təhqir etmək yolu ilə nəticələri ləğv etməyə cəhd etdiyini vurğulayıb. 2013-cü ilin prezident seçkilərinə də toxunan ASDP sədri qeyd edib ki, İqbal Ağazadə adlı rəqibi olmayıb, hamının rəqibi ölkə prezidenti olub.

**A.Əlizadə Müsavat Partiyasının bostanına daş atmağı da unutmayıb. O, partiyanın seçkilərə 3 qalmış boykot qərarı vermәsini hakimiyyətlə sövdələşə bilməməsi ilə əlaqələndirib:** "Müsavat Partiyasının məqsədi o idi ki, sövdələşməyə girsin. Sövdələşmə baş tutmadı. Ona görə də fikirləşdilər seçkini pozа bilməsələr də, komissiyalara problem yaratsınlar. Bir şeyi bilmədilər, "eşşəyə minmək bir ayıb, düşmək iki ayıb". Bunlar bir dəfə hakimiyyətdə oldular. Qiyam yolu ilə hakimiyyəti ələ keçiriblər. İstəyirlər bunu yenə etsinlər..."

Barələrində səslənən ittihamlarla bağlı qarşı tərəflərin mövqeyini öyrəndik.

**Ümid Partiyasının sədr müavini Ənvər Ağazadə A.Əlizadənin ayıbına kor olub susmasının daha uyğun olduğunu söylədi:** "Dairədə seçkinin qalibi İqbal bəydir. Araz Əlizadənin müşahidəçiləri də bunun şahidi olublar. Müsahibəsinin birində qeyd edib ki, ilk gələn protokollar bizi məyus etdi. Heç olmasa, ayıbına kor olub sussun. Onun danışmağa mənəvi haqqı yoxdur. Əgər İqbal bəy uduzmuş olsaydı, susardıq, onu da təbrik edərdik. Əlimizdə kifayət qədər faktlar var. Jurnalist kimi sorğu keçirsəniz, görəcəksiniz ki, orada Araza səs verən olmayıb. Təəssüf ki, şikayətlərimiz obyektiv araşdırılmadı. Ali Məhkəmə cəmi 3 dəqiqə çəkdi. Bizi dinləmədən iddiamızı ləğv etdilər. Bu ölkədə ədalətli məhkəmə olsaydı, Araz Əlizadə belə sayıqlamazdı. O, hələ də 1988-90-cı illərin abı-havasındadır. Dəyişməyib, inkişaf etməyib. Müsahibdə deyir ki, Ağ Evi dağıtmaq lazımdır. Bu, bir partiya sədrinə, deputata yaraşmayan fikirlərdir. Nə qədər çox danışsa, vəziyyəti bir o qədər pisləşəcək. Ona görə sussun. O, prezident seçkilərində rəqibi haqqında bir kəlmə də danışmadı. Onun siyasətini tənqid edən fikirləri olmadı. Prezident seçkilərində onun kimliyi hər kəsə bir daha məlum oldu. O, həmin seçkilərdə 35 saylı dairədən cəmi 36 səs yığıb. Onu saxta seçki ilə deputat etdilər. Heç olmasa müşahidəçilərindən soruşsun ki, bu seçkilərin qalibi kim olub. İqbal bəy qətiyyən onu təhqir etməyib. Onun xarakterində belə hallar yoxdur. Sadəcə, sayıqlayır. Onun savadı, əxlaqı, mədəniyyəti buna imkan vermir".

**Müsavat başqanının müavini Elman Fəttah A.Əlizadəni siyasətin "kloun"u adlandırdı:** "Araz Əlizadə Azərbaycan siyasətinin tragikomik novellasına çevrilmiş şəxsdir. Onun açıqlamaları ciddiyə alınmır. Seçkilərdə iştirak və sonradan geri çəkilmə ilə bağlı cəmiyyətə yetərincə açıqlamalar vermişik. Məqsədimiz mübarizənin ardıcıllığını davam etdirməkdir. Mümkün olan imkanlardan istifadə etdik. Hesab edirəm ki, bu imkanlardan kifayət qədər istifadə etdik. Araz Əlizadə kimi insanların belə siyasəti dərk etmələri, mübarizəni anlamaları gözlədiyimiz şeylər deyil. Mətbuat yaxşı olar ki, Araz Əlizadə kimi səviyyədə olan insanları gündəmdə saxlamasın. Araz Əlizadə Hafiz Hacıyev kimi "kloun"dur".

❑ **Cavanşir ABBASLI**



# Deyir xəbərimiz olmayıb

Zamin HACI
zaminhaci@gmail.com

## Jurnalistlər də özlərini elə aparsınlar ki, hələ də xəbərləri yoxdur

**Rəsmi dövlət qəzetinin baş redaktoru "Nə üçün işdən çıxarılan, həbs edilən məmurlardan, nazirlərdən yazmırsınız" sualına çox gülməli cavab verib: "Bu cür məsələləri araşdırmaq bizim qəzetçilik prinsiplərimizə ziddir".**

Əcəb işdir. Bəs dünənə qədər prezidenti dəstəklədiyinizi deyirdiniz? Nə üçün quldurların aşkara çıxarılmasında ona yardım əlinizi uzatmırsınız? Qəzeti ancaq nazirin qayınanası öləndə başqa nazirlərdən pulla başsağlığı almaq yeri kimi görən adamdan nə gözləyəsən...

İnsafən bir də Amerikanı, Fransanı tənqid edirlər. Bizim ölkədə dəbdir. Burda olanda Fransanı söyürsən, Fransaya gedəndə isə "müsyö, sizin ayağınıza dəyən daş mənim başıma dəysin" söyləyirsən. Burda Amerikanı dünyanın ən alçaq rejimi kimi tənqid edirsən, amma Amerika prezidentini küçənin o tayında görəndə yaşıl işıq-zad demədən özünü avtomobillərin altına atırsan ki, təki Obamanın müqəddəs pencəyinin qolundakı düyməyə azca toxunasan. İkiüzlülük Şərqdə həmişə həyatda qalmağın əsas prinsipi olmuşdur.

Bir qaranlıq deputat isə dedi ki, indi ortaya çıxan məmur cinayətləri yenilikdir. Guya cəmiyyət bunlardan xəbərsizmiş. Guya hakimiyyət bunu qabaqcadan bilsə, tədbir görərmiş.

Rəhmətliyin oğlu, başqalarını demirəm, tək elə Çovdarov haqda eposlar yazılmışdı, sənin gözün kor idimi, oxumurdunmu? Lap hesab edək düz deyirsən, cinayətlərin bu cür miqyası heç kimə məlum olmayıb. O halda bunun özü dövləti cinayət deyilmi? Axı dövlət idarəçiliyində vəzifə səlahiyyətlərini aşma bir cinayətdirsə, səhlənkarlıq başqa cinayətdir. İstəyirsinizsə maddəsinin nömrəsini xatırladım, buyurun: Azərbaycan Respublikası Cinayət Məcəlləsi, maddə 314. Səhlənkarlıq. Açması da belədir: "Səhlənkarlıq, yəni vəzifəli şəxsin işə vicdansız və ya laqeyd münasibəti nəticəsində öz xidməti vəzifəsini yerinə yetirməməsi və ya lazımi qaydada yerinə yetirməməsi fiziki və ya hüquqi şəxslərin hüquqlarına və qanuni mənafelərinə və ya dövlətin və ya cəmiyyətin qanunla qorunan mənafelərinə mühüm zərər vurulmasına səbəb olduqda". Cəzası da var həttə - pul cərimələrindən başlanıb 5 il həbs cəzasına qədər davam edir.

MTN və Rabitə Nazirliyində baş verənlərə görə səhlənkarlıq maddəsi kimin boynuna düşür? Buyurun, açıqlama verin. Bu boyda cinayətlər xəbəriniz olmadan baş veribsə, hara baxırdınız? Xəbəriniz ola-ola baş veribsə, niyə indi özünüzü bilməmiş kimi aparırsınız? Əlbəttə, mən quldurların haçan cəzalanmasını qurdalamaq istəmirəm, cinayətkarı haçan tutsan sərfəlidir, təki tutulsun. Ancaq bəziləri özünü sudan çıxmış ağ qaşıq kimi aparmasın. Elə danışırlar sanki təhlükəsizlik və rabitə sisteminə bu boyda oturan, metastaz verən mafiyanı AXC-Müsavat cütlüyü yaradıbmış. *(Yeri gəlmişkən, burda dilləri lap qısadır, çünki MTN qanqster-generalı Akif Çovdarovu AXC-nin 1992-ci ildə işdən qovması təzəlikcə ortaya çıxdı. Bunlar gələndən sonra - 1994-95-də quldurluğa qaldığı yerdən davam edibmiş).*

Ancaq hardan? Cəmiyyətə informasiya verməyə yerinə media orqanlarını hədələyirlər. Lətifədir ki, adı Mətbuat Şurası olan karikatur qurum da hakimiyyətə qoşulub jurnalistləri hədələyir. Deyirlər hələ kimisə tutmamış, işdən qovmamış nə üçün onların haqqında yazırsınız? İmkan verin tutaq, sonra yazın. Belə bir "məntiq"...

Keçən ay MTN şefi Eldar müəllim vurulanda kimsə öz saytında rabitə nazirinin də vurulduğunu yazmışdı. Deyilənə görə Əli Abbasovun hələ 1 ay da kabinetindəki kreslonu basmasının sirri o yazıda olub. İşdən çıxarmayıblar ki, jurnalistin yazdığı doğru görünməsin. Sizə lətifə kimi gələ bilər, əgər yapistləri yaxından tanımırsınızsa. Orada - zəhləmgetmiş terminlə yazsam, hakimiyyət dəhlizlərində ən əsas dövlətçilik prinsipi qədəş qaydalarıdır. Kim kimi sındırdı, kim "niprav" çıxdı, kimin təsbehi daha uzundur və sairə. İndi yüz faiz yapistləri narahat edən budur. Nazirləri, generalları "sökmək" istəyirlər, amma adamların adı çıxır, məcburən gözləyirlər. Dəli şeytan deyir ki, bu dəqiqə bir çox nazirlər və generallar qəsdən özlərinin vurulması haqda xəbərlər ötürürlər. Nə bilesən... Bir ölkədə qəzetçi "araşdırma bizim prinsiplərə ziddir" deyirsə, ordan hər şey gözləmək olar.

**"Böyük iyirmilər"in (G20) sammiti yəqin ki, hələ bir müddət də siyasi analitiklərin təhlil mövzusu olacaq. Sammitin Parisdəki məlum terror olaylarından iki gün sonraya təsadüf eləməsi ona diqqəti nəinki azaltdı, əksinə, artırdı.**



# Antalya sammiti Türkiyənin gücünə güc qatıb - Bakı da uduşda...

## Qardaş ölkənin həm Qərb, həm də Rusiya üçün önəmi artıb; Suriyaya dair uğurlu "Yol xəritəsi" Qarabağ üçün də "Yol xəritə"sinin tapılmasına gətirə bilər; "The Washington Post" Obamanı Putinlə bağlı nəyə görə xəbərdar edib?

Doğrudur, zirvə toplantısının ilkin gündəliyi iqtisadi məsələlərdən ibarət idi, Paris terroru isə əslində onun önəminə önəm qatdı, gündəliyi daha sanballı elədi. Çünki terrorla effektli mübarizənin yolu liderlərin bir araya gəlib vahid mövqe sərgiləməsindən keçir. Bu məsələyə dair isə Antalya sammiti çərçivəsində iki və çoxtərəfli müzakirələr aparılsa da, ortaq strategiya cızmaq mümkün olmadı - ən əvvəl də Rusiyanın İŞİD və Suriya problemlərinin həllinə prinsipial fərqli yanaşması səbəbindən.

Sadalanan aktual mövzular ətrafında müzakirələr, o sırada Ankara və Qərbin Bəşər Əsədə yalnız 5-6 aylıq şans tanıması, bütövlükdə Türkiyənin, Amerika və Avropanın vahid mövqe sərgiləməsi özünü qabarıq şəkildə göstərdi və üstəlik, rəsmi Ankaranın rolunun artması ilə yada qaldı. Söhbət həm də Avropa qitəsinə miqrant axınının qarşısını almaqdan gedir.

Rusiya tərəfi təbii ki, bundan məmnun deyil, hərçənd zirvə toplantısı çərçivəsində prezident Rəcəb Tayyib Ərdoğanın rusiyalı həmkarı Vladimir Putinlə də səmərəli danışıqları olub, iqtisadi-energetik sahələrdə əməkdaşlığı davam etdirmək yönündə anlaşma əldə edilib.

Ancaq gerçək bundan ibarətdir ki, qardaş ölkənin də yer aldığı Qərb İŞİD-lə birgə mübarizə qarşılığında Rusiyaya Ukrayna, Suriya ilə bağlı güzəşt tanımadı, Moskvanın təcriddən çıxmasına "dobro" vermədi. Putin isə Parisdəki terror hücumunu fürsət bilib buna çox ümid edirdi. Hər halda, belə bir əməkdaşlıq Moskva strateqlərinə görə, Krım məsələsinin dünyanın gündəmindən həmişəlik çıxmasına, ardınca sanksiyaların götürülməsinə və yekunda Rusiyanın "bağışlanması"na gətirə bilərdi.

***

Amerika rəsmilərinin son bəyanatlarından da görünür ki, Vaşinqton terrorla birgə mübarizə əvəzində



Moskvaya nəinki Donbas, heç Krımla bağlı da güzəştə getməyə hazırlaşmır. Bu mövqeyi ABŞ diplomatiyasının "ağır topları"ndan sayılan dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi **Viktoriya Nuland** bir daha ortaya qoyub: G20 zirvəsindən cəmi iki gün sonra Berlində beynəlxalq təhlükəsizlik konfranslında məruzə ilə çıxış edən Nuland açıq bəyan edib ki, "Rusiya Krımı qaytarmayınca, Donbasdan öz qoşunlarını çıxarmayınca, Minsk anlaşmasına tam riayət etməyincə ona qarşı sanksiyalar saxlanmalıdır".

**Öz növbəsində nüfuzlu Amerika nəşrlərindən olan "The Washington Post" hesab edir ki, Suriya ilə bağlı Rusiya ilə əməkdaşlıq ABŞ-ın təhlükəli səhvi olardı.** "Parisdəki terror aktları Putin üçün taktiki imkanlar açıb. Rusiya hökmdarı iki ay idi ki, ərəb və Qərb dövlətlərini özünün "anti-İŞİD alyansı" adlandırdığı koalisiyaya qoşulmaq üçün inandırmağa cəhd edirdi - hərgah Rusiyanın əməliyyatları İŞİD-dən çox mötədil müxalifət qüvvələrinə qarşı yönəlib", - deyə "The Washington Post" qəzetinin son sayındakı redaksiya məqaləsində qeyd olunur.

**Nəşr daha sonra yazır:** "İndi - Parisdəki terror aktlarından sonra Fransa prezidenti Fransua Olland qəfildən böyük alyans yaratmaq ideyasını ortaya atıb və onu irəli aparmaq üçün növbəti həftə Vaşinqton və Moskvaya səfərə hazırlaşır. Kremlə bu sərf edir: alyansın qurulması yanvarda müddəti başa çatan sanksiyaların götürülməsi *(əgər onlar uzadılmayacaqsa)* demək olar, Rusiyaya Suriyanın və mümkündür ki, Ukraynanın gələcəyini müzakirə eləməyə icazə vermək anlamına gələr".

**Lakin məqalə müəllifləri hesab edirlər ki, hərbi planda Kremlin ABŞ başda olmaqla, Qərb koalisiyasına verəcəyi ciddi bir şey yoxdur.** "Putinin Əsəd rejimini dəstəkləməsi İŞİD üzərində qələbəyə mane olan ən böyük əngəllərdən biridir. Putinin koalisiyaya yeganə məhsuldar töhfəsi o ola bilər ki, Rusiyanın nüfuzundan istifadə edərək Bəşər Əsədin getməsinə nail olsun və Suriyada Qərbin müdafiə elədiyi müxalif qüvvələrə hücumları dayandırsın. Bu, olmasa, Rusiya ilə alyans yaratmaq ABŞ və Fransa uçun təhlükəli səhv olacaq", - deyə analitiklər xəbərdarlıq ediblər.

***

**Bu arada ABŞ prezidenti Barak Obama da bəyan edib ki, Bəşər Əsəd getməyincə, İŞİD-in tam məhvi mümkün olmayacaq.** "Suriyada siyasi nizamlanma olmayınca, terrora qalib gəlmək mümkünsüz olacaq. Bəşər Əsəd hakimiyyətdə olduğu müddətdə isə siyasi nizamlanma mümkün deyil" - Ağ Ev başçısı vurğulayıb.

**Qeyd edək ki, Suriya prezidenti Bəşər Əsəd İtaliya mətbuatına müsahibəsində terrorçulara qalib gəldikdən iki il sonra istefaya gedə biləcəyini bildirib.** "Terrorçuların əksər rayonlara nəzarət etdiyi müddətdə siyasi nöqteyi-nəzərdən nəticələr əldə etmək mümkün deyil", - deyə o söyləmişdi.

Təbii ki, Əsəd belə açıqlamaları Rusiya və İranın dəstəyinə güvənərək verir. Odur ki, Qərbin bir problemi də indi Moskva və Tehran arasında ixtilaf yaradıb onların Suriya, Bəşər Əsəd məsələsində əməkdaşlığına mane olmaqdır. Buna da İŞİD-lə mübarizəni gücləndirmək və müxalif anti-Bəşər qüvvələrinə hərtərəfli köməyi gücləndirməklə nail olmaq mümkündür.

Bu məsələlərdə isə NATO üzvü Türkiyə vazkeçilməz ölkə olaraq qalır və belə görünür Suriyaya dair "Yol xəritəsi" də məhz qardaş ölkə üzərindən və onun birbaşa iştirakı və dəstəyi ilə həyata vəsiqə alacaq. Ankaranın bölgədə rolunun və nüfuzunun güclənməsi isə Bakının da uduşu deməkdir. Həm də o səbəbə ki, Suriya üçün uğurlu "Yol xəritəsi" Ukrayna, Dağlıq Qarabağ problemlərinin həlli üçün də "Yol xəritə"lərinin tapılmasına gətirə bilər.

❑ Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 258 (6286) 20 noyabr 2015



# ABŞ Azərbaycanla münasibətləri düzəldir

## Ekspert: "ABŞ Azərbaycanın Rusiyanın nəzarəti altına düşməməsinə çalışır"

**İki gündür ABŞ-ın böyük bir nümayəndə heyəti Azərbaycanda səfərdədir. Nümayəndə heyətinə ABŞ-ın Baxter, Bloomberg LP, Capstone Turbine, Dow, Honeywell, Globalise, Langan, Miyamoto International, Osisoft, P&G, Thomson Reuters, Turner International, Wayback's Burgers, WSP/Parsons Brinkherhoff kimi şirkətlərin prezidentləri və ya təmsilçiləri daxildir.**

ABŞ Ticarət Departamentinin rəsmilərinin də daxil olduğu nümayəndə heyətinin Azərbaycanda biznes və hökumət qurumları ilə biznes imkanlarını araşdırmaq və genişləndirmək məqsədilə gəldiyi açıqlanıb.

ABŞ-ın Azərbaycandakı səfiri Robert Sekuta bildirib ki, Azərbaycan Amerika biznesmenləri üçün çox mühüm ticarət partnyorudur.

ABŞ Ticarət Departamenti katibinin köməkçi müavini Maykl Lalli qeyd edib ki, bu ticarət missiyasının məqsədi yeni böyük ixrac imkanlarına qapı açmaq və Azərbaycana yeni investisiyalar cəlb etməkdir ki, bu da iki ölkənin iqtisadiyyatları arasında sıx olan münasibətləri daha da inkişaf etdirəcək.

Maykl Lalli Azərbaycanla Amerika arasında iqtisadi əlaqələrindən danışarkən deyib ki, 2014-cü ildə ABŞ-Azərbaycan arasındakı ticarət dövriyyəsi 2 milyard dollar həcmindədir. Daha çox aviasiya, peyk və digər sahələr üzrə əməkdaşlıq edilib.

**Maykl Lalli qeyd edib ki, iki ölkə arasında iqtisadiyyat sferasında çox vacib potensial mövcuddur. Onun sözlərinə görə, təmsil etdiyi qurum bu potensialı genişləndirmək, dərinləşdirmək niyyətindədir:** "ABŞ-Azərbaycan tərəfdaşlığı həqiqətən öz uğuru ilə seçilir. Azərbaycan və ABŞ arasında olan iqtisadi münasibətlərin həm dərinləşməsinə, həm də genişlənməsinə təkan verən bir missiyanın rəhbəriyəm. Missiyanın iki əsas məqsədi var. Birincisi ondan ibarətdir ki, iki ölkə arasında iqtisadiyyat və ticarət sahəsində çox vacib potensial var. Missiyamız bu potensialı genişləndirməyə səy göstərir. İkincisi, ABŞ şirkətləri Azərbaycanda tərəfdaş tapmağa və azərbaycanlılarla birlikdə işləyərək həm Azərbaycanda, həm də ABŞ-da biznes qurub yeni iş yerləri yaratmağa çalışırlar. Bu missiya son 7 ildə ABŞ Ticarət Departamentindən olan ən yüksək səviyyəli səfərdir. Bizim heyət 100-ə yaxın görüşlər keçirəcək. Bu görüşlərdə gələcək hədəflər müəyyən ediləcək ki, 2016-cı ildə daha böyük nümayəndə heyəti ilə gələ bilək".

ABŞ-dan son 7 ildə ilk dəfə Azərbaycana belə bir böyük tərkibdə iş adamlarından ibarət nümayəndə heyətinin gəlişi son dövrlər Azərbaycan-ABŞ münasibətlərindəki soyuqluğun aradan qalxmaqda olduğu mənzərəsini yaradır. Belə görünür ki, ABŞ Azərbaycanla münasibətlərin daha soyuqlaşmasından, münasibətlərin qırılmasından sanki ehtiyat edir.

**Bu mövzuda "Yeni Müsavat"a açıqlamasında "Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu bildirdi ki, müstəqillik qazandıqdan bəri ABŞ Azərbaycanla üç istiqamətdə-enerji, təhlükəsizlik və insan haqları sahəsində əməkdaşlıq edir . Üçüncü istiqamətdə son illərdə münasibətlərdə gərginlik yaşanır:** "Azərbaycan hakimiyyəti Amerikanın Azərbaycandakı demək olar ki, bütün fond və mərkəzlərini qapatdı. Bu da münasibətlərdə gərginlik yaratdı. Gərginliyi bir az da artıran ABŞ-ın Azərbaycandakı keçmiş səfiri Riçard Morninqstarın AzadlıqRadiosuna verdiyi müsahibədə "Ukraynadakı Maydan hadisələri Azərbaycanda təkrarlana bilər" fikri oldu. Azərbaycan hakimiyyəti ABŞ-ın demokratiya və insan haqları məsələsində ölkəmizin daxili işlərinə qarışmasını istəməsə də digər iki istiqamətdə əməkdaşlıq əvvəlki tempdə davam edib. Enerji və təhlükəsizlik sahəsində əməkdaşlıq dayanmayıb. TAP və TANAP-ın reallaşmasında Azərbaycan ən böyük dəstəyi Amerikadan görüb. Amerikanın Avropa ölkələrindəki səfirləri o ölkələrin hakimiyyətləri ilə danışıqlar aparırlar ki, həmin ölkələr Rusiyadan çox Azərbaycan qazına üstünlük versin. Bu, enerji əməkdaşlığının ölçüsünü göstərir. Əsas da dövlət başçısı İlham Əliyevin Antalyada keçirilən G-20 sammitindəki çıxışına diqqət edək. İlham Əliyev Barak Obamaya minnətdarlıq etdi və dedi ki, əgər 1990-cı illərin ortalarında ABŞ-ın Bakıya dəstəyi olmasaydı, Azərbaycan böyük layihələri reallaşdıra bilməzdi. Söhbət 1994-cü ildə imzalanan "Əsrin müqaviləsi"ndən və Bakı-Tiflis-Ceyhan layihəsindən gedir ki, Amerika da bu layihələrə bizə çox böyük siyasi dəstək verdi. Azərbaycana Rusiyadan böyük təzyiqlər var idi. Bu təzyiqləri məhz ABŞ neytrallaşdırdı. İlham Əliyev bunu mötəbər tribunadan bir daha xatırlatmaqla Amerikaya təşəkkürünü bildirdi. Həmin sammitdə Rusiya prezidenti də iştirak edirdi. Azərbaycan prezidenti çıxışı zamanı bircə dəfə də olsun bu məsələlərdə Rusiyaya minnətdar olduğunu bildirmədi. Çünki bu məsələlərdə Rusiya bizə dəstək olmayıb, əksinə, mane olmağa çalışırdı. Ona görə də hətta İlham Əliyev də Amerikanın Azərbaycana dəstək verdiyini etiraf etmiş oldu. Bunun ardınca da ABŞ-dan Azərbaycana ciddi bir nümayəndə heyəti gəlib. Azərbaycan ABŞ üçün çox vacib ölkədir. Azərbaycan bölgənin lider ölkəsidir və antiterror koalisiyasında illərdir iştirak edir. Mümkündür ki, yaxın vaxtlarda Amerika anti-İŞİD koalisiyasının da yaradılmasına başlasın və ABŞ-a bu koalisiyada daha çox müsəlman ölkəsinin də yer alması vacibdir. Düşünürəm ki, Bakı ilə Vaşinqton arasında bu istiqamətdə də danışıqlar gedəcək. Vaşinqton istəyəcək ki, Azərbaycan anti-İŞİD koalisiyasında yer alsın".

**E.Şahinoğlunun sözlərinə görə, iki gündür Azərbaycanda olan ABŞ nümayəndə heyəti əsasən böyük biznesmenlərdən ibarət olsa da, bu səfərin özünün həm də siyasi əhəmiyyəti var:** "Enerji-iqtisadiyyat, təhlükəsizlik sahələrində əməkdaşlıq davam edir. Nümayəndə heyətinin səfəri də bunu təsdiq edir. Vaşinqton Azərbaycanın dəyərini anlayaraq onunla əməkdaşlıqda maraqlıdır. Diqqət edirsinizsə, ABŞ-ın yeni səfiri Robert Sekuta fəaliyyətə başlayandan indiyə qədər bircə dəfə də olsun insan haqları və demokratiya mövzusunda hər hansı çıxış etməyib. Çünki bilir ki, bu mövzuya Azərbaycan hakimiyyəti çox həssasdır. Ona görə də bu mövzulardan yan keçərək enerji, iqtisadi, hərbi əməkdaşlıqdan danışır ki, bunda Azərbaycan hakimiyyəti də maraqlıdır".

**Ekspert onu da vurğuladı ki, ABŞ Azərbaycanın Rusiyanın nəzarəti altına düşməməsinə çalışır. Demokratiya və insan haqları məsələsində münasibətlər soyuq olsa da digər istiqamətlərdə münasibətləri sıxlaşdırmaqla Azərbaycanı Rusiyaya bağlanmaqdan mümkün qədər uzaqlaşdırmaq istəyirlər:** "Nə ABŞ, nə də Avropa Birliyi Azərbaycanın Rusiyanın caynağına keçməsində maraqlıdır. Rusiya Azərbaycanı da Avrasiya İqtisadi Birliyində görmək istəyir. Amma nə vaxta qədər ki, Dağlıq Qarabağ münaqişəsi mövcuddur, Azərbaycanın torpaqları işğal altındadır, Azərbaycan Avrasiya İqtisadi Birliyinə daxil olmayacaq. Rusiya Ermənistana təzyiq edib işğal altındakı rayonların boşaldılmasına nail olsa, ABŞ istəməsə belə, Azərbaycanın Avrasiya İqtisadi Birliyinə üzvlüyü də mümkündür".

❑ Etibar SEYİDAĞA



# ABŞ üçün Qarabağın Krımdan fərqi

## Ekspert: "Vaşinqton düşünür ki, Dağlıq Qarabağ münaqişəsi Krım problemi qədər Avropaya, Qərbə təhlükə törətmir"

**ABŞ dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Viktoriya Nuland Berlində təhlükəsizlik konfransında məruzə ilə çıxış edib. Musavat.com-un məlumatına görə, Nuland məruzəsində ilk növbədə diqqəti əsas təhdidlərə qarşı ABŞ-Avropa Birliyi əməkdaşlığına yönəldib. Bu sıraya o, terrorizmi, Suriyadakı konflikti, Rusiyanın Ukraynadakı aqressiv xarici siyasətini aid edib.**

Son terror aktlarından əziyyət çəkən ölkələr kimi Fransanın, Türkiyənin, Livanın və Rusiyanın adını çəkən diplomatın sözlərinə görə, terrorizmlə ayrı-ayrılıqda deyil, yalnız birgə mübarizə effektli ola bilər. Nuland çıxışının böyük bir hissəsini Ukraynadakı münaqişəyə həsr edib. Onun fikrincə, Suriyadakı konflikt Balkanlardakı 90-cı illər müharibəsi, 11 sentyabr terror aktından sonra Əfqanıstan, Ebola epidemiyası, həmçinin, Ukraynaya Rusiya aqressiyasından müdafiəyə kömək məsələləri ilə yanaşı durur.

O, Rusiyanı məsuliyyətə cəlb eləmək üçün sanksiyaların effektli rıçaq olduğunu xüsusi qeyd edib. Nuland qeyd edib ki, bu sanksiyalar Minsk anlaşması bütünlüklə yerinə yetirilənə, Rusiya Krımı qaytaranadək saxlanmalıdır.

Viktoriya Nulandın Krımın işğal olunduğunu və mütləq geri qaytarılmalı olduğunu bəyan etməsi, lakin 20 ildən artıqdır Rusiyanın dəstək verdiyi Ermənistan tərəfindən işğalda saxlanan Qarabağın, Qarabağ münaqişəsinin adını çəkməməsi suallar yaradır. ABŞ üçün Qarabağın Krımdan fərqi nədədir?

**Politoloq Natiq Miri öncə bildirdi ki, Nulandın açıqlaması dünya düzənində ABŞ-ın Rusiyadan fərqli olaraq ortaya bir prinsipial yanaşma tərzi qoyduğunu göstərir:** "Nuland bu açıqlamanı verməklə göstərir ki, artıq dünyada siyasi bazarlıqlar dönəmi arxada qalır. Heç bir vəchlə Ukrayna Rusiya ilə ABŞ arasında siyasi bazarlıq predmeti olmayacaq. Bu, həm də Rusiyaya bir xəbərdarlıqdır. Fikir verdinizsə, Türkiyədə G-20 sammitində Barak Obama İŞİD-ə qarşı mübarizədə Rusiya ilə əməkdaşlığın mümkün ola biləcəyini dilə gətirdi, lakin bunu bir şərtlə ortalığa qoydu. Ukrayna məsələsində ABŞ-ın mövqeyinin dəyişmədiyini ortalığa qoydu və dedi ki, Əsəd rejimini dəstəkləmək əsas hədəf olmamalıdır. Obamanın ardınca Nuland təxminən eyni mövqeni bəyan etdi. ABŞ-ın Qarabağ məsələsinə Krım məsələsinə göstərdiyi həssaslığı nümayiş etdirməməsi isə bir sıra faktorlarla bağlıdır. Ukrayna-Krım bütövlükdə Qərb dünyası üçün ciddi bir təhlükəsizlik məsələsi hesab edilir. ABŞ Krım məsələsini strateji məsələ sayır. Ancaq Dağlıq Qarabağ məsələsi bu gün ABŞ üçün strateji əhəmiyyətli hesab edilmir. Vaşinqton düşünür ki, Dağlıq Qarabağ münaqişəsi Krım problemi qədər Avropaya, Qərbə təhlükə törətmir. Qarabağ probleminin ABŞ və Avropa Birliyi üçün Krım qədər prioritet olmasını təmin edən amillərdən bir çoxu hazırda mövcud deyil".

**Politoloq onu da dedi ki, Azərbaycanda ABŞ və Avropa Birliyi üçün cəlbedici idarəetmə rejimi olmalıdır:** "Ukrayna Avropa Birliyi ilə sürətli yaxınlaşma yolunu tutub, demokratiya istiqamətində ciddi addımlar atır, liberal iqtisadiyyata keçid prosesi gedir. ABŞ-ın və Avropa Birliyinin Krım məsələsində Ukraynaya açıq dəstək verməsinin səbəblərindən biri də bu amillərdir. Kimlərsə Azərbaycanda demokratiyanın bərqərar olmasının, korrupsiyaya qarşı çox ciddi mübarizə aparılmasının Dağlıq Qarabağ probleminin həllinə yardım etməyəcəyini düşünürsə, yanılır. Krıma olan diqqətin Qarabağa da olması üçün Azərbaycan ABŞ üçün Ukrayna qədər cəlbedici olmalıdır".

❑ E.SEYİDAĞA

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 258 (6286) 20 noyabr 2015



# Prezidentlər görüşə razılıq verdilər, amma...

## Azərbaycanın dövlət başçısından qəti mövqe: "Ərazi bütövlüyümüzü bərpa etmək üçün hər şeyi edəcəyik"; siyasi təhlilçilər planlaşdırılan görüşü şərh edir

**Bir il 3 aylıq fasilədən sonra Azərbaycan və Ermənistan prezidentlərinin növbəti görüşünün keçirilməsi gözlənilir. Ermənistanın hakim Respublika Partiyası İcraiyyə Komitəsinin iclasından sonra partiyanın mətbuat katibi, parlamentin vitse-spikeri Eduard Şarmazanovun sözlərinə görə, görüş dekabrın əvvəlində baş tuta bilər.**

Oktyabrın 26-da ATƏT-in Minsk Qrupunun amerikalı həmsədri Ceyms Uorlik bölgəyə səfər zamanı vasitəçilərin ilin sonunadək prezidentlərin görüşünü təşkil eləmək niyyətində olduqlarını söyləmişdi. Belə görünür ki, ATƏT-in Minsk Qrupunun həmsədrlərinin regiona sonuncu səfəri əvvəlcə İrəvan, ardınca Bakıda keçirdikləri görüşlər minimum nəticə verib. Hər halda, müşahidəçilər son zamanlar tərəflərin bir-birinə qarşı həm təmas xəttində, həm də diplomatik baxımdan sərt mesajlar verməsini müharibənin hər an alovlana biləcəyinin əlaməti kimi dəyərləndirirdilər. Odur ki, daha bir görüş faktının olması status-kvonun saxlanmasına və gərginliyin növbəti fazaya keçməməsinə maraqlı olanlara rahat nəfəs dərmək imkanı verəcək.

Lakin görüşün hansı ölkədə keçiriləcəyi məlum deyil. Xatırladaq ki, sonuncu yüksək səviyyəli görüş prezident Olландın təşəbbüsü ilə 2014-cü ilin oktyabrında Parisdə baş tutub. Növbəti görüşün Nyu-Yorkda, BMT Baş Assambleyası çərçivəsində keçiriləcəyi gözlənilsə də, Ermənistanın qeyri-konstruktivliyinə, Sərkisyanın Dağlıq Qarabağı "Ermənistanın tərkib hissəsi" saymasına cavab olaraq Azərbaycan liderinin mərasimə qatılmaması səbəbindən baş tutmadı. E.Şarmazanovun dediklərindən isə belə aydın olur ki, prezidentlərin görüşü yaxın həftələrdə olacaq. **"Dekabrın əvvəlində Əliyev-Sarkisyan görüşünü mümkün sayıram. Görüş hansı gündə və harada keçiriləcək, bu haqda Prezident Aparatı müvafiq xəbər verəcək"** - deyə, Şarmazanov bildirib. ATƏT-in Minsk Qrupunun həmsədrlərinin oktyabrın 26-28-də regiona səfərindən sonra diplomatların yaydıqları bəyanatda bildirilirdi ki, Azərbaycan və Ermənistan prezidentləri ilin sonunadək yüksək səviyyədə görüşün keçirilməsinə hazır olduqlarını təsdiqləyiblər.

Qeyd edək ki, Azərbaycan prezidenti son günlər Qarabağ məsələsində rəsmi Bakının tutduğu prinsipial mövqeyini davamlı şəkildə bəyan edib, ərazi məsələsində güzəştin olmayacağını bildirib. Türkiyənin Antalya şəhərində "Böyük iyirmilik" ölkələri liderlərinin Sammiti çərçivəsində keçirilən toplantıda Azərbaycan prezidentinin, R.T.Ərdoğanın dediyi kimi, ev sahibi statusunda çıxış etməsi əslində Ermənistana, onun havadarlarına çox ciddi mesaj idi. Eyni zamanda ölkə başçısı liderlərin diqqətini Dağlıq Qarabağ münaqişəsinə yönəltdi. Üstəlik, Azərbaycan prezidenti son vaxtlar Türkiyədə və Fransada baş vermiş terror aktları ilə əlaqədar fikirlərini söyləyərkən Azərbaycanın Türkiyə və Fransanın yanında olduğunu bəyan etdi. Söhbət rəsmi Bakının antiterror koalisiyasının üzvü olaraq sivil dünyanın yanında olmasından gedir və Ermənistanın terrorçuluğun və işğalçılığın dəstəkçisi olması da faktdır. Bu mənada hazırkı vəziyyət Azərbaycanın Qarabağ məsələsində mövqeyini möhkəmləndirir.

Noyabrın 17-də isə Parisdə UNESCO Baş Konfransının 38-ci sessiyasının Liderlər Forumunda çıxış edən Azərbaycan prezidenti işğalçı Ermənistana ünvanlı sərt çıxış edib. İ.Əliyev dünya birliyinə də çağırış edib: **"Əlbəttə ki, biz torpaqlarımıza qayıdacağıq, şəhərlərimizi bərpa edəcəyik, orada yeni məktəb və xəstəxanalar inşa edəcəyik, lakin tarixi abidələrimizi bərpa edə bilməcəyik"**. Ali Baş Komandan düşmənə və Azərbaycanı işğal faktı ilə barışdırmaq istəyənlərə kifayət qədər sərt mesaj verib: **"Ermənilər bizim tarixi irsimizi məhv ediblər, lakin onlar bizim iradəmizi, evlərinə geri qayıtmaq istəyən qaçqın və məcburi köçkünlərin, Bakıda və Azərbaycanın digər şəhərlərində dünyaya gələn, öz tarixi torpaqlarını heç vaxt görməyən, lakin doğma torpaqlarına qayıtmaq üçün qəlbində böyük iradə ilə yaşayan insanların nəvə nəticələrinin iradəsini məhv edə bilməzlər. Onlar geri qayıdacaqlar! Biz Azərbaycanın ərazi bütövlüyünü bərpa etmək üçün hər şeyi edəcəyik. Bir daha qeyd etmək istəyirəm ki, beynəlxalq hüquq normaları Azərbaycanın mövqeyini tamamilə dəstəkləyir. Eyni zamanda Dağlıq Qarabağ Azərbaycanın tarixi torpağıdır. "Qarabağ" sözünün mənşəyi Azərbaycana məxsusdur. Bu, "Qara", "Bağ" deməkdir, bunun erməni dilində heç bir mənası yoxdur".**

**Politoloq Arzu Nağıyev** ölkə başçısının mövqeyi və prezidentlərin gözlənilən görüşü barədə danışarkən qeyd etdi ki, planlaşdırılan görüşün təşəbbüskarı ABŞ-dır: "Dəfələrlə bu haqda ATƏT-in Minsk Qrupunun amerikalı həmsədri Ceyms Uorlik də bildirib. Dekabrda görüşün baş tutması da sual altındadır. Çünki Ermənistan rəhbərliyi atəşkəsi pozmaqda davam edir, beynəlxalq normalara riayət etmir. Ərazi bütövlüyü ilə bağlı beynəlxalq normalara uyğun olmayan bəyanatlar verir. Eyni zamanda Azərbaycan rəhbərliyi də erməni təcavüzünü sərt bəyanatlarla tənqid edir və hətta lazım gəlsə güc nümayiş etdiriləcəyini bəyan edir. Yəni belə bir şəraitdə görüşün baş tutacağı sual altındadır".

**A.Nağıyev əlavə etdi ki, Rusiya da bu görüşün məhz ABŞ tərəfindən təşkil ediləcəyinə qısqanclıqla yanaşır:** "Eyni zamanda Ermənistanda konstitusiya dəyişikliklərini nəzərdə tutulan referendum keçirilməlidir və bu baş tutarsa, prezidentin səlahiyyətləri azalacaq və parlamentin bu görüşə necə yanaşması da əsas faktdır. Düşünürəm ki, ermənilər görüşlərlə status-kvonu saxlamğa da çalışır. Bir sözlə, konkret addımlar atılmayacağı bir şəraitdə bu görüşün baş tutması da münaqişənin həlli üçün bir rol oynamır".

**Azərbaycanın da qatıldığı, dünyanın 20 nəhəng dövlətinin zirvə toplantısının Qarabağın azadlığına hansısa töhfələr verə biləcəyi barədə proqnozlara gəldikdə, politoloq bunları bildirdi:** "Türkiyədə keçirilən G-20 toplantısı ərəfəsində Fransada baş verən məlum terror hadisələri tədbirin gündəliyində mühüm dəyişikliyin edilməsi ilə nəticələndi. Belə ki, təbii ki, Suriya məsələsi də daxil olmaqla, əsasən iqtisadi problemlərin müzakirəsini nəzərdə tutulan tədbirdə terror problemi də gündəmə gəldi. Belə bir toplantıda Azərbaycanın dövlət başçısı İlham Əliyevin də iştirakı və onun dünya liderləri qarşısında Ermənistanın Azərbaycana qarşı illərlə keçirdiyi terror hadisələrini, 2000- dən artıq həmvətənlərimizin terror qurbanı olduğunu bildirməsi həddən artıq təqdirəlayiq bir haldır. Yəni baxmayaraq ki, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsi ATƏT-in Minsk Qrupuna həvalə edilsə də, BMT-nin bir neçə qərarı da daxil olmaqla, problem danışıqlardan o tərəfə keçmir, ərazi bütövlüyü haqqında danışılmır, sülhə çağırışlardan başqa mühüm bir qərar verilmir. Məhz bundan istifadə edən və havadarları hesabına beynəlxalq hüquq normalarına məhəl qoymayan Ermənistan status-kvonu saxlayır və terror və təxribatlarını davam etdirir. Bütün bunların cənab İlham Əliyevin çıxışında öz əksini tapması çox mühüm amildir. Təbii ki, belə bir çıxış və dünya liderləri qarşısında gətirilən arqumentlər və faktlar Ermənistanın kəskin reaksiyasına səbəb olmalı idi və oldu. Bunun da Azərbaycan xarici siyasət idarəsi tərəfindən cavabı verildi. Əsas məsələ ondan ibarətdir ki, dünya dövlətləri bir daha terrorun hansı fəsadlara gətirdiyini, dini və etnik radikalizmin milli təhlükəsizliyə necə bir təhdid olduğunun bir daha şahidi oldular və Azərbaycanın da bu təhdidlə illərlə üz-üzə qaldığının dövlət başçısının çıxışında bir daha şahidi oldular".

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu isə "Yeni Müsavat"a dedi ki, həmsədrlərin nikbinliyinin nəyə əsaslandığını söyləmək çətindir:** "Həmsədrlər əldən-ayaqdan gedirlər ki, bu ilin sonuna qədər Azərbaycan və Ermənistan prezidentlərini görüşdürsünlər. Birincisi, görüşün baş tutub-tutmayacağı hələ böyük sual altındadır. Lap tutaq ki, həmsədrlərin səyi nəticəsində prezidentlər görüşdü, bu, danışıqlar prosesində nəyi dəyişəcək ki? Növbəti məzmunsuz görüş olacaq. Ermənistanın Dağlıq Qarabağ ətrafındakı rayonları boşaldacağına dair heç bir işartı yoxdursa, prezidentlərin danışığından real nəticə gözləmək əbəsdir. Əksinə, həmsədrlər anlamalıdırlar ki, prezidentlərin görüşü uğursuz alınarsa, bu, cəbhə bölgəsindəki vəziyyəti bir az daha gərginləşdirəcək".

**E.Şahinoğlunun fikrincə, prezident Əliyev "Böyük iyirmilər"in Antalyada keçirilən sammitində iştirakı iki səbəbdən vacib idi:** "Birincisi, Azərbaycan prezidenti sammitdə böyük dövlətlərin liderləri ilə görüşüb fikir mübadiləsi aparmaq imkanına malik oldu. İkincisi, İlham Əliyev sammitdəki çıxışı ilə dünya liderlərinin diqqətini Azərbaycanın böyük enerji layihələrinə və Dağlıq Qarabağ münaqişəsinə yönəltdi. Rusiya Ermənistanın strateji hərbi müttəfiqi olaraq Dağlıq Qarabağ münaqişəsinin həllində maraqlı deyil, Azərbaycanı qazının Avropaya çatdırılmasını əngəlləmək məqsədilə "Türk axını" layihəsini TAP-dan əvvəl tikmək istəyir. İlham Əliyev hər zaman belə bir fikri də vurğulayır ki, Azərbaycan beynəlxalq terrora qarşı mübarizədə Qərbin yanındadır. Misal olaraq da Azərbaycan əsgər və zabitlərinin Əfqanıstan və İraqda xidmət göstərmələri bildirilir. Beynəlxalq aləm indi yeni anti-İŞİD koalisiyası formalaşdıracaq. Növbəti sual budur: Azərbaycan anti-İŞİD koalisiyasında yer almalıdırmı? Doğrudur, son terror aksiyalarına *(Rusiya təyyarəsinin partlaması nəticəsində 224 nəfər həlak oldu, Beyrutda 40 nəfər qətlə yetirildi, Parisdəki partlayışlarda 130 nəfər öldü)* partlayışlara baxmayaraq hələ ki nə belə bir koalisiya formalaşıb, nə də bizdən virtual koalisiyaya qoşulmaq xahişi edilib. Ancaq hadisələr o qədər sürətlə inkişaf edir ki, böyük dövlətlərin İŞİD-ə qarşı ortaq mübarizə cəbhəsi açması uzaq perspektiv də deyil. İllər öncəsi Azərbaycan əsgərinin və zabitinin Əfqanıstan və İraqda olacağını ehtimal etmək çətin idi. Ancaq bu, oldu".

**Politoloq hesab edir ki, gələcəkdə İŞİD-ə qarşı mübarizədə Azərbaycandan yenə sülhməramlı qüvvələrin tərkibində yer alması xahiş oluna bilər:** "Rəsmi Bakı beynəlxalq aləmin bu xahişinə "yox" deməyəcək. Birincisi, bunu Azərbaycanın bölgədə oynadığı rol diktə edir, ikincisi, İŞİD Azərbaycan üçün də getdikcə təhlükə mənbəyinə çevrilir, üçüncüsü, Rusiya da bu koalisiyada yer alacaq ki, bu amil də rəsmi Bakının müsbət cavab verməsinə şərait yaradır. İŞİD üzvləri arasında savaşan azərbaycanlıların nə planladıqlarını bilmək üçün Azərbaycanın dövlət strukturlarının böyük dövlətlərlə kəşfiyyat xəbərləşməsinə ehtiyacı var. Böyük ölkələr isə təmənnasız rəsmi Bakı ilə xəbərləşməyəcək. Ona görə də Azərbaycanın anti-İŞİD koalisiyasında yer alması ehtimalı yüksəkdir. Buna baxmayaraq, bütün bu prosesin və Azərbaycanın beynəlxalq terrora qarşı verdiyi və verəcəyi töhfənin Dağlıq Qarabağ münaqişəsinin həllinin sürətləndirəcəyini söyləmək çətindir. Əks halda, Azərbaycan 2001-ci ildən antiterror koalisiyasında yer alıb, ancaq bu amil Qarabağ münaqişəsinin həllinə təsir etməyib".

Belə təxmin etmək olar ki, G-20 zirvəsi çərçivəsində Azərbaycan və Amerika prezidentlərinin görüşü də təsadüfi olmayıb. Deməli, bu, həm də Vaşinqtonun Qarabağ müzakirələri üçün ev sahibliyi etməsinin anonsu sayıla bilər. Ancaq Rusiya ABŞ-ın təşəbbüsünə imkan verəcəkmi?

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY

YENİ MÜSAVAT
N 258 (6286) 20 noyabr 2015

# Azərbaycanın "Milan incisi"

## İtaliyada nümayiş etdirilən Azərbaycan pavilyonu Bakı Bulvarında quraşdırıla bilər

**Noyabrın 19-da Heydər Əliyev Mərkəzində "Milan Expo 2015" Ümumdünya sərgisində Azərbaycanın iştirakının yekunları ilə bağlı mətbuat konfransı keçirilib. Tədbirdə giriş sözü ilə Heydər Əliyev Mərkəzinin direktoru, "Milan Expo 2015"də - Azərbaycan nümayəndə heyətinin rəhbəri olan Anar Ələkbərov açıb. Mərkəzin direktoru sərgidə Azərbaycan milli pavilyonunun yaradılması, fəaliyyəti barədə tədbir iştirakçılarına məlumat verib:**

"Bu pavilyon Azərbaycan üçün ən uğurlu layihələrdən biridir. Onun hazırlanması ilə bağlı işlərə 2013-cü ildə başlanılıb. Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva bu işdə bizə dəstək oldu. Onun tövsiyə və tapşırıqları sayəsində layihə uğurlu alındı. 25 ay ərzində pavilyonun tikinti və dizaynında həm Azərbaycan, həm də İtaliya tərəfindən 300 nəfərdən ibarət heyət çalışıb".

**Anar Ələkbərov bildirdi ki, Azərbaycan pavilyonuna "Milan incisi" adı verilib:** "İlk pavilyon idi ki, may ayında artıq tam hazır olaraq onu İtaliya hökumətinə təqdim etmişdik və sərgidə iştirak edən pavilyonlar içərisində Azərbaycan pavilyonu ən uğurlusu idi. Buna görə İtaliya hökuməti və mətbuatı tərəfindən pavilyona "Milan incisi" adı verilib.

Layihəni təqdim edəndə ermənilər fəaliyyətimizi ciddi izləyirdilər. Onlar da özlərinin pavilyonlarını yaratmaq istəyirdilər. Lakin ermənilər bizim işimizi gördükdən sonra sərgidə iştirakdan imtina etdilər".

Anar Ələkbərov Azərbaycan pavilyonuna böyük maraq olduğunu və 3 milyon 250 min nəfər tərəfindən ziyarət edildiyini deyib.

Daha sonra "Milan Expo 2015"də Azərbaycan pavilyonu ilə bağlı videoçarx nümayiş olunub.

**Azərbaycan milli pavilyonu üzrə İşçi Qrupunun rəhbəri Vüqar Məmmədov görülən işlərlə bağlı danışıb:** ""Milan Expo" ümumdünya sərgisini 6 ay ərzində 23 milyondan çox insan ziyarət edib. Bunun da 3 milyon 250 min nəfəri Azərbaycan pavilyonuna baş çəkib. Pavilyonu ziyarət edənlər Azərbaycanın tarixi, mədəniyyəti, mətbəxi, memarlıq abidələri və s. ilə tanış olublar. Bu ziyarətlər çox emosional idi. Onlar Azərbaycan musiqisinə məftun olmuşdular. İtaliyada Azərbaycanın uğurları barədə bilməyən qalmadı.

Azərbaycan bu sərgidə ilk dəfə iştirak etməsinə baxmayaraq bütün pavilyonlar arasında qalib oldu. Dünyanın nüfuzlu mətbuat orqanları pavilyonumuzla bağlı yazılar dərc etdilər.

Beləliklə, Azərbaycan pavilyonu istər tikinti, hazırlıq prosesində, istərsə də sonrakı proseslərdə öz liderliyini saxladı.

Bunun üçün Azərbaycanın şəhər və rayonlarında 150 gün çəkilişlər aparılıb. Layihə ilə bağlı 55 dəqiqə animasiya, 10 min foto çəkilib, 250 videomaterial hazırlanıb.

Onun tikintisi üçün 18 km qaynaq işləri aparılıb, 15 ton dəmir, 680 şüşə paneldən istifadə edilib".

**Həmçinin pavilyonda keçirilən konfrans və tədbirlərdən də danışılıb:** "Pavilyonda Heydər Əliyev Mərkəzi və Azərbaycan Milli Elmlər Akademiyasının təşkilatçılığı ilə birgə "Azərbaycan torpağının enerjisi" mövzusunda elmi konfrans keçirilib. Konfransda bio və nanotexnologiyaların prespektivləri təqdim olunub. Daha sonra





isə həmin təşkilatçılıqla "Ərzaq, həyat, elm" mövzusunda elmi-kütləvi konfrans keçirilib. Maraqlı tədbirlərdən biri də "UEFA 2016" kubokunun Azərbaycan milli pavilyonunda təqdimatı idi. Ən yadda qalan isə "Milan Expo 2015"də Azərbaycan Milli Gününün keçirilməsi oldu. Həmin gün ölkə prezidenti İlham Əliyev və Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva tədbirdə iştirak etdilər.

Azərbaycanda keçirilən birinci Avropa Oyunları pavilyonda canlı olaraq yayımlanıb".

Qeyd edək ki, milli pavilyon İtaliyanın Ətraf Mühit və Dəniz Ehtiyatlarının Mühafizəsi Nazirliyinin "Davamlı Ekspoya doğru" proqramı çərçivəsində "Dizayn və materiallar" nominasiyası üzrə ən uğurlu ekoloji layihə kimi mükafatla təltif olunub və milli pavilyonlar sırasında öz kateqoriyası üzrə ən gözəl pavilyon seçilib.

Daha sonra pavilyonun arxitektoru Rikardo Ciqolotti çıxış edərək layihənin uğurlu alınmasında köməklik edən Azərbaycan hökümətinin rəhbərliyinə öz təşəkkürünü bildirib.

**Çıxışlardan sonra mətbuat nümayəndələrinin sualları cavablandırılıb. A.Ələkbərov bildirdi ki, Milandakı pavilyon Azərbaycana köçürüləcək:** "Sərgidə iştirak edən bəzi dövlətlər öz pavilyonlarını layihə bitən kimi sökdülər. Lakin biz əvvəlcədən bildirmişdik ki, pavilyonu söküb vətənimizə aparacayıq. Hazırda onun məzmunu saxlanılmaq şərti ilə Bakıya gətirilməsi ilə bağlı müzakirələr aparılır. Pavilyonun Bakı Bulvarında quraşdırılmasını istəyirik. Bakıda uyğun məkanın ayrılması üçün Nazirlər Kabinetinə və Bakı Şəhər İcra Hakimiyyətinə müraciət edilib".

Qeyd edək ki, "Milan Expo 2015" sərgisi mayın 1-dən oktyabrın 31-dək davam edib. Sərgi "Planetimizi qidalandıraq, həyat üçün enerji qazanaq" devizi altında keçirilib. Ölkəmizi təmsil edən "Azərbaycan Biomüxtəlifliyin xəzinəsi" adlanan 4 mərtəbəli, ərazisi 1800 kvadratmetr olan Azərbaycan pavilyonu Heydər Əliyev Mərkəzi və Heydər Əliyev Fondunun dəstəyi ilə həyata keçirilib.

❑ **Xalidə GƏRAY**

# Ərzaq məhsullarının qiyməti yenə də bahalaşdı




## Daha çox yağ, çay və düyünün qiyməti artıb

**Ərzaq məhsullarının qiyməti yenə də bahalaşıb. Dövlət Statistika Komitəsinin məlumatına görə, 2015-ci ilin oktyabr ayında ərzaq məhsullarının qiymətləri 0,3 faiz, qeyri-ərzaq məhsulları 0,1 faiz bahalaşıb, əhaliyə göstərilən pullu xidmətlərin qiymətlərində isə dəyişikliklər baş verməyib. Ümumilikdə istehlak məhsulları və əhaliyə göstərilən pullu xidmətlərin qiymətləri əvvəlki ayla müqayisədə 0,1 faiz bahalaşıb. İş o yerə çatıb ki, bir çox marketlərdə artıq ərzaqların üzərinə qiymətləri qeyd edilmir. Hansısa bir ərzağın qiymətini bilmək üçün kassaya yaxınlaşmaq məcburiyyətində qalmalı olursan. Satıcılar qiymətləri piştaxtalara qeyd etməməyi hər gün qiymətlərin bahalaşması ilə izah edirlər.**




"Sabko" marketin satıcısı bildirdi ki, qiymətlərin piştaxtaya yapışdırırlar, səhəri gün isə qiymət tamam başqa olur: "Qiymətləri ərzağın üzərinə yapışdırmaq mənasızdır. Çünki hər gün 3-4 qəpik də olsa qiymətlər bahalaşır. Daha çox yağ, çay, düyünün qiyməti artıb. Bizə hər dəfə firmadan fərqli qiymətə gətirirlər. Ona görə də hər dəfə qiymətləri dəyişmək mümkün olmur".

Digər baş çəkdiyimiz "Ailəm" və "Makro market"də qiymət artımını müşahidə etdik. Xüsusən də zəruri ərzaq məhsullarının qiymətində qəpiklərlə artım vardı. Ancaq bu qəpiklər elə qeyd edilib ki, insana çox kiçik bir rəqəm kimi görünür. Məsələn 65, 99, 15 qəpik kimi qeyd edilən artımlar sanki insanın gözünü aldadırdı. Unun, yumurtanın, xamanın qiymətində 5 qəpik, manqalüstü sosiskanın qiymətində 50 qəpik, çayların qiymətində 15-30 qəpik arası, yağlarda növündən və istehsal yerindən asılı olaraq 20-80 qəpik arası, pendirlərdə 40-60 qəpik, şirniyyatlarda, 30 qəpik, konfetlərdə isə növündən asılı olaraq 50 qəpikdən 2 manatadək bahalaşma müşahidə etdik. Qeyd edək ki, ərzaq məhsulları ilə yanaşı sənaye məhsullarının da qiyməti bahalaşıb. Rəsmi statistikaya görə, sənaye məhsullarının istehsalçı qiymətləri əvvəlki ayla müqayisədə 1,2 faiz bahalaşıb. Oktyabr ayında qeyri-ərzaq məhsullarından parçaların, geyimin, ayaqqabıların, məişət cihazlarının, minik avtomobilləri üçün ehtiyat hissələrinin, dəftərxana ləvazimatlarının qiymətlərində bahalaşma, inşaat materiallarının, dərmanların, zərgərlik məmulatlarının, mebel və ev əşyalarının qiymətlərində isə ucuzlaşma müşahidə olunub. Digər qeyri-ərzaq məhsullarının qiymətlərində ciddi dəyişikliklər baş verməyib.

**İqtisadçı ekspert Qadir İbrahimli bildirdi ki, bu, devalvasiyanın fəsadları ilə əlaqədardır:** "Ümumiyyətlə, Azərbaycanın istehlak bazarının strukturu bərbad vəziyyətdədir. Burada heç bir rəqabət mühiti yoxdur. Sahibkarların, iş adamlarının istehsalçıların hüquqları qorunmur. Yəni Azərbaycan bazarında qiymət mexanizmləri heç bir elmi izahı olmayan bir vəziyyətə düşüb. Qiymətlərin bahalaşmasının ən böyük səbəbi istehlak bazarında monopoliyaların olmasıdır. Yəni bu monopoliyalar istənilən vaxt qiymət artımını diqtə edirlər. İstənilən situasiyada onların qarşısını inzibati yolla almaq mümkün deyil. Ölkənin gəlirləri azaldığından həmin monopolistlər daha çox qiymət artımı hesabına onlara dəyən ziyanı kompensasiya etmək istəyirlər. Təbii ki, belə bir vəziyyətdə qiymət artımları qaçılmazdır. Amma qiymət artımına səbəb olan obyektiv amillər də var. Devalvasiyanın fəsadları hələ də özünü göstərməkdədir. Bu da qiymət artımına təsir edən amillərdən biridir. Amma daha çox səbəb bazarlardakı monopoliyanın yaratdığı amillərdir. Bu, inzibati idarəetmənin yaratdığı amillərdir. Bu, Azərbaycanda korrupsiya mühitinin və iş adamlarına qanundankənar ödənişlərin yaratdığı amillərdir. Bu amillər həllini tapmayınca, Azərbaycanda qiymətlər, xüsusən də istehlak bazarında artmaqda davam edəcək".

❑ **Günel MANAFLI**
**Fotolar müəllifindir**

**Dünya mediasının yazdığına görə, İŞİD terroru Rusiya prezidenti Vladimir Putini Qərb dövlətlərinin izolyasiyasından çıxarıb. Qərbin Rusiyaya qarşı sərt sanksiyaları davam edir. Lakin son terror hadisələrindən sonra bu əlaqələrdə də xeyli yumşalma nəzərə çarpır.**



# İŞİD terroru Putini izolyasiyadan çıxarır

## Ekspert: "Əgər Rusiyanın buna müəyyən ümidləri varsa, bu, puça çıxacaq"

**Politoloq Natiq Miri hesab edir ki, Rusiyanın Suriyaya hərbi müdaxiləsi məhz Putinin diplomatik izolyasiyadan çıxmasına və yenidən "dünya gücü" statusunun bərpasına xidmət edib:** "Nəticə etibarı ilə bu, həm də Rusiya üzərindən Qərbin də sanksiyalarının götürülməsinə şərait yaradıb. Çünki Ukraynada yürüdülən siyasət əslində Rusiyanın diplomatik izolyasiyasına və iqtisadi baxımdan sanksiya ilə üzləşməsinə səbəb oldu. Putin anladı ki, Ukraynada bu savaş yürüdülərkən Rusiya öz istəklərinə nail olmayacaq. Əksinə, getdikcə bu proses daha çox onların özlərinə zərər edəcək. Bu baxımdan Suriyaya hərbi müdaxilə Rusiya üçün "xilas kəməri" kimi istifadə olundu. Eyni zamanda Avropada bütün marginal rəhbərlər, hətta ABŞ prezidenti Barak Obama da "G-20" sammitində etiraf etmiş oldu ki, terrora qarşı mübarizədə Rusiya ilə əməkdaşlıq etmək olar. Bu isə Rusiyanın yenidən siyasi izolyasiyadan çıxıb, Avropa ilə qovuşması anlamına gəlir".

**Politoloq bildirib ki, bütün bunlar Rusiya üçün asan olmayacaq:** "Çünki Obamanın işətdiyi fikirlərdə xüsusi bir vurğu var. O bildirdi ki, Rusiya öz təyyarəsinin terror nəticəsində partladılmasından sonra əgər anladısa ki, Suriyada Əsəd rejiminə dəstək verməkdən çox, terrora qarşı mübarizədə dünya gücləri ilə bir olmaq lazımdır, o zaman gələcəkdə Qərblə əməkdaşlıq edə bilər. Bəli, bu, onların izolyasiyadan çıxmasının göstəricisidir. Ancaq bu da faktdır ki, Obama yuxarıda söylədiyimiz fikri Putinin qarşısında şərt kimi qoyub. Gələcək Rusiyanın Suriyadakı planlarından asılı olacaq. Əgər Putin Əsəd rejiminin saxlanmasını özü üçün vazkeçilməz məsələ sayacaqsa, Rusiyaya qarşı sanksiyalar və eyni zamanda diplomatik izolyasiya davam edəcək".

**N.Miri bildirib ki, Qərbin sanksiyalarına gəlincə bu, Suriyadakı olaylarla deyil, Ukraynada Rusiyanın açdığı savaşla əlaqədardır:** "Bu baxımdan, həm Obama və Amerikanın dövlət katibi Con Kerrinin köməkçisi xanım Viktoria Nulandın da çıxışında göstərildi ki, Rusiya Krımı Ukraynaya qaytarmayana qədər ona qarşı sanksiyalar ləğv edilməyəcək. Bu, eyni zamanda o deməkdir ki, artıq Ukrayna ABŞ və Rusiya arasında siyasi bazarlıq predmeti ola bilməz. Əgər Rusiyanın buna müəyyən ümidləri varsa, bu, puça çıxacaq".

❑ **Əli RAİS**

# "MTN ləğv olunmalıdır" təklifinə sabiqlərdən reaksiya



**İlham İsmayıl:** "Sülhəddin Əkbərin yazısı ilə razı deyiləm"



**Ərəstun Oruclu:** "MTN-in səlahiyyətlərinin bölünməsi qeyri-mümkündür"

**Milli təhlükəsizlik nazirinin sabiq 1-ci müavini, Azad Demokratlar Partiyasının sədri Sülhəddin Əkbərin müsavat.com-da geniş yazısı dərc olunub. Yazıda əsas diqqətçəkən məqamlardan biri də Milli Təhlükəsizlik Nazirliyinin ləğv edilməsi ilə bağlı təklifdir.**

Sabiq MTN-çi qurumun ləğv edilməsini təklif edib. O, bir necə sahənin bir strukturun tərkibində olmasının əleyhinədir: "Milli təhlükəsizliyə birbaşa dövlət başçısı, milli təhlükəsizlik siyasətinin hazırlanmasına və həyata keçirilməsinin koordinasiyasına da onun rəhbərlik etdiyi Milli Təhlükəsizlik Şurası cavabdehdir. Yəni MTN milli təhlükəsizliyə cavabdeh olan dövlət orqanlarından sadəcə biri olub, əsasən kəşfiyyat, əks-kəşfiyyat, təhlükəsizlik və transmilli mütəşəkkil cinayətkarlığa mübarizə funksiyalarını yerinə yetirir. Təcrübə göstərir ki, bu qədər gücün bir əldə toplanması, kəşfiyyat və təhlükəsizlik xidmətlərinin birləşdirilməsi həm yanlışdır, həm də ziyanlı və təhlükəlidir. Buna görə də aparılacaq islahatlar çərçivəsində MTN ləğv edilməli, müasir qloballaşma və sürət dövründə kəşfiyyatın rolunun durmadan artması da nəzərə alınaraq, kəşfiyyat və təhlükəsizlik xidmətləri ayrılmalı, Azərbaycan Respublikasının müstəqil milli kəşfiyyat və təhlükəsizlik xidmətləri yaradılmalıdır".

**MTN-in sabiq polkovnik-leytenantı İlham İsmayıl S.Əkbərin yazısı ilə razılaşmadığını söylədi:** "Yazını oxumuşam. Yazı ilə razı deyiləm. Orada razılaşdığım yeganə məqam kəşfiyyat və əks-kəşfiyyat strukturunun ayrılması ilə bağlıdır. Nazirlik yerində qalır, Kəşfiyyat İdarəsi müstəqil quruma çevrilir. Əvvəllər bunu dəfələrlə mətbuatda demişəm. Amma indiki dönəmdə MTN-dən Kəşfiyyat İdarəsinin ayrılması da məqsədəuyğun deyil. MTN-in ləğv olunması, onu Milli Təhlükəsizlik Şurasının əvəz etməsi ilə bağlı fikirlərlə razı deyiləm. Kəşfiyyat və əks-kəşfiyyatın ayrılması fikirləri doğrudur. Amma kəşfiyyatın ayrılması indiki zamanda heç doğru deyil. Yalnız MTN bu çalxalanmadan sonra özünə gələndən sonra-bu 3-4 il çəkəcək- o zaman kəşfiyyatı ayırıb, müstəqil etmək olar".

**MTN-in digər sabiq əməkdaşı Ərəstun Oruclu da hesab edir ki, MTN ləğv olunmamalıdır:** "Düşünmürəm ki, MTN ləğv olunsun. Sadəcə, onun fəaliyyətinə dövlət, parlament və ictimai nəzarət gücləndirilməlidir ki, qanuni fəaliyyət kənara çıxmasın. Hazırda Azərbaycanda mərkəzləşmiş idarəetmə sistemi mövcuddur. Belə bir sistem mövcud olan yerdə MTN-in səlahiyyətlərinin bölünməsi məsələsi qeyri-mümkündür. Azərbaycanda müxtəlif qurumlar bir-biri ilə nəinki rəqabət aparırlar, hətta bir-birinin əksinə fəaliyyət göstərirlər. Bu, dövlətin maraqlarına ziyan vura bilər. Sonda dövlətə qarşı təhlükəyə çevrilə bilər. Bu mənfi tərəflərdir. Əslində isə qurumun müxtəlif hissələrə parçalanması normaldır. Dünyada bu praktika mövcuddur. Amma bugünkü vəziyyətlə, geosiyasi reallıqla bu qeyri-mümkündür".

❑ **Cavanşir ABBASLI**

# Korrupsiyaya qarşı mübarizədə prezidentə necə dəstək verməliyik?

**Son bir ayda Azərbaycanda korrupsiyaya qarşı mübarizə intensiv hal alıb. Xüsusilə MTN, Rabitə və Yüksək Texnologiyalar Nazirliyində gedən məlum proseslər dediklərimizi təsdiq edir. Hakimiyyətin də bu məsələdə əvvəlki illərə nisbətən qətiyyətli olduğu açıq şəkildə özünü büruzə verir.**

Ölkə başçısının son çıxışları dediklərimizi əyani sübut edir. Prezident demək olar ki, çıxışlarının böyük bir hissəsini bu problemə həsr edir. Həm problemin həll edilməsinin vacibliyindən danışır, həm də korrupsiya ilə məşğul olan məmurlara mesajlarını çatdırır. İqtidarın addımları ölkə ictimaiyyəti tərəfindən də diqqətlə izlənir və dəstəklənir. Maraqlı bir nüans ondan ibarətdir ki, hakimiyyətin son bir aydakı məlum addımlarına, korrupsiyaya qarşı mübarizəsinə müxalif şəxslərin də dəstəyi sezilməkdədir.

**İqtidaryönlü deputat Fəzail Ağamalı hesab edir ki, ölkəmizdə dövlətçiliyimizə qarşı neqativ hallarda iqtidarın yanında olmaq vacibdir:** "Bu cür problemlərdə birlik olanda, cəmiyyət daha çox bəlalardan tez xilas olur. Ölkə prezidentinin bu məsələdəki mövqeyi ortadadır. Cənab prezident korrupsiya, rüşvətxorluq kimi, eləcə də dövlətçiliyimizə, iqtisadiyyatımıza qarşı olan neqativ hallara müharibə elan edib. Bu müharibəni sona qədər aparacağında israrlıdır. Onun atmış olduğu addımlar təsdiq edir ki, artıq xəbərdarlıqlardan konkret işə keçib. Korrupsiya ilə məşğul olan digər məmurların da ibrət dərsi götürmələri üçün belə addımlar atılır. Xoşagəlməz bəladan tamamilə xilas olmalıyıq. Bu problemin həllində xalqla ölkə başçısı bərabərdir. Bir ay öncə seçicilərlə yaxın təmaslarım olurdu, MTN-də baş verən proseslər nəticəsini verməkdə idi. Seçicilərim cənab prezidentlə bərabər olduqlarını daim önə çəkirdilər. Bu gün də xalqımız prezidentlə bərabərdir. Cənab prezident də xalqın dəstəyi ilə addımlarını atır və atmaqdadır".

**Deputat parlament seçkilərindən öncə bu məsələ ilə bağlı kəskin çıxış etdiyini də diqqətimizə çatdırdı:** "Mən ölkə başçısının ötən ayın 17-də MTN-lə bağlı verdiyi sərəncamdan sonra parlamentdəki yığıncaqda sərt çıxış etdim. Başqa bir həmkarım Yevda Abramov da kəskin danışdı.



**Fəzail Ağamalı:** "Susmağın zamanı bitib"



**Qadir İbrahimli:** "Məmurlar bu problemin həll edilməməsində maraqlıdırlar"

Bütün parlament üzvlərini, deputat şansı olmaq istəyənləri, şansı olmayanları ölkə prezidenti ilə bərabər olmağa səslədim. Bütün sahələrdə olduğu kimi, bu sahədə də onun addımlarını müdafiə etməliyik. Prezident addımlarında ona dəstək olduğunu görməlidir. Həmin vaxt parlamentin digər üzvləri tərəfindən də bu hal önə çəkilməli idi. Amma olmadı. Artıq bu məsələlərdə geri çəkilmək yolu yoxdur. Deputat olaraq, borcumuz millətin mənafeyinə xidmət etməkdir. Bütün siyasətçilərə, yeni seçilən millət vəkillərinə üzümü tutaraq, onları prezidentin siyasətini dəstəkləməyə dəvət edirəm. Artıq susmağın zamanı bitib".

**F.Ağamalı korrupsiyaya qarşı mübarizədə mətbuatın rolundan da danışdı:** "Media bu gün ölkə prezidenti ilə bərabərdir. Korrupsiya probleminin həll olunmasında sizin qəzet xüsusilə fəaldır. Vətəndaşlıq mövqeyi nümayiş etdirirsiz. Siz və digər media təmsilçiləri alqışlara layiqsiniz. Birlikdə oğrulara, rüşvətxorlara qarşı mübarizə aparmalıyıq".

**İqtisadçı ekspert Qadir İbrahimli korrupsiyaya qarşı mübarizənin ilk mərhələsinin başladığını qeyd etdi:** "Hesab etmirəm ki, korrupsiyaya qarşı ciddi mübarizə başlayıb. Çünki bu hal təkcə MTN və Rabitə Nazirliyində deyil. Amma bu prosesin başlamasının özü müsbət haldır. Əgər bu proses davam edəcəksə, o zaman qəbul etmək olar ki, korrupsiyaya qarşı ciddi addımlar atılır. Hələ ki dairə çox məhduddur. Bu prosesləri təqdir edirəm. Sahibkarların əsas "düşmən"lərindən biri olan qurum Vergilər Nazirliyidir. Qapadılan iş yerlərinin əksəriyyətində bu qurumun rolu var. Prezident hesab edirəm ki, korrupsiyaya qarşı mübarizədə məmurlardan çox yaxın ətrafından dəstək almalıdır. Çünki məmurlar bu problemin həll edilməməsində maraqlıdırlar. Doğrudur, ictimai rəy bu prosesləri təqdir edir. Sosial şəbəkələrdən bu açıq şəkildə görünür. Açığı, bu mərhələdə "ASAN xidmət"in səlahiyyətlərinin artırılmasının əleyhinəyəm. Çünki biz yeni bir güclü strukturun yaradılmasında maraqlı oluruq. Sadəcə, nazirliklərdə iş rejimi "ASAN xidmət" üsuluna keçməlidir. Bu tətbiq edilsə, cəmiyyətin bütün sahələrindən dəstək gələcək".

❑ **Cavanşir ABBASLI**




# Gürcüstanın SOCAR müəmması-Azərbaycanın layihəsi sıxışdırılır

## Ekspertlər bildirirlər ki, Rusiya Azərbaycanın qaz layihələrini əngəlləməyə çalışır, SOCAR-ın itkiləri arta bilər

**Gürcüstanda SOCAR-ın sıxışdırılması prosesi davam edir. Bunun daha çox siyasi qərar olması isə ekspertlər tərəfindən dəfələrlə bəyan edilib. İki gün əvvəl bununla bağlı Tiflisdə Gürcüstan hökumətinin Rusiyanın "Qazprom" şirkəti ilə danışıqlarına qarşı etiraz aksiyası da keçirilib. APA-nın Gürcüstan bürosunun məlumatına görə, aksiya keçmiş baş nazir Bdzina İvanişvilinin biznes mərkəzinin yaxınlığında baş tutub. Tədbiri Tiflisdə fəaliyyət göstərən "Platforma-Azadlığı müdafiə et!" təşkilatının üzvləri təşkil edib.**

"Gürcüstan hakimiyyəti dekabr ayına qədər "Qazprom" şirkəti ilə müqavilə imzalamaq niyyətindədir. Hərçənd ki, Azərbaycan istənilən həcmdə bizi təbii qazla təchiz etməyə hazırdır. Rusiya qazı bahalı və qeyri-sabitdir. Rusiya qazı şantaj alətidir. Azərbaycan qazı isə ucuz və sabitdir. Bu, iqtisadi deyil, siyasi qərardı",- deyə "Platforma-Azadlığı müdafiə et!" təşkilatının üzvləri bəyan ediblər.

Qeyd edək ki, "Qazprom"la müqavilə imzalanmasının tarixi hələ məlum deyil. Energetika Nazirliyindən bildirilib ki, müqavilənin imzalanması yaxın gələcəkdə həyata keçiriləcək. Gürcüstanın baş nazirinin birinci müavini, energetika naziri Kaxa Kaladze isə bildirib ki, dekabr ayına qədər "Qazprom"la danışıqların başa çatması qüvvədə qalır.

Ekspertlər bildirirlər ki, "Qazprom"un Gürcüstana qaz satması ilə bağlı anlaşmanın gündəmə gəlməsi ilə paralel şəkildə İran da Ermənistan vasitəsilə Tiflisə qaz nəql etməyə qərar verib. Belə bir situasiyada Azərbaycanın qonşu ölkənin qaz idxalında oynadığı rola kölgə sala biləcək proseslərin cərəyan etdiyi vurğulanır. Bildirilir ki, getdikcə SOCAR-ın Gürcüstandan sıxışdırılıb çıxarılması istiqamətində planların dövriyyəyə buraxıldığı barədə ehtimallar ciddiləşir.

Ekspertlərin sözlərinə görə, "Qazprom"dan qaz alınmasına dair Gürcüstan hökumətinin apardığı danışıqlarda bu zərurət iqtisadi faktorlarla əsaslandırılsa da, bu, sırf siyasi məsələdir. Yəni Gürcüstanda qaz-enerji nəqliyyat infrastrukturuna milyardlarla investisiya qoyan SOCAR-a qarşı olan bu münasibət Azərbaycana qarşı hazırkı hakimiyyətin ədalətsiz mövqeyindən qaynaqlanır və sırf siyasi səbəblərlə izah oluna bilər.

**Ekspertlərin sözlərinə görə, bu məsələdə SOCAR-ın itkilərini hesablamaq hələ tezdir, Rusiya ilə Gürcüstan arasındakı danışıqların sonunda itkiləri hesablamaq mümkün olacaq. Ekspert Natiq Cəfərli məsələ ilə bağlı "Yeni Müsavat"a bildirib ki, SOCAR-la bağlı qonşu ölkədə yaranan problem da çox siyasi, hətta geosiyasi məsələdir:** "SOCAR-ın Gürcüstanda çox ciddi bir oyunçu olduğu hamıya məlumdur. Çünki tək Gürcüstanı qazla təmin etmir, həm də qazpaylayıcı şirkət kimi fəaliyyət göstərir. Yanacaqdoldurma bazarında da çox ciddi çəkiyə malikdir. Son zamanlarda bu sahədə baş verən problemlər görünür ki, böyük bir geosiyasi oyunun tərkib hissəsidir. Rusiya Gürcüstan bazarına daha ucuz və daha asan çıxışları təmin etmək üçün Gürcüstanla müəyyən danışıqlar apara ki, Azərbaycanın qaz layihələrini orada sıxışdırmağa nail olsun. Görünən hələlik budur. Amma düşünürəm ki, Gürcüstanın ən böyük vergi ödəyicilərindən biri olan SOCAR-da yaşanacaq problemlər Gürcüstan hökumətinin özünə də yaxın gələcəkdə sərf etməyəcək. Çünki SOCAR ən çox vergi ödəyən şirkətlərdən biridir və Gürcüstan iqtisadiyyatında böyük rol oynayır, yatırımlara sahibdir. Ona görə də bu, iqtisadi məsələdən çox geosiyasi bir məsələdir. İtkilərin hesablanması burada artıq ikinci plana keçir. Bu, qərarların verilməsindən asılı olacaq. Hansı sahədə necə qərarlar veriləcək, itkilər bundan asılı olacaq. Həm də problem odur ki, Gürcüstan üzərindən Rusiyanın qazı Ermənistana qədər keçir. Yəni Gürcüstan buradan tranzit xərci kimi pul şəklində deyil, qaz şəklində borudan qaz götürür. İndi gedən danışıqların əsas məğzi də ondan ibarətdir ki, Rusiya Ermənistana gedən qazın həcmini artıra bilər, Gürcüstan həm tranzit xərci kimi qazın bir hissəsini götürə bilər. Bu, 8-10 faiz civarındadır. Həm də Gürcüstanın özünə lazım olan qədər qaz götürə bilər həmin xəttdən. Söhbət bu yöndə gedir. Qiymətdə razılaşma olsa, ola bilər ki, Gürcüstan özünə lazım olan qazın bir hissəsini Rusiyadan almaq yolunda müəyyən addımlar atsın. Həm də Gürcüstan bunu onunla izah etmək istəyir ki, bir mənbədən asılı olmaq istəmir və buna görə də Rusiya ilə danışıqlara önəm verir. Amma bu danışıqların nəticəsini gözləmək lazımdır. Əgər Rusiya Gürcüstana qaz qiymətində ciddi endirim edəcəksə, onda SOCAR da müəyyən endirim etməyə məcbur olacaq. Bu da təbii ki, həm SOCAR-ın gəlirlərinin itkisinə, həm də ümumiyyətlə, Azərbaycanın gəlirlərinin itkisinə səbəb olacaq. Sadəcə, danışıqların sonunu gözləmək lazımdır ki, təqribi də olsa, itkiləri hesablamaq mümkün olsun. Hər şey Gürcüstanla Rusiya arasında gedən danışıqların nəticəsindən asılı olacaq".

❑ **Röya RƏFİYEVA**

# "Üzən məzənnə" xalqı üzə bilər...

## Azər Mehtiyev: "Azərbaycan iqtisadiyyatı buna hazır deyil, ancaq "tənzimlənən üzən məzənnə" siyasətinə keçə bilər"

**Manatın növbəti dəfə dəyərdən düşəcəyi haqda iddialar səslənməkdə davam edir. Daha çox müzakirə edilən mövzulardan biri də Mərkəzi Bankın "üzən məzənnə" siyasətinə keçəcəyi ilə bağlıdır. Bu səbəbdən əhali üçün hazırda ən aktual suallardan biri "üzən məzənnə" termininin nə olması və sadə insanlar üçün hansı nəticələrə gətirib çıxaracağıdır.**

Bir müddət öncə manatın kəskin devalvasiyaya gedəcəyi, hətta 1 dolların 1,5 manat olacağı haqda informasiyalar yayılırdısa, indi ən çox səslənən variant "üzən məzənnə" siyasəti ətrafındadır. Təsadüfi deyil ki, hökumət də bu variantın üzərində işlədiyini açıqlayıb.

Bəs bu siyasət Azərbaycan iqtisadiyyatına nə verəcək? Manat "üzən məzənnə"yə keçərsə, bu, sadə insanların cibinə necə təsir edəcək? Növbəti ildə bazarlarda bahalaşma müşahidə olunacaqmı?

Heç kimə sirr deyil ki, dollar cüzi faizlə olsa da, manat qarşısında möhkəmlənməkdədir. Bazarlarda hiss edilməyən növbəti bahalaşma dalğasına start verilib. Manat ucuzlaşarsa növbəti il bizi nə gözləyə bilər?

**"Yeni Müsavat"ın suallarını cavablandıran iqtisadçı ekspert Azər Mehtiyev bildirdi ki, Azərbaycan iqtisadiyyatı hələ manatın tam "üzən məzənnə" siyasətinə keçməsinə hazır deyil, "tənzimlənən üzən məzənnə" rejiminə keçmək mümkündür:** "Mərkəzi Bank "üzən məzənnə" siyasətinə deyil, "tənzimlənən üzən məzənnə" siyasətinə keçə bilər. Çünki Azərbaycan iqtisadiyyatı hələ manatın "tam üzən məzənnə" siyasətinə keçməsinə hazır deyil, bu mümkünsüzdür.

"Üzən məzənnə" odur ki, manat tamamilə bazarın ixtiyarına buraxılır və məzənnə öz-özünə, tələb-təklif əsasında bazarda formalaşır. Bunun üçün iqtisadiyyatın güclü olması, manatı müdafiə edən amillərin mövcudluğu əsas şərtdir. Tənzimlənən üzən məzənnə siyasəti isə ondan ibarətdir ki, Mərkəzi Bank özü mövcud şərtləri nəzərə alaraq manatın nə kəskin ucuzlaşmasına, nə də kəskin bahalaşmasına yol vermədən özü tədricən bu prosesləri idarə edir".

**A.Mehtiyevin sözlərinə görə, indiki halda Mərkəzi Bank manatın məzənnəsini uzunmüddətli dövrdə sabit saxlamaq imkanına malik deyil:** "Heç kimə sirr deyil ki, manatın məzənnəsi neft gəlirləri ilə bağlıdır. Dövlət büdcəsi neft gəlirləri hesabına formalaşıb və ona görə də baş verən proseslər - neft gəlirlərinin kəskin şəkildə azalması, dolların getdikcə dünya bazarında möhkəmlənməsi, dekabr ayında ABŞ Mərkəzi Bankı tərəfindən uçot dərəcəsinin artırılması ehtimalı və bu, baş verərsə, onun yaradacağı təzyiqlər manata basqını gücləndirir.

Azərbaycan iqtisadiyyatında olan durğunluq da əlavə olaraq bu prosesə güc verən bir amil sayılır. Manatın məzənnəsini saxlamaq çox böyük xərclər hesabına mümkün olur. Mərkəzi Bankın ehtiyatları uzunmüddətli dövrdə buna kifayət etməyəcək. Bu baxımdan manatın məzənnəsində dəyişiklik və manatın zəifləməsi mütləqdir".




**İqtisadçı ekspert onu da vurğuladı ki, hökumət burada iki variantdan birini seçməlidir; ya kəskin devalvasiyaya getməli, ya da "üzən məzənnə" siyasətini tətbiq etməlidir:** "Bir müddət manatı sabit saxlamaqla dövlət ehtiyatlarını tükətmək və sonra manatın birdəfəlik kəskin devalvasiyasına getmək olar. Bu, həm Mərkəzi Bank, həm hökumət, həm də əhali üçün böyük itkilər deməkdir. Ancaq manatın məzənnəsinin tədricən aşağı salınması qaçılmaz bir proses olacaq, əhali getdikcə buna alışa bilər. Bu yeni bir hal deyil və dünyanın bir çox ölkələrində "üzən məzənnə" siyasəti tətbiq edilir. Uzunmüddətli dövr üçün nəzərdə tutulan tədrici azalmalar o qədər də hiss olunmadan keçir. Lakin bir müddət sonra təbii ki, buna uyğun inflyasiya prosesi hər şeyin korrektə olunmasını tələb edir. Qarşıdan gələn dövr özü inflyasiya dövrüdür, risklərin çoxaldığı bir dövrdür. Təbii ki, əhali də bu riskləri yaşayacaq, müəyyən itkilərə məruz qalacaq. Bu, qaçılmaz bir proses olacaq gedəcək. Bu, devalvasiyanın dərəcəsindən asılıdır. Kəskin devalvasiya hər zaman birdəfəlik böyük itkilərə gətirib çıxarır".

**Azər Mehtiyev növbəti ildə bahalaşmanın qaçılmaz olduğunu və sosial vəziyyətin pisləşməsi ehtimalının da böyük olduğunu qeyd etdi:** "Qarşıdan gələn dövr üçün iki mühüm təsir elementi var. Bunlardan biri iqtisadiyyatın zəifləməsi və manata olan təsirlərdir. Bu, inflyasiyanı artıran bir amil sayılır. Digər tərəfdən də əhalinin alıcılıq qabiliyyətinin aşağı düşməsi prosesi gedir. Əgər ölkəyə idxal prosesində liberallıq artırılsa, bu, müəyyən mənada qiymət artımının qarşısını ala bilər. Yəni Azərbaycan iqtisadiyyatında qiymət artımının qarşısını almaq üçün hələ müəyyən amillər mümkündür. Ancaq bütün hallarda qiymət artımları qaçılmaz olacaq. Bu, həm də hökumətin atacağı addımlardan və bu addımların nə dərəcədə səmərəli olmasından asılıdır. Regionlarda da sosial vəziyyət çətin olacaq. Rusiyadan gələn vəsaitlər azalıb, paytaxtdakı tikinti işləri dayandırılıb. Bu onu göstərir ki, işsizlərin sayı artıb və əhalinin gəlirləri azalıb".

❑ **Nərgiz LİFTİYEVA**




**Cümə söhbətləri**

# Beyətdən imtina tövhidin təcəssümü kimi



Hacı İlqar İBRAHİMOĞLU, ibrahimoglu@gmail.com
İlahiyyatçı-filosof, İçərişəhər Cümə məscidinin imam-camaatı

**Bismillahir-Rahmənir-Rahim! Məhərrəm-səfər ayyamında yaşayırıq. Bəhsimiz Aşura hərəkatının, Aşura məktəbinin ali hədəfi və bu ali hədəfin həyata keçirilməsi üçün baş verən, böyük məktəbin içərisində olan aparıcı mövzular və xətlərdir. Ötən bəhsimizdə qeyd etdik ki, Aşura hərəkatının və Aşura məktəbinin ali, strateji, əsas hədəfi - dinin əhyası, İslamın diri saxlanmasıdır. Bu məktəbdə hansı hissəyə, hansı çalara nəzər salsaq, bunu unutmamalıyıq. Bilməliyik ki, bütün bu baş verənlərin bir ali hədəfi olub - İslamı din olaraq diri saxlamaq.**

### Kərbəla məktəbi qatlardan ibarətdir

Aşuraşünaslar buyururlar ki, Kərbəla məktəbi xüsusi bir məktəbdir. Aşura elə bir fenomendir ki, özünəməxsus cəhətləri var. Dərin bir məktəbdir. Çoxmövzulu, çoxmahiyyətli, çoxqatlı bir fenomendir. Bu cür fenomenləri, nümunələri öyrənmək üçün ali hədəfə aparan xətlərə diqqət etmək lazımdır. Ötən bəhsimizdə bunu da qeyd etdik ki, bu hərəkatın içərisində ən azı dörd aparıcı xətti göstərmək olar. Bunlardan birincisi - imtinadır. İmam Hüseyn (ə) Mədinədə Yezidin (lən) beyət təklifinə imtina edir. Bu imtina ilə dinin əhyası arasında ciddi bir bağlantı var. Bizlər bu gün Aşuranı yaşadarkən baxmalıyıq görək, bu məktəbdən imtina dərsini götürə bilirik, ya yox?

Bir var ki, tarixə gedək və tarixdən danışaq, deyək ki, Əba Əbdillah (ə) imtina etdi və bununla da mövzu bitsin. Bir də var deyək ki, biz bu gün Əba Əbdillah (ə) kimi imtina etməyi bacarırıq, ya yox? Nəfsi istəklərimizin müqabilində, şeytanın (lən) vəsvəsələri müqabilində, toplumun sırıdığı bayağı məsələlərin müqabilində, Allaha aparmayan hər bir mövzunun müqabilində imtina etməyi bacarırıqmı? Bunu düşünsək, o zaman Aşuranı günümüzdə yaşatmaqla dini əhya etmiş olarıq.

### Yaxşıya dəvət və fəsadla mübarizə

Aşura hərəkatının müxtəlif zamanlarında müşahidə edilən ikinci mühüm xətt - doğru işlərə dəvət və pis işlərdən çəkindirmədir. Yaxşı işlərə dəvət və pis işlərdən çəkindirmə Mədinədən başlayaraq Məkkəyə qədər, Məkkədən Kufəyə qədər davam edir. Kərbəla hekayələrinin hamısında başdan-sona qədər yaxşı işlərə dəvət və pis işlərdən çəkindirmə hiss edəcəyik. Həzrət İmam Hüseyn (ə) öz hərəkatının qayələrindən biri kimi də bunu bəyan edir.

Üçüncü xətt - ümmətin islahı və fəsadla mübarizədir. Ümmət bir neçə on ilə gəlib bir vəziyyətə çatıb ki, öz İslami kimliyini itirib, fəsad topluma daxil olub. İndi bir zaman gəlib çatıb ki, Əba Əbdillah (ə) bu məktəbi yaşatmaqla ümməti islah baxımından sığortalayacaq. Bizim bütün bu hərəkat boyu aparıcı bir xətt olaraq müşahidə etdiyimiz məsələ - kufəlilərin dəvəti və İmam Hüseynin (ə) üzərinə düşən imamət missiyasını yerinə yetirməsidir. Kufəlilər minlərlə məktub yazaraq Əba Əbdillahı (ə) dəvət edir və İmam Hüseynin (ə) üzərinə bir İlahi İmam olaraq vəzifə gəlir. İlahi vilayəti əməli surətdə yaşatmaq və ədalətli hökumət qurmaq missiyası bu məktublardan sonra Əba Əbdillahın (ə) üzərinə gəlir. Allah o Həzrəti (ə) təyin edib, İmam (ə) öz vəzifəsinə hazırdır, toplum da əgər buna can atırsa, İmamın (ə) üzərində buna doğru cəhd etmək üçün bir məsuliyyət yaranır. Bu da Kərbəla məktəbinin aparıcı xətlərindəndir.

### Beyətin cavabı

Yeni bəhsimiz bu aparıcı xətlərdən birincisi - imtina ilə bağlıdır. Həzrət İmam Hüseyn (ə) Mədinədə Yezidin (lən) beyətini qəbul etmir, bu beyətdən imtina edir. Bunu anlamaq üçün bir neçə ili öncəyə nəzər salaq. Müaviyyə (lən) tam fərqində idi ki, Əba Əbdillahdan (ə) beyət almaq mümkün olan bir məsələ deyil. Bu xüsusda tapşırıqları da olmuşdu. Amma, hadisələr o cür inkişaf edir ki, Yeziddə (lən) və onun ətrafındakılarda belə təəssürat yaranır ki, onlar özləri üçün ən son manevələrini də həll edə biləcəklər. Bu qədər həddi aşırlar ki, Həzrət İmam Hüseyndən (ə) beyət almaq üçün nümayəndələrini göndərirlər. Həzrət İmam Hüseyn (ə) Yezidə (lən) beyət etməkdən imtina edir. Bu imtinanın bir neçə ciddi əsası, bir neçə köklü mövzusu var.

### Sülalənin qeyri-legitimliyi və Yezidin (lən) şəxsi göstəriciləri

Birinci məsələ Əməvi sülaləsi ilə bağlı olan məsələdir. Əgər Həzrət İmam Hüseyn (ə) Yezidə (lən) beyət etsəydi, Əməvi sülaləsinin qeyri-legitim, qeyri-məşru hakimiyyətini təsdiqləmiş olacaqdı. Yüz iyirmi dörd min peyğəmbər (ə) gəlib, vəzifələri yerlə göyün arasında bağlantını təmin etmək olub. Zamanında hər bir Allah bəndəsi nəbilərin (ə) xidmətinə gəlib, onlara bağlanaraq, yerlə göyün bağlantısına qoşulmuş olublar. Sonunda Həzərt Peyğəmbər (s) sonuncu həccində müsəlmanlara müraciət edir və Allahın əmrini çatdırır. Qurani-Kərimdə də bu buyuruşlar keçir.

Qədir-Xum mövzusunu hər kəs çox gözəl bilir. İslam Peyğəmbəri (s) elan edir ki, onun vəfatı ilə yerlə göyün bağlantısını təmin edən imamət yekunlaşmır, davam edir. Əhli-beytin (ə) xətti ilə, Həzrət Əli (ə) vilayəti ilə bu xətt davam edir. Bunun elanından sonra İslam din olaraq kamala çatır, nemətlər tamamlanır, İslam din olaraq bəyənilmiş hala gəlib çatır.

Əməvi sülaləsi və beyətdən imtina ilə bağlı iki nöqtə var. Birincisi budur ki, Yezidin (lən) ümumiyyətlə İslam toplumunun başında dayanmağa şəxsi, fərd olaraq ləyaqəti yoxdur. Yezid (lən) həm batini, həm zahiri baxımından İslama dəxli olmayan adamdır. Bu, məsələnin bir tərəfidir. Bu, məsələnin mahiyyətinin bir fraqmental hissəsidir.

Məsələ daha dərindir. İmam Hüseynin (ə) zamanın İmamı kimi yerlə göyün bağlantısını təmin etmək məsuliyyəti var. Bu sülalənin beyətini qəbul etməklə, əslində o, öz İlahi məsuliyyətini həyata keçirməmiş olar. Əməvi sülaləsinin İslam ümmətinin başında durmaq üçün heç bir əsası yoxdur. Deməli, bu imtinanın bir tərəfi ümumilikdə etiqad mövzusudur. Bir tərəfdə İlahi vilayət var, digər tərəfdə müxtəlif hoqqabazlıqlar edərək, ümmətin başına keçmək istəyən bir sülalə var. Əməvi sülaləsi üçün İslam ümməti, İslam hakimiyyəti bir vasitədir ki, dünya ilə bağlı öz hədəflərini həyata keçirsinlər. Deməli, **mühüm birinci məsələ budur ki,** əgər İmam Hüseyn (ə) beyət etsəydi, Əməvi sülaləsinin qeyri-legitim hakimiyyətini təsdiq etmiş olardı. Həm Əməvi sülaləsi baxımından bu, mümkünsüz idi, həm də bu mövzu üçün Yezidin (lən) fərdi ləyaqəti yox idi.

### Əgər Əba Əbdillah (ə) beyət etsəydi, İslamın “Fatihə”si verilərdi

**İkinci mühüm məsələ** budur ki, əgər Həzrət İmam Hüseyn (ə) bu beyəti qəbul etsəydi, İslam dini din olaraq sıradan çıxardı. İmamın (ə) buyuruşlarında da biz bu məsələyə rast gəlirik. Bu beyətlə İslamın “Fatihə”si verilərdi. İmam Hüseyn (ə) kimi birisi Yezid (lən) kimi birisinə beyət edəndə yerlə göyün bağlantısının yekunu gəlib çıxar. Nəticədə İslam dini, İlahi din olaraq yekununa çatardı. Təbii ki, İmam Hüseyn (ə) üçün bu, mümkün olan bir məsələ deyil. Həzrət boyu bu və ya digər məqamlarda buna işarələr olunur.

**Üçüncü mühüm məsələ** - camaatın yolunu azmasıdır. Peyğəmbərlər (ə) və İmamlar (ə) - bəşəriyyət üçün bir nümunələrdir. Onların davranışı bir nümunədir. Onların hərəkətləri bir nümunədir. Həzrət İmam Hüseyn (ə) - toplum üçün bir nümunədir. Bu amil də imtinanı zəruri edir. Həzrət İmam Hüseynin (ə) Yezidin (lən) beyətindən imtinası ortaya böyük bir nümunə qoyur. Bu davranış da bir nümunəvi davranışdır. Bu da beyəti mümkünsüz edən məsələlərdəndir.

**Dördüncü mühüm məsələ** - zülmü və zalımı qəbul etməməkdir. Yezidin (lən) beyətini qəbul etmək - zülmü və zalımı qəbul etmək deməkdir. Həzrət İmam Hüseyn (ə) üçün bu da mümkünsüz olan məsələdir.

### Aşura - Qədir-Xumun davamı kimi

Deməli, birinci olaraq dedik ki, imtina ona görədir ki, əgər beyət edilsəydi, Əməvi sülaləsi haqqı çatmadığı, qeyri-legitim olan hakimiyyətini leqallaşdırmış olardı. Həzrət İmam Hüseyn (ə) öz imtinası ilə İlahi vilayətin bəyanını edir və Qiyamət gününə qədər İlahi vilayətin davam edəcəyini və Zəmanə Sahibinin (ə.f) zühuruna qədər bunun davam etdirilməsini əməli halda bir daha bəyan edir. Bu mənada Aşura - Qədir-Xumun davamıdır. Aşura - dinin kamala çatmasının sığortalanmasıdır, nemətlərin tamamlanmasının sığortalanmasıdır, İslamın Allah tərəfindən bəyənilmiş halda qalmasının sığortalanmasıdır.

İkinci qeyd etdik ki, Yezidə (ə) beyət o demək olardı ki, artıq bir dənə də olsun İslam adına mənəvi mərkəz qalmayıb. Yəni, İslamın yaşanmasının sona çatması deməkdir. İmam (ə) bundan imtina edir. Nəticə bu olur ki, həqiqi İslam, Peyğəmbərimizin (s) gətirdiyi İslam, Əhli-beytin (ə) yaşatdığı İslam Qiyamət gününə qədər sığortalanır və əsrlər boyu yaşanır, Zəmanə Sahibi (ə.f) gəlib əməli halda onu həyata keçirəcək, inşəallah.

### İmam Hüseyn (ə) öz məktəbi ilə nümunə qoyur

İmam Hüseyn (ə) öz imtinası ilə həm də ortaya nümunə qoyur. İmam (ə) sanki bu imtinası ilə iman əhlinə müraciət edərək deyir: **“Ey iman əhli, həyatınızın müxtəlif səhnələrində, müxtəlif vəziyyətlərində, müxtəlif durumlarında mənfiliyə, eybəcərliyə, sizi Allahdan uzaqlaşdıran məsələlərə "hə" deməyin, imtina etməyi bacarın".**

Əgər bilmək istəyiriksə Aşurada harada olardıq, gərək içimizə nəzər salaq. Əgər içimizdə nəfslər halımızı üstələyibsə, Allah etməsin Aşurada yezidilərlə olardıq. Əgər daxilimizdə ağıl və mütəali ruhiyyə halımızı üstələyibsə və əməllərimizi müəyyənləşdirirsə - deməli, Əba Əbdillahın (ə) yanında olardıq. Ona görə də daxilimizə nəzər salaq. Aşuranı günümüzə gətirək. Fərdi həyatımızda hansı məsələlər digərlərini üstələyir? Nəfslərimiz, instinktlərimiz, meyllərimiz bizim halımızı müəyyən edirmi?

Bu imtina hər mənada bəşəriyyət üçün nümunədir. Hətta canımızı qurban vermək lazımdırsa belə, gərək nəfsdən imtina edə bilək. Aşura bizlərə bunu öyrədir. Tövhid şüarı olan “Lə iləhə illəllah” - əslinə imtinanın bəyanıdır. “Allahdan başqa heç bir pərəstişə, ibadətə layiq varlıq yoxdur” deyən insan, əslində şeytanlardan imtina edir. Aşura - “Lə iləhə illəllah”ın əməli şəkildə yaşadılmasıdır. İmam Hüseyn (ə) - insanlara imtina etməyi öyrədən bir nümunədir. İmam Hüseyn (ə) Aşura qiyamı ilə həm də zülmə və zalıma qarşı çıxır. Bununla Həzrət (ə) Qiyamətə qədər azadəlik ruhiyyəsini qoruyub saxlayır.

Təbii ki, bu məktəbin, bu əzadarlıqların, minbərlərin, rövzələrin, mərsiyələrin bütün mahiyyəti - dini-imanı diri saxlamaqdır. Əgər bu olacaqsa, din diri qalacaq. Hətta birilərinə bəzən elə gələcək ki, dini sıradan çıxara biliblər. Amma heç vaxt belə ola bilməz. Çünki, bu məktəbin cövhərində, zatında, ruhiyyəsində oyanış var.

### Kərbəlada Həzrət Rüqəyyə (s.ə) səhnəsi

İnsanların həyatlarında ən böyük nemətlərdən biri övladdır. Uşaq arzusu ilə valideyinlər yaşayır, körpə ana bətnində inkişaf edir və dünyaya gəlir. Sonra yavaş-yavaş inkişaf edir, hər addımına, hərəkətinə, yeniliyinə valideynlər diqqət edirlər. Uşaq böyüyür, oturur, durur, addım atır, əvvəl bir söz, sonra bir neçə söz deyir. Üç yaşa çatır. Üç yaş - çox önəmli bir yaşdır...

Bu bəhsimizdə İmam Hüseynin (ə) balaca qızı Həzrət Rüqəyyə (s.ə) ilə bağlı bir neçə mətləbə toxunmaq istərdik. Üç yaş - çox önəmli yaşdır. Bu yaşda olan uşağın beyni artıq ciddi inkişaflara çatır, duyum, zövq hissi inkişaf edir, qavraması artır. Kənar aləmi bütöv halda dərk etmək imkanları yaranır. Emosional baxımından fövqəl dərəcədə imkanlar yaranır. Uşaqda yavaş-yavaş fiziki dərkdən əlavə, obrazlı inkişaf başlayır. Uşaq artır öz “mən”ini dərk edir. Dərk edir ki, o var, ailənin bir üzvüdür.

Xanım Rüqəyyə (s.ə) - Kərbəla məktəbinin iştirakçılarından biridir. Xanım Rüqəyyə (s.ə) üç yaşında idi. Əsir idi o kiçik xanım, yezidlər (lən) atasını şəhid edib, onu əsir götürmüşdülər. Gecə yarısıdır, uşaqdır, atasını istəyir, atasını çağırır. Yezidin (lən) əmrilə uşağa atasının kəsilmiş başını gətirirlər. Uşağı kəsik başla sakitləşdirməzlər. Uşaqdır, yuxusu gəlmir, ağlayır, atasını istəyir. Yəqin, kəsik başı ona verəndə, onu qucaqlayar. Xanım (s.ə) ədəb məktəbu görüb, kəsik başı ayaqlarının üzərinə qoymaz. Kəsik başı bağrına basır, üzündən-gözündən öpür. Uşaq atasına nə deyər? Yəqin ki, “Atacan, səni istəyirəm” deyər. “Anam görür, bibim Zeynəb (s.ə) görür, bacım Səkinə (s.ə) görür ki, mən daha bu gecə yana-yana əriyirəm, atacan, mən səni istəyirəm”, - deyər Xanım Rüqəyyə (s.ə). Və elə oradaca - Şamın xarabalığında, Yezid (lən) sarayının yaxınlığında Xanım Rüqəyyə (s.ə) üç yaşında bu həyatla vidalaşır...

**Allahım, bizləri hidayət yolunda sabitqədəm et! Məhərrəm-Səfər ayyamında qəsavət basmış qəlbləriimizin sağalmasını nəsib et!**

**Allahım, bizlərə İmam Hüseyni (ə) dərk etməyi nəsib et!**

**Allahım! Bizlərə İmam Hüseyn (ə) məktəbində olan imtina dərsini həyatda əməldən yaşatmağı nəsib et! Amin!**

YENİ MÜSAVAT
N 258 (6286) 20 noyabr 2015

# Jurnalistikamızda ən çox rast gəlinən adlar-baş hərfi "Ə"...

## KİV-lərdə qeyri-adi adlara da rast gəlmək olur

**Son günlər yeni doğulmuş qızlara oğlan adı, oğlanlara isə qız adı qoymaq məsələsi gündəmdədir. Uşağa hansı adın qoyulub- qoyulmaması ilə bağlı hansısa bir rəsmi qadağa olmasa da, elə adlar var ki, onların qoyulmaması ilə bağlı mətbuatda, televiziyalarda maarifləndirmə işləri aparılır. Yeni doğulan uşağa gözəl bir ad qoymaq, öncəliklə atanın, sonra ananın vəzifələrindən biridir. Qoyulan adların mənası olmalı, İslam inancına və hökmlərinə uyğun olmalıdır. Uşağa ad seçərkən gələcəkdə onun adı ilə çağırılmasından utanmaması üçün valideynlər yaxşı düşünməlidir.**



Ədliyyə Nazirliyindən az-vision.az-a verilən məlumata görə, bu il yeni doğulan 5 oğlan uşağına Siyasət, 6 nəfərə Artyom, Ənəs, 4 oğlana Meydan , Vətən, Şikar, 3 nəfərə Məharət, Nəzir adı qoyulub. 2015-ci ildə doğulan bir oğlan uşağına Ömrüm, bir nəfərə Okean, bir nəfərə Ömə, bir nəfər Özəl, bir nəfərə Qılınc adı verilib. Qız uşaqlarına da qeyri-adi adların verilməsi halı aşkar olunub. Belə ki, bu il 6 qıza Ömrə, 6 nəfərə Asena, 7 nəfərə Havin, 7 nəfərə Arza, 4 nəfərə Ölü, 4 nəfərə Qəribə, 4 nəfərə Mesed, 4 nəfərə Mərifət, 4 nəfərə Tacirə, 4 nəfərə Mariami, 3 nəfərə Esnad, 3 nəfərə Saimat, 3 nəfərə Həkiməxanım, 3 nəfərə Leysan, 3 nəfərə Manya, 3 nəfərə Maidə, 3 nəfərə Kimyə, 3 nəfərə Biçə adı qoyulub. 2015-ci ildə 2 nəfər yeni doğulmuş qıza Cəlalət, Afərim, Alimə, Alfiya, Ani, Ana, Arəstə, Anora, Lumuxanım, Hüma, Həla, Həlilə, Gilas, Evelina, Faya, Sauda, Sinay, Şüşəxanım, Səlbi, Sevim, Serenay, Səudə, Mülayim, Mixək, Mötəbər, Narxanım, Mərməz, Nobat, Qayd, Özcan, Olivia, Xurma adı qoyulub. Qeyd edək ki, Azərbaycanda bu cür qeyri-adi və gülüş yarada biləcək adlara qadağa olmasa da digər ölkələrdə bu qadağa var. Məsələn, Fransada körpə qıza Nutella adının verilməsi qadağandır.

Çünki bu onun lağa qoyulmasına şərait yaradacaq. Hakim qıza Ella adının verilməsinə göstəriş verib. Bu adın uşağa verilməsinin qadağan edilməsinin səbəbinə gəlincə isə bunu bu cür izah ediblər: Nutella fransız evlərində tez-tez istifadə olunan şokolad kreminin adıdır və lağ, sataşma ilə nəticələnəcək belə bir adı daşımaq uşağın maraqlarına ziddir. Xatırladaq ki, Fransada valideynlər adətən uşaqlarının adlarını sərbəst seçə bilirlər, lakin yerli prokurorluq yararsız hesab etdiyi adlar barədə ailə məhkəməsinə şikayət etmək hüququna malikdir.

Qeyd edək ki, Nazirlər Kabineti yanında Terminologiya Komissiyasında Azərbaycanda uşaqlara verilən müəyyən adların Ədliyyə Nazirliyinin adlar sistemindən çıxarılması ilə bağlı müzakirələr aparılır. Bu barədə APA-ya Nazirlər Kabineti yanında Terminologiya Komissiyasının sədr müavini Sayalı Sadıqova məlumat verib. S. Sadıqova Ədliyyə Nazirliyinin adlar sistemindən çıxarılması müzakirə olunan şəxs adlarının bəzilərini açıqlayıb. Həmin adlar bunlardır: Boran, Bədil, Bircan, Bəzək, Dəxil, Dalğın, Dilənçi, Dəfinə, Çervon, Çələng, Cılğız, Cicigül, Cərulla, Cığa, Cazibə, Carçı, Camo, Canrübə, Canəssa, Düymə, Ehsan, Əbabil, Əbi, Əbiş, Əda, Əcəb, Əhya, Ələs, Əlim, Əmanət, Ərəb, Ərçə, Əyalət, Əyal, Ətir, Fağır, Fani, Fəti, Fərmayiş, Gerçək, Gorus, Güldan, Haqq, Həddad, Həkkak, Həmzat.

Xatırladaq ki, Azərbaycanda son illərdə dini və türk adlarına da maraq artıb. Türk adlarından olan Ay, Dəniz, Can, Cem, Nuray, Aysu kimi adlar da geniş yayılıb.

Maraqlıdır, jurnalistikada çoxluq təşkil edən qeyri-adi adlar varmı?

Kiçik araşdırmamızdan məlum oldu ki, jurnalistika sahəsində xeyli sayda eyni adlı həmkarlarımız var. Azərbaycan jurnalistikasında çoxluq təşkil edən adlar Elşad, Elşən, Azər, Kənan, İlqar, Aygün, Aysel adlarıdır. Daşdəmir, Rey, Möhtərəm, Bətul, İttifaq, Məqsəd kimi qeyri-adi adlara sahib jurnalistlər də var.

❑ **Günel MANAFLI**


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

---

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

---

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**



## Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN
Tel: (055) 776-70-34




# "Land Cruiser" dəhşətli qəza törətdi: 2 ölü

**Bakıda dəhşətli yol qəzası baş verib. Lent.az Bakı Şəhər Baş Polis İdarəsinə istinadən xəbər verir ki, noyabrın 18-də saat 22 radələrində Xəzər rayonu Buzovna qəsəbəsində Bakı şəhər sakini, 1978-ci il təvəllüdlü Namiq Nəcəfov idarə etdiyi «Toyota Land Cruiser» markalı avtomobillə 1969-cu il təvəllüdlü Nurəli Nuriyevi və 1978-ci il təvəllüdlü Teyfur Əsgərovu vurub.**

Nəticədə hər iki piyada aldıqları xəsarətdən hadisə yerində ölüb. Faktla bağlı Xəzər RPİ-də araşdırmalar aparılır.




# Vergidən yayınan şirkət rəhbəri İnterpol xətti ilə axtarışa verilib

**Azərbaycanda vergidən yayınan daha bir iş adamı beynəlxalq axtarışa verilib. APA-nın məlumatına görə, bu barədə İnterpolun saytında məlumat yerləşdirilib. Məlumatda qeyd olunur ki, 54 yaşlı Qalib İbrahimov külli miqdarda vergi ödəməkdən yayınmaqda təqsirləndirilir. O, Azərbaycandan qaçdığı üçün barəsində dövlətlərarası axtarış elan olunub və saxlanılması üçün İnterpola müraciət edilib.**

APA-nın əldə etdiyi məlumata görə, Q. İbrahimov "Azkomp" MMC-nin direktorudur.

Qeyd edək ki, son vaxtlar Azərbaycanda vergidən yayınan xeyli sayda yerli və əcnəbi iş adamları beynəlxalq axtarışa verilib.


## Montində, Nərimanov Məhkəməsinin həyətində 2 maşınlıq daş qaraj satılır.

**Obyekt kimi də istifadə etmək olar. Pultla idarə olunan jalüz qapıları var. Tavanı lambrin, döşəməsi tametdir. Ayrılıqda da istifadəyə yarayır. Sahibindən satılır, qiyməti bazar qiymətindən ucuz. Sənədi var.**

**Əlaqə nömrəsi (050) 264 49 99**

YENİ MÜSAVAT
Son səhifə
N 258 (6286) 20 noyabr 2015

# Evləndikləri gün ümumi yaşları 194 olub

Böyük Britaniyanın 103 yaşlı sakini Corc Kirbi və 91 yaşlı Dorin Laki dünyanın ən yaşlı yeni evliləri olaraq "Ginnesin Rekordlar kitabı"na düşüb. Cütlük 2015-ci ilin iyun ayında 27 illik münasibətlərindən sonra toy edib. Toy mərasimi İngiltərənin İstborn şəhərində keçirilib. Mərasimin keçirildiyi tarix bəyin ad gününə təsadüf edib. Tədbir zamanı Dorin mavi rəngli güllərlə bəzədilmiş ağ gəlinlik geyinib. Bəy isə aldığı travmaya görə əlil arabasında əyləşib. Kirbi və Laki 1988-ci ildən vətəndaş nikahında olublar və övladlarının israrından sonra nişanlanıblar. Kişi öz sevdiyinə müqəddəs Valentin Günündə evlənmə təklifi edib. Nikah günündə isə cütlüyün ümumi yaşı 194 il 280 gün olub. Ondan öncəki rekordmenlərin ümumi yaşı isə 191 il 126 gün idi.






## 156 ildir həll edilməyən problemi həll etdi və 1 milyon dollar qazandı

Nigeriyalı Opeyemi Enoc adlı riyaziyyat professoru ilk dəfə 1859-cu ildə Bernhard Riemann tərəfindən ortaya atılan və bu günə qədər çözülməyən Riemann Hipotezini çözməyi bacarıb. Enoc, hipotezin çözümünü Avstriyanın paytaxtı Vyanadakı beynəlxalq riyaziyyat və kompüter elmləri konfransında təqdim edib. 156 ildir həll edilməyən problemi həll edərək tarixə keçən Enoc 1 milyon dollarlıq mükafatın da sahibi olub. Clay Riyaziyyat İnstitutu tərəfindən ən çətin problemlərdən biri olaraq qəbul edilən problem 1994-cü ildə çözülən Fermatın son teoremindən sonra müzakirə olunan ən məşhur problemdir.




## Bu ətir "yemək" üçündür

Bolqarıstanda satışa yeni dezodorant çıxarılıb. Konfet şəklindəki bu dezodorant bütün pis qoxuları bədəndən apararaq 6 saata qədər gül qoxusu yayır. Maraqlıdır ki, bu dezodorantı bədənə vurmurlar, yeyirlər. Ventsislav Peychevin sahib olduğu Alpi adlı şirniyyat firmasının istehsalı olan "Deo Parfum Candy" konfet şəklindədir və onu yeyən insanın bədənindəki bütün pis qoxular gedir. Amma qoxunun təsir gücü yeyilən konfetin miqdarına və bədən ağırlığına görə dəyişir. Konfet şəklindəki dezodorant fikri yeni deyil. Yaponiyada daha öncə bazara çıxarılan, amma uğur qazanmayan bir saqqız markası da çeynənildə eyni təsir gücünü yaradırdı.

# Sevgiliniz bunları edirsə... sizi aldadır

İngilis psixoloqlar sevgilisinə (həyat yoldaşına) yalan danışan adamların psixologiyası ilə bağlı maraqlı araşdırma aparıb. Alimlərin fikrincə, sevdiyiniz adamın yalan danışdığını düşünürsünüzsə, heç vaxt itirmədən ona bu sualları verin: niyə elədin? Əgər sevdiyiniz bu suala hirslənib, həddən artıq gərgin reaksiya verəcəksə, bu, onun məsum olduğunu sübut edir. Yox, əgər sualınıza cavab olaraq sizi nə qədər çox sevdiyini, sizə dəyər verdiyini deyirsə, bu, artıq aldatmanın sübutudur. Bundan başqa, əgər sevgiliniz sizinlə bir yerdə ikən gülümsündüyü halda, bədən dili başqa şeylər deyirsə, bu, onun yalan söylədiyinin sübutudur. Bundan başqa, yalan danışan adamlar yalanlarını gizlətmək üçün çox cəhd göstərməyə məcburdular. Buna görə də narahat görünən adamların yalan söyləmə ehtimalı özünü rahat aparan adamınkından daha yüksəkdir. -"American Society for Information and Technology" jurnalında yer alan məqalədə o da göstərilib ki, yalan danışdığından şübhələndiyin adamla telefon və ya sms vasitəsilə yox, üz-üzə ünsiyyət qurmaq daha məsləhətdir.





## Qadın sürücülər daha çox söyüş söyürmüş

İngiltərədə müştərilərinə sığorta və maliyyə xidməti təklif edən "Direkt Line" adlı şirkət maraqlı bir araşdırma həyata keçirib. 2013 sürücü arasında keçirdiyi rəy sorğusunun nəticəsinə görə, qadın sürücülər avtomobil idarə edərkən kişilərdən daha çox söyüş söyürlər. Qadınların 48 faizi sükan arxasında söyüş söydüyünü səmimi şəkildə qəbul edib. Kişilərin isə cəmi 40 faizi belə bir etiraf edib. Rəy sorğusunun nəticələrinə görə, başqa bir sürücü tərəfindən yolları kəsilən qadınların üçdə biri, kişilərin isə dörddə biri söyüşdən silah kimi istifadə edir. Qadın sürücüləri təbdən çıxaran əsas səbəb isə kişi sürücülərin onlara yolda sataşmasıdır.




**QOÇ** - Ulduzlar daha çox romantik duyğulara qərq olmağınızı tövsiyə edir. Çünki ətrafınızda bədxah adamların olması hələ dünyamızın pis olmasına dəlalət etmir. Tanrıya sığının.

**BUĞA** - Yaxşı olar ki, ixtiyarınızda olan bu təqvimdə qeyri-adi hansısa addımı atmayıb adi işlərlə məşğul olasınız. Onsuz da əvvəlcədən planlaşdırdığınız işlər bu gün reallaşmayacaq.

**ƏKİZLƏR** - Tanrı ixtiyarınıza elə bir gün verib ki, xeyli məmnun qalacaqsınız. İstər fəaliyyətdə, istərsə də qarşılıqlı münasibətlərdə xoş ovqat qazanacaqsınız. Bədxərclik etməyin.

**XƏRÇƏNG** - Ulduzlar şəxsi büdcəni artırmaq üçün uğurlar vəd etsə də, qərəzli sövdələşmələrə zəmin yaradacağınızdan narahatdır. İndi sizə reallığı nəzərə almaq ən vacib məsələdir.

**ŞİR** - Qarşınızda duran bu təqvim həyatınızda mövcud olan kompleks problemlərin həll olunmasına xidmət edəcək. Amma ilk növbədə tərəfdaşlarınızla sivil qaydada davranmalısınız.

**QIZ** - Rastlaşdığınız situasiyaların mürəkkəbliyi qərar çıxarmağınıza mane ola bilər. Odur ki, hər bir qərarı verərkən reallığı nəzərə alın. Bunu bacarsanız, hər şeydən razı qalacaqsınız.

**TƏRƏZİ** - Ümumi orqanizminizdə aktivliyin azalması gözlənilir. Bu səbəbdən sağlamlığınızı qoruyun ki, günün uğurlarını özünüzə yaxınlaşdıra biləsiniz. Yeni təkliflərə razılıq verin.

**ƏQRƏB** - Yaxşı olar ki, günün ilk yarısında neytrallığınızı qoruyasınız. Ələlxüsus da qarşılıqlı münasibətlərdə təmkinli olmalısınız. Nahardan sonra iş prinsipində uğurlarınız başlamalıdır.

**OXATAN** - Əgər öz güc və potensialınıza inanırsınızsa, boş dayanmayın. Məqsədinizə gedən yolda dayanmadan irəliləyin. Əmin olun ki, bu istiqamətdə etibarlı dostlarınızdan dəstək alacaqsınız.

**OĞLAQ** - Beyninizdə ilişib qalan arzularınızı tədricən reallaşdırmağa başlayacaqsınız. Bu istiqamətdə nüfuzlu və təcrübəli insanların köməyindən yararlanın. Büdcənizdə artım gözlənilir.

**SUTÖKƏN** - Çoxdan görmədiyiniz doğma və yaxınlarınızla görüşmək üçün bu təqvimdən yararlanmağa çalışın. Onsuz da təbiətin durumu fəaliyyətdə hər hansı yeniliyə çatmağa imkan verməyəcək.

**BALIQLAR** - Mistik deyimlərə əhəmiyyət verməkdənsə, Allahın adını uca tutub hərəkət edin. Əgər özünüzə əminsinizsə, bu təqvimdə böyük işlər görə biləcəksiniz. Duyğularınızı məhəbbətə həsr edin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Dünyanın ən zərərli içkisi kəşf edildi



Mütəxəssislər dünyadakı ən qeyri-sağlam içkini kəşf ediblər. Bu, kalorisi və doymuş yağ miqdarı baxımından ən zərərli içkidir. Mütəxəssislər xüsusən də içərisində şokoladlı dondurma qoyulan "milkshakele"nin qaraciyərin düşməni olduğunu açıqlayıb. Tərkibində qoruyucu maddə olsa da, bu içkilər şişmanlığa səbəb olur. Bundan başqa, sözügedən içkinin həvəskarlarına onu evdə hazırlamaq və həftədə cəmi 2-3 stəkan içmək məsləhət görülür. Çünki bayırdan alınan milkshakelərin tərkibində zərərli maddələr üstünlük təşkil edir.

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.300